– Üç yüz otuz üç!

Heç kos hay vermədi.

Kassaçı ucadan təkrar etdi:

– 333!

Birdən Nemət duman içində dərk elədi ki, deyəsən, onu çağırırlar. Yaxasından döşlük kimi asılmış kərpicvarı ağ lövhəyə baxdı: lövhənin üstündəki üç iri rəqəmi aydın gördü və var gücüylə bağırdı:

– Mənəm, Namazov Nemət!

Səsi lap yavaşdan çıxdı.

Növbədə dayanmış adamlar ona məzəmmətlə baxırdılar. Susmuşdular. Yorğun, kədərli görkəmləri vardı. Çoxusunun sifəti Nemətə tanış gəlirdi, amma kim olduqlarını təyin edə bilmirdi. Bu adamları harda görüb, haçan?

Səssiz addımlarla kassaya yanaşdı.

– Hara bilet almaq istəyirsiniz?

– Bakıya.

– Hansı qatara? Kislovodsk-Bakı, yoxsa Krasnovodsk-Bakı?

– Kislovodsk-Bakı, – dedi və fikirləşdi ki, yaxşı, bəyəm biz Kislovodskda deyilik?

Kassaçı Səfdər dayı eynəyinin ardından mağmın-mağmın Nemətə baxdı, sonra zəhmlə soruşdu:

– Bakıya getməyə icazən var?

– İcazə lazımdır? Mən üç ildir növbəyə yazılmışam.

– Dəxli yoxdur. Neçə bilet istəyirsən?

Nemət barmaqlarını yummağa başladı.

– Bir, iki, üç, dörd, beş, altı. Altı. Plaskart. Kupe.

– Kimə-kimə?

– Arvadım bir. Mən iki. Qayınanam üç. Üç də qızım.

– Qızlar sənin deyil.

Nemət təəccüb etdi: kassaçı qadın bunu hardan bilirdi?

– Biri mənimdir, ikisi...

– Birinə bilet verə bilərəm. O ikisinin də öz ataları gəlib alsın.

Nemət qüssə bürüdü. Gərək həmişə belə bir əngəl çıxsın. Özü də lap son dəqiqədə. Üç il gözləyəndən sonra. Bu zaman yadına başqa bir məsələ də düşdü: "Qoy bunu da deyim, sonra bu da bir iş olar".

– Pişiyimiz də var, – dedi, – pişiyə də bilet almaq lazımdır?

– Mütləq.

Yaxşı, onda deməli, beş bilet verin, – barmaqlarını bir-bir yumdu, – arvadım, mən, qayınanam, kiçik qızım, pişik.

Kassaçı biletləri yazmağa başladı.

Bu vaxt növbədən kimsə çıxıb kassaçıya yanaşdı, əyilib qulağına nə isə pıçıldadı.

Kassaçı diqqətlə Nemoti süzdü:

– Eyib olsun sənə, – dedi, – aldadıbsan bizi. Bir əyninin geyiminə bax.

Nemət əvvəl öz geyiminə, sonra isə növbədə dayanmış yorğun, əzgin adamların geyiminə baxdı.

Növbədə dayanan kişilər və qadınlar eyni rəngli boz zolaq-zolaq pijama və xalat geymişdilər. Təkcə Nemətin əynində mavi rəngli saya pijama vardı.

Adamlar ona məzəmmətlə baxırdılar.

Bu zolaq-zolaq adamların içində Nemət qərib və əcaib görünürdü.

Hamının yaxasından kərpicvarı lövhə asılmışdı, üstündə də qara rəqəmlər.

– Axı, mən növbəyə yazılmışdım. – Nemət adamlara yalvardı. Üç həftə bundan qabaq, yox, üç il. Üç il bundan qabaq. Bilirdim ki, bilet işi çətindir. Nömrəm də 333-dür.

– Hanı? – deyə bayaq kassaçıyla pıçıldaşan kişi Nemətə baxdı. – Sənin nömrən yoxdur.

Nemət yaxasındakı lövhəyə baxdı: doğrudan da, lövhə ağappaq idi. Nemət yavaş-yavaş aradan çıxıb əkilmək istədi. Kassaçı Səfdər dayı arxadan onu harayladı.

– Nemət, al biletini...

– Bəs axı...

– Bir bilet verə bilərəm. Pişik üçün. Çünki o, zol-zoldur.

Nemət böyük mavi dənizin sahilinə çıxdı. "Kislovodskda dəniz? deyə təəccüblə düşündü. – Bəlkə, bura Kislovodsk deyil, Krasnovodskdır. Aha, belə de. Bəs, mən onda qatara niyə bilet alıram? Gəmiylə də getmək olar. Onda anamla atamı da apara bilərəm, axı onlar da hardasa bu tərəflərdədir".

Kislovodsk parkının ağ sütunlu qapılarından yaşıl xiyabana daxil oldu. Söyüdlər sərin-sərin xışıldaşırdı.

"Amma insafları varmış. Səfalı yerə sürgün eləyiblər. Atamı deyə bilmərəm, amma anam yazıq istiyə dözə bilmir".

Nə qədər cəhd elədisə də, anasının sifətini yada sala bilmədi.

Birdən xatırladı ki, gedib zol-zol pijama almalıdır. Yoxsa qatara bilet verməzlər.

Kislovodskın məşhur "Pyataçok" küçəsinə çıxdı. Küçəni keçəndə arxadan milis fiti eşitdi. Ona aid idi; hərəkət qaydasını pozmuşdu. Milis bir də aramsız fit çaldı. Nemət dayanmadı. Addımlarını becidləşdirdi. "Bacarırsa qoy çatsın" – deyə sürətlə uzaqlaşdı. Milis isə şəhərlərarası telefon zəngi kimi aramsız fit çalırdı.

Birdən fit səsi kəsildi. Nemət cəld tini buruldu, nəfəsini dərib geri qanrıldı: onu təqib edən yox idi. Qəflətən ağlına gələn fikirdən Nemoti soyuq tər basdı. "Bilirsənmi daha niyə fit çalmır, niyə təqib etmir? Nömrəni yazıb, vəssalam. Bəs elə bilirdin qaçıb qurtarmısan? Lap arxayın ol, nömrəni yazıb götürüb, bütün postlara xəbər verəcək".

Gözü divara sataşdı. Divarda tumbul bir qız uşağının şəkli asılmışdı. Qıvırcıq saçları, çəhrayı, gödək, qırçınlı paltarı vardı. Yanaqlarından qan damırdı. Şəklin altında: "Ata, Kislovodskdan mənə sosli məktub yaz" sözləri yazılmışdı.

Nemət "Pyataçokun" hündür yerindən üç nəfərin ona tərəf gəldiyini gördü. Biri böyük qızı idi, qızı ona yanaşıb:

– Ata, mənə maqnitofon al, – dedi.

İkincisi anası idi. Nemət onun üzünün cizgilərini ayıra bilmirdi. Amma bilirdi ki, anasıdır.

Üçüncüsü Sürəyya idi – Nemətin arvadı.

Sürəyya saatı soruşdu.

Nemət iri küçə saatına baxıb:

– Üç tamam, – dedi.

Arvadının səsi lap yaxından eşidildi:

– Ay Nemət, oyan görək! Saatı soruşuram.

Nemət gözlərini açdı.

– Nə?

– Deyirəm saat neçədir? Mənim saatım yatıb.

Nemət qol saatına baxdı.

– Doqquza iyirmi dəqiqə qalıb, – dedi.

– Sən allah, dur get çörək al. Çörəyimiz qurtarıb.

– Yaxşı, bu saat. Beş dəqiqədən sonra.

Gözlərini ovxaladı. Divara tərəf çevrildi.

– "Taldı-Kurqan, Alagöl, Manançı".

Bir ilə yaxın idi ki, Nemət iş otağını böyük qızına verib onun yerinə keçmişdi. Ancaq vaxtilə qızının çarpayının yanından vurduğu böyük xəritə hələ də divarda dururdu. Sovet İttifaqının siyasi xəritəsi. Ölkənin cənub sərhədi Nemətin balışının yanına düşürdü.

Hər səhər Nemət gözlərini açıb bu xəritəni görürdü. O, Şərqi Qazaxıstanın şəhərlərini, göllərini, çaylarını əzbər bilirdi.

Çox vədə gecələr yuxusu qaçardı. Qaranlıqda xəritə yazılarını seçmək olmurdu. Amma gözüyumulu halda da Nemət barmağını düz Taldı-Kurqanın, yaxud Alagölün, ya da Manançanın üstünə qoya bilərdi.

Bəzən bu şəhərləri, çayları, gölləri, ümumiyyətlə, bu ərazini təsəvvüründə canlandırmağa çalışırdı. Ucsuz-bucaqsız çöllər, alaçıqlar, susayıb göl, çay kənarına gələn at ilxıları... Uzun yallı ağ atlar... sonra yuxu bataqlıq kimi çəkib onu aparırdı.

– Ay Nemət, sən allah, dur çörəyə get də...

Yuxu qırsaqqız olub yapışmışdı, əl çəkmək istəmirdi. Ancaq Sürəyyanın səsində narazılıq xalları vardı.

Nemət cəld yorğanı kənara atıb sıçradı. Bir-iki dəfə əl-qolunu atdı – öz aləmində bu, səhər idmanı idi. Üzünü yuyub mətbəxə keçdi.

– Adam madam iysi gəlir, yağlı badam iysi gəlir.

– Get çörək al gətir, onda yağlı badam da görərsən.

Çörəyə növbə yox idi. On dəqiqədən sonra ər-arvad ağ, təmiz, səliqəli mətbəxdə qabaq-qabağa oturub çay içirdilər.

Nemət:

– Bir qatmaqarışıq yuxu görürdüm ki! – dedi. – Görürəm Kislovodskdayıq. Bakıya bilet almaq istəyirəm, özü də, bax, bu pijamada gəlmişəm, deyirlər yox, zol-zol pijama geyməsən bilet verməyəcəyik.

Pişik miyoldadı. Nemət kolbasanın bir tikəsini ona atdı və gülümsündü:

– Pişiyə də bilet alırdım. Ona bilet verdilər, dedilər zol-zoldur.

– Belə ağıllı yuxular gördüyünçün ayılmaq istəmirdin? Saatı soruşuram, deyirsən üç.

– Yuxuda saat üç idi də.

Sürəyya:

– Mürşüdgil deyəsən bu il də Kislovodska gedəcoklər, – dedi.

– Kislovodskın o bilet müsibəti yadıma düşəndə heç ora ayaq basmaq istəmirəm.

Mixəyi qalstuku qırış idi, yaşılı bağladı.

– Yaxşı, hələlik, – dedi. – Mən getdim.

– Tez gələcəksən? Axı, bu gün şənbədir...

– Ay aqibətin xeyir, – şeşəbığlı Musa kişi qırmızı siqaret paçkasını Nemətə uzatdı. – "Arzu" da var a, bəlkə "Arzu" verim! Mağıl indi filtrin bolluğudur.

– Yox, elə "Nərgiz" yaxşıdır. Kibritin varmı? Ay sağ ol.

Siqareti damağına aldı. Kibrit çəkdi. O biri səkiyə keçib qəzet köşkünə yanaşdı.

– Sabahın xeyir... Varındı?

Salman kişi eynəyinin altından gözlərini azacıq qıydı. Nemətdən başqa heç kəsin sezə bilmədiyi "hə" işarəsini verdi. İşindən qalmadı:

– Bu sənin "İzvestiya"n. Al, bu "Kommunist". Buyur, "Gənclər", "Pravda" yoxdur, qurtarıb. "Trud" üç qəpik. "Bakı", əlbəttə, dünənkidir, yoxsa bugünkü olacaq səhər-səhər? "Komsomol?" Buyur, – deyə alıcıları bir-bir yola salırdı.

Sonra becid bir hərəkətlə piştaxtanın altından qəzet çıxarıb Nemətə uzatdı.

Nemət:

– İki dənədir də? – deyə soruşdu.

– Eyib sözdür ki...

– Ay sənı yüz yaşa. Buyur.

Sağ ol! Xoş getdin!

Bu iti əməliyyat növbədə dayanmış çil-çil köynək oğlanın nəzərindən yayınmadı.

– Ə kişi, bəs deyirdin "Futbol" yoxdur? Deməli, daşbaşçün saxlamısanmış. Barı saç-saqqalından utan!

Salman kişi partladı:

– Ağzını dağıtma, qırışmal! Daşbaşı atan eləyir. Bu yoldaş abunəçi yazılıb. Abunəçini qoyub sənə verəcəyəm?

Nemət aralanıb gedə-gedə Salman kişinin səsini eşidirdi.

– Sən də zəhmət çəkib vaxtında yazılaydın.

– Abunəçi burdan niyə gəlib alır? – Oğlan son zəif bir cəhd də etdi. – Evinə yazdırar da...

– Kefi belə istəyir. Burda yəni sənlik bir iş var?

Salman kişi elə böyük bir canfəşanlıqla ağın qara olduğunu isbat edirdi ki, çil-çil köynək oğlan təslim bayrağını qaldırdı:

– Yaxşı, nöş dava eləyirsən? Bir sözdü dedim, dcməmiş olum, bağışla.

Nemət dodaqaltı qımışa-qımışa bağa girdi. Boş skamyada əyləşdi. "Yox, deyəsən, bu gün pis başlamayıb... qəribə yuxu. Dadlı səhər yeməyi. Ətirli filtr. İki "Futbol" qəzeti".

Günəşli ilıq gündü. Ağ seyrək buludlar pərən-pərən olub göyə dağılmışdı. "Belə gündə həmişə adamın ovqatı xoş olur".

Amma ovqatının xoş olmasının ayrı, daha vacib səbəbi də vardı: Dadaş kişi sözünün üstündən qaçmasa...

Qəzeti açıb baxmağa başladı. SSRİ və İrlandiya seçmə komandalarının sabahkı oyunu haqqında yazılar dərc olunmuşdu. Məşqçilərin bəyanatları, komandaların heyəti, gümanlar, fərziyyələr...

– Sabahın xeyir, Nemət, işə getmirsən?

Narın ətir iyi Nemətin burnunu çaldı. Başını qaldırıb Təhminəni gördü.

– İndi gələcəyəm. Hazırlıqlı gəlmək istəyirəm. – Əlindəki qəzeti göstərdi. – İstəyirəm futbol yeniliklərindən əvvəlcə özüm agah olum.

Təhminə:

– Görək axırı bu futbol sizin başınıza nə oyun açır, – dedi və gülümsündü. Ağappaq, xırda tən-bərabər dişləri vardı. Qarğıdalı dənələri kimi bir boyda və narın.

Qırmızı bahari paltarının qolları kəsik idi. Yaxasından ətəyinəcən bir düzüm düymə cərgələnmişdi.

Yaxşı, hələlik, – deyə əl elədi, uzaqlaşıb getdi.

Nədənsə Nemət Təhminəni ürəyində həmişə Kaman-qız çağırırdı.

"Kaman-qız!" Özünə demomişdi, amma onu gördüyü ilk günlərdən belə adlandırmışdı. Səsinə görə yox. Səsi boğuq və bəm idi. Bəlkə ona görə ki, ucaboylu, arıq idi, uzun ayaqları vardı. Bəlkə də ona görə ki, kaman kimi onu da ancaq şaquli təsəvvür etmək olurdu.

Bəzi qadınları üfüqi təsəvvür edə bilirsən. Amma Kaman-qız şaquli qadın idi, gözlərini yumsan da, onu yalnız dimdik görəcəksən. Uzun ayaqlarıyla addımlayır, gedir. Quş kimi harasa tələsir. Həmişə ayaq üstə. Şəməşək. Kaman-qızı yataqda uzanan təsəvvür etmək çətindir. *O yalnız üz-üzə dayanıb öpüşə bilər, qollarını boynuva salar.*

Dolayar qollarını boynuva. Dolayar uzun qollarını boynuva. Dolayar uzun qollarını boynuva şərf kimi.

Yox, deyəsən, doğrudan da, bu gün pis başlamayıb. Bütün ayrı gözəlliklərdən başqa səhər-səhər dünyalar gözəlinin qarşına çıxması, iki kəlmə söz kəsməsi savabların savabıdır.

– "Görək Dadaş kişi ovqatımıza soğan doğramasa. Dəbbələməsə!"

Dünən işdən çıxıb evə gəlirdilər, birdən Dadaş Nemətə müraciət elədi:

– Yaxşı, de görüm, sən bədii ədəbiyyat tərcümə eləmirsən? Vallah, deyir, elmə də, kütləyə də canım qurban, başımı elə bu yolda ağartmışam, amma tək elmi-kütləvi ədəbiyyat tərcüməsindən nə çıxacaq! Deyir, qaz vur, qazan doldur. Yaxşı, savadlı, ixtisaslı tərcüməçisən. Yavaş-yavaş keç bədii ədəbiyyat da tərcümə elə.

– Eləyirəm də, Dadaş müəllim, hərdən görürsən düşəndə hekayədən, oçerkdən...

– Hekayədən, oçerkdən nə olsun e... Maşallah bir çoton külfətin var.

– İndi kinostudiya üçün "dublyaj" eləmişəm. "Jivıye i mertvıye" kino var e, bilmirəm, görmüsünüz...

– Hə, Simonovun romanını çəkiblər...

– Bəli.

Aralığa sükut çökdü. Nemət tilov atmış balıqçı kimi gözləyirdi. "Hər halda məndən deməkdi. Tutdu qatıq, tutmadı ayran. Səhərdən bəhanə axtarırdım. Yaxşı ki, sözü özü saldı".

Kiçik bir tərəddüdən sonra Dadaş:

– Lap yaxşı, – dedi, – o roman bizim nəşriyyatın planında da var. Götür tərcümə elə. Bacararsanmı?

Nemət şiddətli ürək döyüntüsünə görə dilinin dolaşacağından qorxdu, bir müddət danışmadı. Sonra:

– Dublyaj eləyəndə materialın içinə girmişəm, – dedi və nəfəsini dərdi, – mətnə elə alışmışam ki, mənco, çətin olmaz.

– Neynək. Mənim etirazım yoxdur.

Yenə bir müddət susdular. Dinib – danışmadan addımlayırdılar.

– Amma bilirsiniz də, Dadaş müəllim, – Nemət sükutu pozdu, – qabaqdan yay gəlir. İstəyirəm ayrı iş götürməyəm, elə bütün yayı oturub bunu işləyəm.

Dadaş arif idi. Mətləbi göydə tutdu.

– Sabah yadıma sal, – dedi. – Müqavilə bağlayaq sənlə. Oturub rahat işləyə bilərsən.

– Çox sağ olun.

Pis kişi deyil bu Dadaş. Görüb-götürmüş adamdır. Özü deməyinə qırx ildir nəşriyyatda işləyir. Deyir başımın tükü sayı adamlar görmüşəm burda. Otuz beş il bundan qabaq kuryerlikdən başlayıb...

Ay Dadaş, başıva daş.
Tərpənmə belə yavaş.

Bəli, şunu götür, şunu qoy. Ora qaç, bura qaç. Ora-bura qaça-qaça bir gün olub korrektor, sonra redaktor, sonra şöbə müdiri... nə isə, indi nəşriyyatda heç beş də yox, üç kişinin biridir. Hörməti, sözkeçərliyi müdirdən heç əskik deyil.

Amma, insafən, heç özünü dartmağı-zadı yoxdur. Böyüknən böyükdü, kiçiknən kiçik. Boş damarı da ki, futbol. Pah atonnan! Bu yaşda belə həvəs?! Futbol adı gələndə kişinin gözü-başı qaynayır. Elə "Futbol"un ikinci nüsxəsini də onunçün götürmüşdü.

Avtobus dayanacağa çatıb nəfəsini dərdi. Qapıları açıldı, düşüşmüş başlandı. Nemət nömrəsinə baxdı. Yox, mənimki deyil. Onun avtobusunun nömrəsi Nemətin yaşına uyğun idi – 33.

Görəsən, camaatın dediyi nə dərəcədə həqiqətə uyğundur? Yəni doğrudan Dadaşla Təhminənin arasında ayrı haqq-hesab var? Heç inanılası deyil. Dadaş hara, Təhminə hara? Təhminə! Kaman-qız! Bəli, bu da sənin kaman-qızın. Şaquli qadın. Yox əşi, inanmıram, sözdür. Camaatdır da, danışmağa qeybət gəzir... Amma bir yana baxanda... Dadaş da az aşın duzu deyil ha, yüz fırıldaqdan çıxıb. Bildir Daşkəndə konfransa gedəndə yadımdadır nə oyunlardan çıxırdı.

Nemət bir də Dadaşla Təhminəni gözlərində canlandırdı. Dadaşın yekə qarnını, daz başını, ziyilli burnunu... bir də Təhminənin uzun qıçlarını, uzun qollarını.

Üz-üzə dursaydılar Dadaşın başı Təhminənin çiyninə çatmazdı. "Dola qollarını boynuma!" Qollarını Dadaşın yoğun peysərinə dolamaq üçün Təhminə gərək dizi üstə çökəydi. Ya da Dadaş taburetkanın üstünə çıxaydı...

Nemət xəyalında canlandırdığı mənzərəyə özü də güldü. Dadaş taburetkanın üstündə! "Əşi, mənim nə borcuma! Onun əri var, bunun arvadı: özləri bilərlər. Bu gün mənim müqaviləmə qol çəksin. Vəssalam, şüttamam. Onda yayın pulu düzəlir. Onda bu gün dublyajdan mənə çatacaq pula maqnitofon alaram. Karmenə çoxdan söz vermişəm".

Karmen Nemətin böyük qızı idi. Üç qızı vardı, Ortancılı Cilda, kiçiyi Nərgiz.

Nemət nə səsini itirmiş sabiq müğənni idi, nə də opera dəlisi. Opera dəlisi rəhmətlik Əsəd kişi idi. Karmenlə Cildanın atası, Sürəyyanın birinci əri.

Nədənsə bir səhnə heç Nemətin gözləri qarşısından getmirdi: Əsəd kişi iri lırt meşin kürsünün lap dibinə çöküb. Bir dizinin üstünə Karmeni alıb, bir dizinin üstünə Cildanı. Hardansa tapdığı nadir opera vallarına qulaq asırlar.

Karmen olardı o vaxt yeddi-səkkiz yaşlarında, Cilda beş-altı yaşında. İndiki kimi yadımdadır, qızların cüt paltarları vardı. Moskvadan gətirmişdi, çəhrayı paltarlar, qırçınlı, göm-gödək... Başlarında iri çəhrayı bantları vardı. Yanaqlarından da qan damırdı. Qıpqırmızı. Üzlərini Əsəd kişinin üzünə qoyub saatlarla qulaq asardılar. Əsəd kişi də elə bil cənnətin tən ortasında oturub, aldığı zövqdən-səfadan gözlərini yumardı.

Bir dənə də qəribə abajurları vardı. Elə xoş, ilıq işıq salırdı ki, bütün otaq isti pürrəng çay rənginə çalardı.

Karmen məktəbə gedəndə dərslərindən axsamağa başladı. Əsəd professor idi, məşhur cərrah idi, ora-bura çəkirdilər, uşaqla məşğul olmağa hövsələsi hardandı? Elə boş vaxtı olan kimi valları qoyub çorta gedirdi.

Uzun sözün qısası, soraqlaşıb Nemətі tapdılar. Köhnə pulnan ayda 150 manata Nemət Karmenlə məşğul olurdu. Cildanı da məktəbə hazırlayırdı.

55-ci il idi. Nemətin 23 yaşı vardı, mətbəədə mürəttib köməkçisi işləyirdi, universitetdə də qiyabi oxuyurdu, biblioqrafiya şöbəsində.

Anası bir il bundan qabaq rəhmətə getmişdi. Ömür vəfa eləmədi ki, atasının şad xəbərini alsın. Arvadı basdırandan iki həftə sonra Nemətə atasının bəraət kağızını təqdim elədilər.

Əsəd Sürəyyadan iyirmi iki yaş böyük idi. Müharibədən qayıdandan bir il sonra Sürəyyayla evlənmişdi.

Qısa müddətdə Nemət Əsədgilin ailəsinə çox isnişdi. Kasıblıq çəkdiyini bilirdilər, tez-tez nahara saxlayırdılar: "Tələbə babasan, otur, görək Sürəyya xanım bizi nəyə qonaq edəcək" – deyə Əsəd onu

masanın başına dəvət edərdi. Həmişə arvadına "Sürəyya xanım" deyərdi. Nemət bir dəfə də olsun eşitməmişdi ki, Əsəd arvadını eləcə "Sürəyya" çağırsın, "xanımsız", yox, həmişə "Sürəyya xanım" ki, "Sürəyya xanım!"

Böyük otaqları vardı. Yumşaq xalılarla döşənmişdi. Xalılar addım səslərini su hopduran kimi canlarına çəkirdi. Divarda Əsədin atasının iri şəkli asılmışdı.

Qonaqları oldu, olmadı, fərqi yoxdur, həmişə masanın üstünə ağappaq, nişastalı süfrə salınardı. Bahalı qab-qacaq, gümüş çəngəl-bıçaq düzülərdi. Ailə üzvləri yaxalarına ağ salfet salıb eyni vaxtda masanın başına keçərdilər.

Ev-eşik par-par parlayardı. Nemət heç bir dəfə də olsun Sürəyyanı, ya qızlarını səliqəsiz görməmişdi. Həmişə paltarları ütülü, saçları daranmış.

Hər dəfə Nemətə elə gəlirdi ki, Sürəyya hamamdan bax bu dəqiqə çıxıb: əl-üzü tərtəmiz, ağappaq. Dərisi hamar-hamar...

Çox vaxt Nemət İçərişəhərdəki dar, rütubətli daxmasına qayıdıb bütün gecəni yata bilmirdi. Gözünü əhəngi tökülmüş divarlara zilləyib, yerində o yan-bu yana qurcuxurdu, yatanda da elə bil yuxusuna od tökülürdü.

Novruz bayramı axşamı Nemətı yenə saxladılar. Ağ süfrəyə yaşıl səmənilər, nazik, rəngbərəng şamlar, boyalı yumurtalar, bəzəkli xonça düzüldü. Şəkərbura, paxlava gəldi.

Əsəd:

– Yaxşı, xoş bayramdır, – dedi. – Amma heyif ata-babalarımız bir az xərifləyiblər içkini haram eləyəndə... İçkisiz məclisin nə duzu?

Nemət gülümsündü. O bilirdi ki, Əsəd içən deyil. Bu sözləri də yüngül zarafat naminə, məzəyçün deyir.

– Deyirəm, Nemət müəllim, – o yenə qımışdı: "Nemət müəllim", – gəlsənə bu köhnə bazara təzə nırx qoyaq. Bir balaca qədim ənənəni pozaq. Deyirəm o rəhmətlik kişilər bizdən inciməz, həmi?.. Əslinə qalsa, onların özlərinin də içməklə araları saz imiş.

Əsəd kişi uzun bir əhvalat danışdı, 22-ci ildə 17 yaşında, ilk dəfə Bakıya gəlməsindən, əhli-kef əmisiylə içki məclisinə düşməsindən (indiki zabitlər evi var ha, bax, onun yerində restoran idi), ömründə ilk dəfə dilinə araq vurmasından, sonra da halının xarab olmasından, biabırçılıqdan... Susdu və əlavə etdi:

– Gəl adama bir azacıq konyak içək. Şirniyyatın malı konyakdır.

Sürəyya xırda, zərif qədəhlər gətirdi.

– Sağ olaq! Deyirəm gəl içək Sürəyya xanımın sağlığına!

Nemət:

– Sağ olunuz! Sürəyya bacı, sizin sağlığınıza! – dedi və həyatında ilk dəfə içdi.

İkinci qədəhdən imtina etdi. "Gərək abırlı gedəm" deyə düşündü.

Amma abajurun işığı o qədər mülayim, ılıq, mehriban, çay o qədər ətirli, Əsədin çaldırdığı musiqi o qədər həzin idi ki, heç durub getməyi gəlmirdi.

Əsədgildən çıxanda gec idi. Küçədə dönüb bir də onların dördgöz pəncərəsinə baxdı. İki pəncərə qaranlıq idi – qızlar yatmışdılar. İki pəncərə isti pürrəng çay rəngli idi. Onların ardında musiqi səsləri yumşaq xalçalara hopub itirdi.

Nemət bu pəncərələrə baxdı, baxdı, birdən tramvayın xırıltısını eşitdi, bildi ki, son tramvaydır, götürüldü, sürüşüb yıxıldı, tələsik durdu, yenə qaçdı və özünü zorla çatdırıb, axırıncı vaqonun dal qapısından içəri atıldı.

Tramvay bomboş idi. Nədənsə içəridə işıq da söndürüldü. Relslər üstündə taq-taq taqqıldayan tramvayın axırıncı vaqonunda bir Nemət qaldı, bir də pəncərələrdə əks olunan ulduzlar. Qabaqkı vaqonda konduktor qızla sürücü oğlan bərk mazaqlaşırdılar. Dünyayi-aləm gözlərində deyildi.

Havada baharın nəfəsi duyulurdu. Yaz gecəsinin nəfəsi.

Bir fikir-hiss qəfil külək kimi Nemətin içində qopdu, bayraq kimi qəlbində dalğalandı: birdən-birə dərk etdi ki, Sürəyyaya aşiq olub. Bu kəşf damardakı qan kimi təpədən topuğacan içini dolaşdı, dövran etdi, qızdırdı. İçində nə isə uçub dağıldı. Düşündü, anladı ki, bu, hədər, ümidsiz, gümansız bir sevgidir. Nə əvvəli var, nə axırı. Sürəyya onunçun əbədiyyən çatılmazdır. Və bu fikrin mütləqliyi xəstə bir ehtiras kimi onu daha da gözərtdi, qövr etdirdi, elə bil qəlbinə, beyninə bir qom qor atdılar.

Kədərlənmədi. İlıq, titrək, nigaran bir duyğu bütün varlığını limhəlim doldurmuşdu. Elə bil tramvay silkələndikcə o bu hissin bir giləsinin, bir damcısının dağılacağından qorxurdu.

Tramvay relslərdə çaqqaçuruq atlandıqca pəncərələrdə ulduzlar diksinirdi...

O gecə dar daxmasına getmədi. Səhərəcən küçələri hadırladı. Səhərəcən Sürəyya da onunlaydı.

Aman Allah! Elə bil bütün bunlar dünən olmuşdu. Ya da min il bundan qabaq. İndi, on il sonra o mart gecəsinin uzaq ürkək xatirələrini düşündükcə Nemət gülümsünürdü.

Həyat qəribə gözlənilməzliklərlə doludur. On il bundan qabaq, o mart gecəsi Nemətə ömrünün bax bu gününü, 65-ci il 5 iyun gününü danışsaydılar, inanmazdı.

Bu gün səhərdən bəri baş vermiş ən adi, xırda hadisələr – Sürəyyanın onu yuxudan oyatması, qarşı-qarşıya oturub çay içmələri, qəndqabını bir-birinə ötürmələri, evdən çıxarkən sağollaşmaları – bütün bunlar hamısı on il bundan qabaq Nemətə mümkünsüz bir xülya, çatılmaz bir röya kimi görünürdü. Doğrudan belədir e...

Bu fikirdən başqa bir xoş ümid də doğdu. Bəlkə on il sonra həyatında olacaqları da bu gün heç təsəvvürünə gətirə bilmir. Nemət ən gizli arzularını, quyular dibində gizlətdiklərini, heç bir zaman həyata keçəcəyinə inanmadıqlarını yada salmağa çalışdı. Yadına saldı, düşündü, güldü. Yəni doğrudan bir vaxt gələcək, bütün bunlar reallığa, doğruya çevriləcək? Çətin ağlım kəsir. Amma məgər on il bundan qabaq bu günümü danışsaydılar, inanardım? Yox. Deməli...

Deməli, hər şey ola bilər. Fikrimdən qovduqlarım, quyular dibində basdırdıqlarım, haqqında düşünmək belə istəmədiklərim hamısı bir gün – beş ildən, on, on beş ildən sonra, həyatım ola bilər.

Ancaq bu fikirdən sevinmədi. Çünki bu fikrin ardınca ikinci bədbin fikir də gəldi: bəlkə bütün bunlar reallığa, doğruya çevriləndə, ömrüm olanda onlar da bugünkü həyatım kimi adi, vərdişli, gündəlik olacaq...

Bir gün Nemət həmişəki kimi qızlarla məşğul olmaq üçün Əsədgilə gələndə çöl qapılarını taybatay açıq gördü. Qonşular, qohumlar, tanıdığı və tanımadığı çoxlu adam girib-çıxırdı. Dəhlizdə Alyanı – Sürəyyanın böyük bacısını gördü. Əvvəl geyiminə diqqət elədi – geyimində nə isə bir tələsik matəm, lapdan düşmüş yas əlaməti vardı: başına qara örpək salmışdı, ancaq paltarı ala-bəzək idi. Sonra sifətini gördü. Gözləri şişmişdi, qıpqırmızı idi, amma dodaqları boyalıydı.

Nemət həvlnak içəri keçdi.

O gün gündüz saat ikidə Əsəd elə idarədəcə keçinmişdi. Ürəyi partlamışdı.

Meyit balaca otaqda idi. Arvadlar olan otaqda. Böyük otaqda divar boyunca çoxlu stul düzülmüşdü. Qonşulardan yenə də daşıyırdılar. Nemətin tanıdığı və tanımadığı kişilər oturub xısın-xısın Əsədin özündən, rəhmətlik atasından, ölümün qaşla göz arasında olmasından, əcəldən, ürək xəstəliyindən, ümumiyyətlə, xəstəliklərdən söhbət edirdilər. Qara boz köynəyini şalvarının üstündən salmış, buxara papaqlı, çal topasaqqallı, Nemətin tanımadığı qoca bir kişi:

– Ölüm var ki, ölümdür, ölüm də var zülümdür, – dedi. – Bununku lap zülüm oldu.

Yeddisi çıxanacan Nemət səhər-axşam hər gün gəlirdi.

Yeddisi günü axşam camaat dağılışanda Sürəyya Nemətə yanaşdı:

– Bu günlər aləm qarışdı, – dedi. Karmen onsuz da axsayır, indi yəqin, lap geri qalıb. Sabahdan yenə məşğul olmağa başlayın, özü də lap ciddi.

İki aydan sonra bir gün Nemət utana-utana Sürəyyaya yanaşdı:

– Sürəyya bacı, – dedi. Çoxdan bəri demək istədiyi sözləri necə deyəcəyini bilmirdi. – Bilirsiz, Sürəyya bacı, mən elə alışmışam ki, sizin ailənizə... istəyirdim deyəm sizə ki, mənə... pul-zad lazım deyil. Karmenlə də, Cildayla da elə-belə məşğul olacam...

Sürəyya güldü:

– Nə danışırsız, Nemət! – dedi. – Bir də belə sözü ağzınıza almayın. İnciyərəm. Möhkəm inciyərəm.

Yayı Sürəyyagil heç hara getmədilər. Bakıda qaldılar. Əsədin ilini verdilər. Bir payız axşamı söz təzə filmdən düşdü. Sürəyya dedi ki, heç axırıncı dəfə kinoya getdiyi gün yadına gəlmir. Səhərisi gün Nemət "Bahar" kinoteatrına dörd bilet alıb gətirdi. Karmen və Cildanın söyləriylə Sürəyyanı birtəhər razı saldılar. Dördü bir yerdə "Bahar"da məzəli bir komediyaya baxdılar: cavan sevgililər öz ata-analarının bütün maneə və əngəllərinə baxmayaraq, yüz cür kələk qurub sonda bir-birinə qovuşurdular. Sürəyya xeyli güldü. Kinodan çıxanda Nemətə elə gəldi ki, o cavanlaşıb, elə bil birdən-birə birillik matəmi üzündən yuyulub tökülüb. Sürəyya əvvəlki Sürəyya, Əsədin sağlığındakı Sürəyya idi. Bəlkə də daha əvvəlki Sürəyya, Nemətin onu hələ tanımadığı bir vaxtın Sürəyyası. Əsədə getməmişdən qabaqkı çağın, qız çağının Sürəyyası.

İki-üç dəfə də birlikdə kinoya getdilər. Dördü bir yerdə. Maraqlı xarici film gedirdi. On altı yaşına çatmamış uşaqları buraxmırdılar. Bu filmə ikisi getdi... Sürəyya və Nemət.

Bəzən bulvara, parka gəzintiyə çıxırdılar. Sürəyya, Karmen, Cilda, Nemət. Bir dəfə dəniz seyrinə çıxdılar.

Payız, asqılıqdan palto götürən kimi, ağacların başından küləyi götürüb getdi. Səssizlik çökdü təbiətə. Bir gecə sükut və sakitlik içində aram-aram, yavaş-yavaş, yumşaq-yumşaq qar yağmağa başladı. Qar gecəni ağartdı. Qış gəldi.

Nemət timsah ağzı kimi aralanmış ayaqqabılarında artıq gəzə bilmirdi. Özünə təzə çəkmə aldı, paltoya pulu çatmadı. "Eybi yoxdur, pencək müəllim bu qışı da bizi birtəhər yola verər" – deyə düşündü.

Bir gün Sürəyyagildən gedəndə Sürəyya ona qəzetə bükülü iri bir bağlama uzatdı. "Evdə açarsan" – dedi. Nemətin səbri çatmadı, elə pilləkəndə açdı. Dərhal geri qayıtdı. "Bu nədir? – dedi. – Mən sizdən inciyərəm. Eyib deyilmi?". O, doğrudan pərt olmuşdu.

Uzun mübahisələrdən, xeyli çənə-boğaz olandan sonra Sürəyya onu razı saldı. Nemət evə təzə paltoda getdi. Evdə gördü ki, karıxdığından paltonun mağaza kağızını da çıxartmayıb, bütün yolu belə gəlib.

Qış günlərindən birində qızlarla məşğul olub, evinə gedirdi.

Sürəyya:

– Otur bizimlə nahar eləyək, – dedi. – Yarpaq dolması bişirmişəm.

Nahardan sonra "ləzgi qonağı" kimi dərhal durub qaçmaq olmazdı. Oturub Sürəyyayla söhbət etməyə başladılar. Qızlar öz otaqlarına gedib yatdılar.

Nemət özü haqqında danışmağı sevməzdi. Bəlkə də bacarmırdı. Amma indi qəribə bir həvəslə Sürəyyanın suallarına müfəssəl, yerliyataqlı cavablar verirdi.

Əvvəl söhbət atasından düşdü. "Yadıma gəlmir, – dedi. – Lap duman içində xatırlayıram ki, boyu çox uca idi. Ya bəlkə o vaxt mənə elə gəlirdi. Axı onu aparanda beş yaşım vardı.."

"Bəli, düzdür. Zakfederasiya vaxtı narkom olub, axır illərinə qədər böyük vəzifələrdə işləyib, 35-ci ildə Samuxda ispalkom işləyib. Anam danışardı, deyir, camaat onun başına and içirdi, evlər tikdirmişdi, yol saldırmışdı. Evindən aparmağa qorxublar. Bakıya çağırıb burda tutublar".

"Hə, otuz səkkizinci ildə Bakıya köçdük. Camaat qoymurmuş, anama deyiblər ki, sən arxayın ol, səni də saxlayacayıq, uşağınızı da böyüdəcəyik. Amma anam razı olmayıb. Köçüb Bakıya. Dayım Bakıda imiş. Elə mən indi olduğum həmin bu evi də dayım tapıb. Hə, ba-

lacadır, çox balacadır, amma daha neyləyəydik. Hələ, siz onu deyirsiniz... bura təzə köçəndə qonşularımız bilirmiş ki, atamı aparıblar. Anam, rəhmətlik, deyirdi ki, adamın Allahı var, insafən üzümüzə vurmurdular, amma öz aralarında danışırlarmış. Qonşumuzun bir oğlu vardı. Elə mənimlə yaşıd idi, beş-altı yaşında olardıq o vaxt. Həmişə çıxıb bizim damımızda oynayır, atılıb düşürdü. Anam danışırdı ki, çıxıb deyirəm: ay bala, orda atılıb düşmə, qırı xarab eləyirsən, yağış yağanda bütün su evimizin içində olur. Uşaq nə desə yaxşıdır? "Çox danışma, siz qraq narodsuz". O vaxtdan anam həmişə acı-acı gülüb: neyləyək, a bala, qraq naroduq da, – deyərdi.

– İnişil anam ağır xəstə yatanda... hə, vərəmdən öldü. Üstəlik yel xəstəliyi də vardı, hə, anam inişil xəstə yatanda o uşağın atası bizə dəyməyə gəlmişdi. Anamdan çıxmayan iş, danışdı bu əhvalatı. Kişi qıpqırmızı qızardı. "Bəs o vaxt mənə niyə xəbər eləməmişsiniz, – dedi, – öz damıma qır saldıranda sizin damınıza da saldırardım". Eh, nə isə...

Sonra Sürəyya danışmağa başladı.

Nemət indiyəcən heç bilmirdi ki, Əsədlə Sürəyya həm də Sürəyyanın anası tərəfdən yaxın qohum imişlər: dayıoğlu, bibiqızı.

Əsəd də Nemət kimi uşaq yaşından yetim qalıb. Onu Sürəyyanın atası Fəttah kişi böyüdüb, Kiyevdə oxutdurub. Rəhmətə getməmişdən bir az qabaq Əsədi yanına çağırıb, deyib bax, bu üç qızımı sənə tapşırıram. Aralığa müharibə düşüb. Müharibədə Əsəd cərrah kimi yaman ad çıxarıb. Cəbhədə, deyir, qiyamət eləyirmiş. Ölüləri dirildirmiş. Təcrübəsi çox olub. Özü deyirdi ki, elə bil on akademiya qurtarıb gəldim. Gələndən üç il sonra professor olub.

Fəttah kişinin külfəti müharibə vaxtı çox qıtlıq görübsə də, Əsəd qayıdandan bəri bir şeydən korluq çəkməyib. Sürəyyanın böyük bacısı Alyanı Əsədin cəbhə dostu Murtuz adında bir polkovnik alıb.

– Tahirə, ortancıl bacım institutdan bir oğlanla gəzirdi, homin bu Cabbarla, bir qrupda oxuyublar, elə ona da getdi.

...Bir gün də görürəm anam məni çağırıb deyir, bala, bacıların getdi, sənincün də yol açıldı, bəs, səni Əsəd istəyir.

On doqquz yaşım vardı. APİ-də oxuyurdum. Sonra ki, Karmen oldu, institutdan çıxmalı oldum. Əsəd elə hey deyirdi ki, heç olmasa qiyabi oxu qurtar. Amma hardan? Cilda oldu. Başım elə qarışmadı ki... oxumaq yadıma düşsün. Eh, nə bilim, vallah!

Söhbətləri çox uzandı. Nemət birdən saata baxdı və ürəyi tupp elədi: birin yarısı idi. Heç vaxt bu evdə belə gec qalmamışdı. Ayağa durmaq istəyəndə birdən gözləri Sürəyyanın gözlərinə sataşdı. Necə olub bayaqdan bəri bunu görməyib? Sürəyyanın gözləri dolmuşdu. Yanaqlarına iki gilə yaş axmışdı. Nemət lap özünü itirdi. Nə etməyi, hansı sözlərlə ovutmağı, təsəlli verməyi bilmirdi. Karıxıb qalmışdı. Sürəyya onun bu təlaşını gördü, baftalı kiçik dəsmalını çıxarıb göz yaşlarını sildi, gülümsəməyə çalışaraq:

– Eybi yoxdur, – dedi, – mənə fikir vermə, keçər. Susdu və qəfilcən Nemətin heç gözləmədiyi sözləri əlavə etdi:

– Allah mənə bir oğul vermədi. – Nemət bu sözlərdə nə isə bayaqkı qəmli söhbətə bənzəməyən başqa bir həyəcan duydu, sövq-təbii bir hisslə bu həyəcanın xalını, çalarını anladı və özü də həyəcanlandı.

Elə həmin andaca Sürəyya alayavaş səslə:

– Elə istərdim ki, oğlum olsun, – dedi, – özü də heç olmasa bir az sənə oxşasın.

Nemətin ürəyi şiddətlə döyünməyə başladı. Qızardığını hiss etdi və bunu hiss etdiyindən, qızarmamağa cəhd göstərdiyindən və bacarmadığından daha da pörtdü.

Sürəyya onun üzünə baxırdı, əvvəl iki yanağından çıxan iki "qırmızı turpu", sonra bütün sifətini bürüyən rəngi görür və Nemətin halını başa düşürdü. O, mehriban və bir qədər şıltaq təbəssümlə əlini Nemətin saçlarına çəkdi. Həmin dəqiqədəcə Nemət əsəbi və kəskin hərəkətlə Sürəyyanın əlini qapıb cod öpüşlərlə aramsız öpməyə başladı. Abajur çayın rəngi kimi dibə çökdü. Tavan uzaqlaşdı, qaraldı, itdi. Bir an Nemət məkan hissini itirdi, ancaq bir fikir beynində titrəyib duruldu ki, Sürəyya əlini çəkmir. Və qəfil qərarla Nemət illərdən, aylardan bəri rütubətli daxmasında boğduğu çılğınlıqla Sürəyyanı qolları arasına aldı, bağrına basdı və tez-tez öpməyə başladı. Dodaqlarını axtardı. Sürəyyanın çovuyan, itən dodaqlarını axtardı, tapa bilmədi, göz qapaqlarından, alnından, çənəsindən, boynundan öpdü.

Nemətin iyirmi üç yaşı vardı və həyatında ilk dəfə barmaqlarında, dodaqlarında bəyaz qadın dərisinin hamarlığını duyurdu...

– İcazə verin.

Nemət başını qaldırıb ona tərəf əyilmiş kişini gördü. Siqareti damağından götürüb kişiyə uzatdı. Kişi siqareti papirosuna dirəyib sümürdü, yandırdı, "təşəkkür" deyib getdi, bağın içindən çıxdı, uzaqlaşdı.

Bir aydan sonra evləndilər. Sürəyya nə məharət işlətmişdisə, o gündən bəri Karmen də, Cilda da Nemətı "ata" bilirdilər. Nemət də onları doğma övladı sayırdı.

57-ci ildə Sürəyyanın Nemətdən bir qızı da oldu. Sürəyyanın anası Bikə xala qızı Nemətə gedəndən bəri bir il idi onlarla küsü saxlayırdı. Sürəyyanın Nemətə getməsiylə heç cür barışa bilmirdi. "Ay virananın övladı, bizi el içində xar etdin. O cür kişinin arvadı, yaraşar ki, ərinin meyiti soyumamış belə dılğırın, uşaq-muşağın birinə getsin?! Əvvəl, səndən neçə yaş balacadır. Sonra lüt-üryanın biridir, o necə ailə saxlayacaq, özüvü, o böyründəki tifilləri necə dolandıracaq?" Bikə xala çox dedi, Sürəyya az eşitdi. Bikə xala da axırda qızının daşını atdı. Bir il qapısını açmadı.

Uşaq olandan sonra naəlac qalıb barışdı. Doğum evinə qızını görməyə gəldi. Nemətin də üzündən öpüb: "Qismət belə imiş, Allaha qurban olum, – dedi, – olacağa nə çarə! Yazılana pozu yoxdur!"

Sonra Nemətlə evə gəldi, biş-düş elədi. Karmenlə Cildanın palpaltarını yudu. "Bizim soyumuz belədir, – dedi, – oğlan doğmuruq. İki bacı biz idik. Mənim üç qızım var. İndi Sürəyyanın da üçüncü qızı oldu".

(İki aydan sonra Bikə xalanı birtəhər dilə gətirdilər. Evini satıb tamam Sürəyyagilə köçdü. Sürəyyaya kömək oldu. Yoxsa yazığın lap kələyi kəsilmişdi.)

Ata-ananın birgə istəyilə qızın adını Nərgiz qoydular. Yalnız metrikada adı yazdırıb evə qayıdarkən yolda Nemətin ağlına gəldi ki, yaxşı, axı "Nərgiz" də opera var. Deməli, qeyri-ixtiyari yazıq Əsəd kişinin ənənəsini davam etdiriblər. Amma Sürəyyaya bu barədə heç nə demədi.

Yenə də dayanaq tərəfdən ləhləyib yoxuşu çıxan avtobusun səsi eşidildi. Nemət nömrəsinə baxdı, durub dayanağa tərəf addımladı.

Adam seyrək idi. Pəncərənin yanında oturdu. Nemətin ardınca avtobusa qalxan çadralı qarı keçib onun qabağında əyləşdi.

Qarşıdan gələn trolleybusun "buynuzları" havada telindən çıxdı, yana əyildi. Sürücü yerə düşüb kəndiri çəkməyə başladı.

Nemətin başına qəribə bir fikir gəldi: "Trolleybus müəyyən marşrutla gedir. Yolundan çıxa bilməz. Bir balaca yolundan sapsa, "buynuzları" hava telindən çıxar. Trolleybus hərəkətsizləşib qalar. Tramvay da sabit, dəyişməz yol üzrə hərəkət edir. Relsindən çıxsa qəzadır.

Yaxşı, bəs bu minik, bax bu marşrut avtobusu adlanan salxaq araba niyə hər gün, hər saat eyni yolla gedir, hər gün bazarın, poçtun, bankın, kinonun, hamamın, dəlləkxananın qabağından keçir? Axı o, hansı yolla istəsə gedə bilər, hansı küçəyə kefi gəlsə burula bilər?! Ağzında "marşrutlu avtobus" deyirsən. Onun taleyi daha mürəkkəbdir. Trolleybus və tramvayın yolunu dəyişməsinə texniki əngəllər mane olur. Avtobus isə mənəvi qadağaların əsiridir. Onun qadağası daxildəndir, qəbul olunmuş qayda-qanunlardan, razılaşdırılmış, təsdiqlənmiş hərəkət cədvəlindən asılıdır. O, bu cədvəli, bu bir dəfə qəbul olunmuş qayda-qanunları poza bilməz, yolunu aza bilməz. Pozsa, azsa... Bəh, bəh, lap şeir çıxdı ki..."

Nemət düşündü ki, doğrudan da bu barədə fəlsəfi şeir yazmaq olardı. Adı da "Qiyam etmiş avtobus" və yaxud "Qiyamçı avtobus!"

On bir yaşında olanda Nemət şeir yazmışdı. Bircə son misraları yadındaydı:

Stalin rəhbərimizdir,
Qələbə də bizimdir.

Dayısına oxudu. Dayısı dedi ki, bala, sən niyə şeir yazırsan? Məşhur adam olmaq istəyirsən? Hə, onda bil ki, Əhməd Namazovun oğlu istəyir lap İlyas Nizami olsun, onu üzə çıxmağa qoymazlar. Şair olub daldeydə daldalanmaq nəyinə gərəkdir? Ondansa sal başını aşağı, dərsini oxu, bəlkə axırın bir yana çıxdı.

Amma Nemət bir müddət yenə yazdı. On üç-on dörd yaşınacan. Xəlvət yazdı, heç kəsə göstərmədi.

Dadaş:

– Yerin məlum, – dedi, – bu saat sporumuz düşmüşdü.

Nemət:

– Hər vaxtınız xeyir, – dedi, – nədən spor eləyirdiniz ki?

Qapının yanında oturmuş cürübbəz Yəhya cır səslə çığırdı:

– Dadaş müəllimlə mərc çəkmişəm ki, sabah Xusainov oynamayacaq.

Nemət dinib-danışmadan "Futbol" qəzetinin bir nüsxəsini Dadaşın masasının üstünə qoydu.

– Burda komandaların tərkibini veriblər, – dedi.

Dərhal bütün otaqdakılar fırtınanın əydiyi gəminin göyərtəsindəymişlər kimi bir tərəfə – Dadaşın masası tərəfə axışdılar.

Dadaş bir qədər suçlu hərəkətlə qəzeti açdı.

– Hanı?

Nemət yerini tapdı:

– Budey.

– Aha, Kavazaşvili, Voronin...

İri gövdəli kişi quş kimi yerində atıldı:

– Budur bax, Xusainov, hə, gördün, yaxşı bax, hə, nədən mərc çəkmişdik? – Kişinin sevinci yerə-göyə sığmırdı. Onun fərəhi, səs-küyü otağı qüdrətli radiostansiya efiri dolduran kimi doldurmuşdu. – Əşi, sən yəni belə ağız bəhəm eləmisən ki, mənimlə futboldan mərc çəkirsən?

Otaqda bir mərəkə, bir səs-küy qopdu, gəl görəsən. Dadaşın qələbəsi bütün şöbənin təntənəsinə çevrildi. Yəhya elə bil bir az da cürübbəzləşdi, büzüşdü. Burnunun altında mızıldanmağa başladı. Dadaşın səsi gur-gur guruldayırdı.

– Əşi, deyirəm iki oyundu onu buraxmırlar, sabahkı görüşə saxlayırlar, deyir yox, xəstədir, ayağı zədələnib. Əşi, mən bilirəm axı...

Qurban:

– Gərək interesə mərc çəkəydiniz, – dedi.

Cümşüd:

– Hə, düz deyir, interessiz ləzzəti yoxdur, – dedi.

Şöbələrində altı iş stolu qoyulmuşdu. Stollardan birinin açıq tərəfi qəzetlərlə örtülmüşdü. Bu, Təhminənin stolu idi. Şöbənin qalan işçiləri kişilərdi. Qurbandan başqa hamısı futbol cəfakeşi idi. Təhminənin də əri Manaf cəfakeş idi. Manaf futbola da Dadaşgillə gedərdi, stadionda abonement yerləri yan-yana idi. 16-cı sektor, 31-ci sıra. Dalbadal: Dadaş, Nemət, Manaf, Yəhya, Cümşüd.

İndi Nemətə qəribə gəlirdi ki, nəşriyyata işə girməzdən əvvəl, o, futbol azarkeşi deyildi. Uşaqlıqda özü dalanlarında çox oynamışdı, amma böyüyəndən sonra biganələşmişdi, ildə, ayda bir dəfə futbola ya gedəydi, ya getməyəydi. Dadaş başda olmaqla şöbələrinin futbol azarı ona da yoluxdu. İndi o da ən aktiv cəfakeşlərdən olmuşdu. İndi özü də başa düşə bilmirdi ki, bir vaxtlar futbol kimi bir gözəlliyə necə biganə qala bilirmiş? İndi oyunun öz ləzzətindən başqa, onun bütün dəm-dəsgahı da Nemətə xüsusi zövq verirdi: hələ çox erkən, yaz aylarından abonement tədarükü, sonra futbol mövsümünün təntənəli açılışı, futbol günləri boşalmış küçələrdən stadiona axışan adamların nəqliyyat rəqabəti və nəqliyyat həmrəyliyi, stadion radiosuyla verilən

pozuq melodiyalar (bunun da öz ləzzəti var)... Minlərlə adamın saat kimi dəqiq bir ritmlə tum çırtlaması, avarçı qolları kimi qalxıb-düşən əllər, xeyrimizə vurulan topların müştərək sevinci, məğlubiyyətlərin müştərək kədəri.

Hələ oyundan qabaq stadionda dost-aşnayla birlikdə, sırf kişi "kampaniyasında" subayvarı pivələmə... (istər meydançada, istər tribunalarda, istərsə də, ümumiyyətlə, futbol aləmində zənən tayfasının olmaması da az məziyyət deyil. Heç olmasa stadionda saat yarım adamın qulağı dinc olur.)

"Bu zəhər tuluğu Qurban pul qırpmaqdan başqa dünyada heç nəylə maraqlanmır. Hələ bizə də rişxənd eləyib deyir ki, siz ürəkdə heç biriniz futbol cəfakeşi-zad deyilsiz. Elə-belə boynunuza düşüb. Bütün bu marağınız, ehtiraslarınız da saxtadır, deyir. Axmaq adam, bəs nə bizi məcbur edir ki, bu futbol zəhrimarın yolunda bu qədər can qoyaq? Maraqlanmasaq, yanmasaq, nə düşüb axı bizə, işimizi-gücümüzü atıb cumaq stadiona, radioya qulaq asaq, yüz minnətlə qəzet tapaq? Deyirəm, görürsən başını bulayır, cavab verməyə söz tapmır, axı nə cavab verəcək? Gah da görürsən deyir ki, bircə Dadaş əsil "bolelşikdir", siz hamınız ona yarınmaq üçün futbolbaz olmusuz. Axmaq adam. Belə səfeh fikir elə onun başına gələr. Gah da deyir ki, vaxtınızı bilmirsiniz nəynən doldurasınız, onunçün, deyir, cəfakeş olmusuz. Həyatınızda, deyir, vakuum var, futbolla doldurursunuz bu vakuumu. Futbol, deyir, tiryək kimi, nəşə kimi şeydir. Başı qatıb, gündəlik həyatı unutmaq üçündür. Əşi, qoy danışsın da, əbləh adamdır, zoğallayır özüyçün, kimdir onun ağzına baxan..." Cümşüd:

– Dadaş müəllim, – dedi, – siz futbolun cikini də bilirsiniz, bikini də. Sizcə, biri gün hesab necə olar?

Bir həftə idi ki, bütün şöbə birigünkü oyunun intizarıyla yaşayırdı. Bu oyunun şöləsi bütün idarə və ev söhbətlərinin, işin və məişətin üstünə çökmüşdü. Bir sözlə, bu həftəni İrlandiyayla oyun doldurmuşdu. Gələn həftə də vacib oyun vardı: Tiflislə Moskva "Torpedo"su. Gələn həftəni bu oyun dolduracaqdı. Ancaq birigünkü oyun keçməyincə, o biri oyun haqqında danışan yox idi. Həmin günü, ümumiyyətlə, böyük futbol günlərini bir təntənə, bayram, yeni il kimi, toy-büsat kimi gözləyirdilər.

Dadaş qəti bir səslə:

– 3:0, – dedi.

Cümşüd:

– Gör e! 3:0 – deyə təəccübləndi. O bunu elə dedi ki, guya artıq bu fərziyyə doğrulmuşdu. İrlandiya 3:0 hesabıyla uduzmuşdu. – Amma İrlandiya da güclü komanda idi ha! – Dadaşın fərziyyəsindən sonra Cümşüd birigünkü oyun haqqında keçmiş zamanda danışırdı.

Yəhya:

– Heç vaxt, – dedi. – Ni za çto! Hesab iki-iki olacaq. Gəlin mərc çəkək.

Dadaş:

– Sən yenə mənimlə mərc çəkirsən? – dedi. – Bayaqkı dərs olmadı?

Yəhya tərs idi:

– Yox, görərsiniz! İki-iki.

Yenidən mübahisə qopdu. Ağız deyəni qulaq eşitmirdi. Bayaqkı kimi "Futbol" qəzetini masanın üstünə qoyub məsələni ayırd etmək də mümkün deyildi.

– Keçən səfər mən deyən oldu, yox?

– Yox, sən demişdin birinci taymda iki top vuracaqlar, amma...

Nemət başa düşdü ki, bu fısqırıqda məsələni qaldırmağın yeri deyil. Kirimişcə otaqdan çıxdı.

Dəhlizin başında, açıq pəncərənin qabağında Təhminə və Zaur söhbət edirdilər. Zaur pıçıltıyla nə isə deyirdi. Təhminə şaqqanaq çəkib gülürdü. Onun qəribə gülüşü vardı. Ha, ha, ha... Elə bil pianoda qamma çalınır. Yaxud motosikl uzaqlaşıb gedir...

Zaur özü gülmürdü. Yəqin, Təhminə gülən müddətdə düşünüb, yada salıb başqa bir zarafat, ya məzəli söz hazırlayırdı. Gözləriylə də Təhminəni yeyirdi.

Zaur başqa şöbədə işləyirdi. Hər dəfə onu görəndə Nemətin ağlına nədənsə "qoltuğuna qarpız veriblər" ifadəsi gəlirdi. Ancaq məcazi yox, hərfi mənasında. Elə bil Zaurun hər iki qoltuğunda görünməz iri qarpızlar vardı, ona görə əzələli qolları gövdəsindən belə dairəvi şəkildə aralı qalmışdı.

Axır vaxtlar Zaurla Təhminəni tez-tez söhbət edən görəndə Nemətin başına başqa qəribə bir fikir də gəlirdi. Ona elə gəlirdi ki, Zaurun ən böyük istəyi Təhminəylə plyaja getməkdir. Axı, niyə məhz plyaja? Bəlkə də bu fikir ondan doğmuşdu ki, Zaurun şəxsi maşını vardı, tez-tez plyaja gedirdi. Bəlkə də onun Təhminəyə "kor-kor, gör-

gör" belə iştahla baxması Neməti bu qənaətə gətirmişdi. Hər halda plyaj Zaurun özələlərini nümayiş etdirməsi üçün münasib yer idi.

Nemət onlara yanaşdı:

– Zaur, belə olmaz ha, – dedi. – Bax, Manafa deyəcəyəm. – Manaf Təhminənin əri idi. Bir ay idi Moskvadaydı, ezamiyyətdə. – Sən ştangistsən, amma o da köhnə pəhləvandır.

– Çəkimiz düz gəlməz. Mən ağır çəkiliyəm, o yüngül.

– Ay qız, doğrudan ərin yüngüldür?

Təhminə güldü. Əlbəttə, bayaqkı kimi gülmədi. Xəfifcə gülümsündü. Nemətin zarafatı ortalıqda qalmasın deyə güldü. Nemət özü də bilirdi ki, zarafatı bozi qəzetlərdə dərc olunan bayram şarjları, dostluq şarjları kimi duzsuzdur. Amma "ər-arvad" mövzusunda sataşmalar şöbələrinin klassik yumoru idi.

Birdən Nemətin gözü Təhminənin paltarına sataşdı. İki düyməsi açıq idi və oradan mavi alt paltarı görünürdü.

Nemət fikirləşdi ki, bu mavi ərazi tamam başqa bir dünyadır – paltarın altındakı Təhminə, paltarsız Təhminə. Bir də onu fikirləşdi ki, bu ərazi onunçün əbədiyyən yasaq ərazidir. Bəlkə Dadaşın ora vizası var. Zauru da bilmirəm, deyə bilmərəm, amma mən heç vaxt, ömrümdə heç vaxt bu əraziyə keçə bilməyəcəyəm. Yalnız onun bir qarışını – iki açıq düyməlik maviliyini görə bilərəm.

Gözünü çəkdi.

Təhminə:

– Zaura yuxumu danışırdım, – dedi. – Yuxuda Riqanı görmüşəm. Ən qəribəsi odur ki, ömrümdə Riqada olmamışam.

Mavi ərazi yenə Nemətin gözünə doldu və o dedi:

– Bir vaxtlar mən də yuxumda heç bir zaman olmadığım şəhərləri görərdim... nə bilim, London, Paris... – o, pəncərəyə baxdı. Pəncərəyə səmanın mavisi dolmuşdu. – Ümumiyyətlə, pis vərdiş deyil. Otağından çıxmırsan, yatağından durmursan, pulsuz-pənəsiz bütün dünyanı gəzirsən. Bilet də lazım deyil, viza da.

"Viza" sözünü qəsdən işlətdi. Bayaqkı fikrini yada salıb özüyçün işlətdi.

– Bəs, indi nə görürsən?

– Eh, ay Təhminə, indi yuxularımın bütün fantaziyası qaçıb. İndi yuxu görmürəm, həyatdan parçalar, fraqmentlər görürəm. Gündüzkü həyatımın davamını görürəm. Məsələn, gündüz yarım list tərcümə

eləmişəmsə, yuxuda dalını tərcümə edirəm, qonorarını da alıram, ya, da mağazada növbədə dayanıram, kimsə növbəsiz almaq istəyir, onu məzəmmət eləyirəm, ya da bazarda çənə-boğaz oluram. Ən böyük fantaziyam o olur ki, Kislovodsk-Bakı qatarına bilet alıram. Ya da idarəmizi görürəm. İşçiləri – Səfdər dayını, Məmməd Nəsiri, Dadaş müəllimi, Qurbanı – əlavə etmək istədi "səni" ancaq Zaura baxıb demədi.

Zaur açıq-aşkar əsəbiləşirdi. Nemətin gəlib söhbətlərinə qarışması, Təhminənin diqqətini yayındırması onu heç açmırdı. Zaur:

– Mən heç vaxt yuxu görmürəm, – dedi, – hələ ömrümdə bir dəfə də görməmişəm.

Təhminə:

– Sən nə danışırsan? Ola bilməz! Heç vaxt inanmaram,– dedi.

– Canımçün düz deyirəm. Heç bilmirəm yuxu görmək nəyə deyirlər, nə deyən şeydir.

Zaur çox cavan idi, lap uşaq idi və Nemət başa düşürdü ki, bu qəribə, lakin yüz faiz uydurma iddiayla o, yalnız yenidən Təhminənin diqqətini, marağını özünə qaytarmaq istəyir.

Nemət:

– Mənim bir dostum vardı, – dedi, – deyərdi ki, yuxu görməyən adamlar Avstriyaya, İsveçrəyə bənzəyirlər.

Təhminə suallı baxışlarla Nemətə baxdı. Yenə də onu təəccübləndirən, marağını cəlb edən Nemət olmuşdu. Zaur bir qədər kəskin tonla:

– Niyə məhz Avstriya, İsveçrə, məsələn, Kamboca yox? – dedi.

– Kamboca? – deyə Nemət təkrar etdi və xəyalında xəritəni canlandırmağa çalışdı. – Yadımda deyil Kamboca dənizin sahilindədir, ya yox. O, Avstriya və İsveçrə deyirdi, çünki bu ölkələrin dənizə çıxışı yoxdur. O deyirdi ki, yuxu görməkdən məhrum adamlar dənizdən məhrum ölkələr kimidir. Avstriya, İsveçrə, daha hansı ölkələr dənizsizdir?

Təhminənin təəccübü açıldı:

– Aaa, o mənada...

Sükut çökdü, Zaur cibindən daraq çıxarıb, bir qədər əsəbi hərəkətlə saçlarını daramağa başladı. Nemət:

– Yaxşı, – dedi, – bağışlayın, söhbətinizə mane oldum.

– "Görəsən bütün günü belə gəzəcək, düymələrini düymələməyəcək?" – deyə düşündü və bir neçə addım aralanandan sonra özünü saxlaya bilmədi, dönüb bir də Təhminəyə baxdı:

– İşdi şayət təsadüfən yuxumda Riqaya düşsəm, mütləq səni axtarıb taparam, – dedi.

Dişləri narın, tən-bərabər, qarğıdalı dənələri...

Nemət otağa girdi. Futbol ehtirasları sinsiyib hamının içinə çökmüşdü. Başlarını aşağı salmışdılar, hərə öz işiylə məşğul idi. Deyəsən, Dadaş dünənki söhbətdən heç söz salmaq fikrində deyildi.

"Üzümə salım, deyim. Yox. Yaxşı düşməz". Ancaq deməsəm də, özünün yadına düşən deyil. Bəlkə bir bəhanə tapıb deyim. Məsələn, "bu gün gedəcəm dublyajın pulunu almağa, deyirdim sizə, "Jivıye i mertvıyc". Yaxud "dünən şkafa baxdım, tapa bilmədim, bizdə burda yoxdur ki, o roman?" Yox, bu bicliklərin köhnə pulnan qiyməti beş qəpikdir. Dadaş qazdan ayıqdır. Ya bəlkə belə deyim: "Dünən oturub başladım bir az romandan tərcümə etməyə, pis getmir". Yox, bu da yaramaz. Deyər başlamısan, əcəb eləmisən, qurtar gətir, plana salaq... "Əşi, nə götür-qoy edirəm?".

– Dadaş müəllim, – dedi, – dünən müqavilə haqqında danışmışdıq, yadınızda?

Nemət duydu ki, otaqdakılar qulaqlarını şəklədilər.

Dadaş başını qaldırdı:

– Hə, hə, əlbəttə, yadımdadır. Yəhya, zəhmət çək, Təhminəni çağır, bir müqavilə doldursun.

Təhminə otağa girdi. Düymələri bağlanmışdı. Görəsən, Zaur deyib? Siyirtməsindən müqavilə çıxarıb doldurmağa başladı. Atanın adı, ünvanı...

Dadaş müəllim, neçədən bağlayırsınız?

Bir an səssizlik çökdü. Guya Qurban da, Yəhya da, Cümşüd də öz işləriylə məşğul idilər. Amma Nemət bilirdi ki, üçünün də qulağı darı dənləyir.

Nemət düşünürdü: "Lap aşağısı 60, yuxarısı 150. Bunlar heç, indi, görəsən həştad olacaq, yüz, ya yüz iyirmi?".

Dadaş:

– Yüz iyirmi, – dedi, - sanballı işdir.

Təhminə yazdı.

– Qol çək.

Nemət qol çəkdi. Dadaş da qol çəkdi.

– Bay, 120 yazmısan ki... - dedi, – bəs mən 100 dedim. Gülüşdülər. Bu da şöbə yumoru qəbilindən idi. Dadaş:

– Daha keçib, qol çəkdik, – dedi, – babalı Təhminənin boynuna. Yazılana pozu yoxdur.

Dadaş: "Yazılana pozu yoxdur" deyəndə səhərki xatirə – Bikə xalanın doğum evində dediyi sözlər ani bir qığılcım kimi Nemətin fikrində alışıb söndü.

Nemət:

– Çox sağ olun, – dedi. – Artıq dərəcədə minnətdaram.

– Beh haqqında ərizəni də yaz, aparım müdir ikisinə bir yerdə qol çəksin.

...Dadaş kağızları götürüb otaqdan çıxdı.

Yəhya başını qaldırıb:

– Sən çaldın, – dedi.

Nemət:

– Yetim əlində qoğal ocaib? – dedi.

Cümşüd:

– Ayəndə düşər şənbəyə novruz, – dedi.

Qurban heç nə demədi. Qaşqabağı yernən gedirdi. Nemət bilirdi ki, içini gəmirir.

Dadaş qayıtdı:

– Hə, indi get Səfdərə təzimə.

Səfdər dayı baş mühasib idi.

– Yox, yox, indi pulumuz yoxdur. Qəpik də.

Hələ idarənin tarixində elə hadisə olmamışdı ki, Səfdər bir adama gələn kimi əlüstü pul versin.

– Bəs, haçan olacaq?

– On gündən sonra.

Amma Səfdər dayının bir məziyyəti var idi. On gündən sonra deyirdisə, düz on gündən sonra arxayın gedib pulunu ala bilərsən. Sözünün ağası idi. Dadaş, Səfdər dayı, bir də Məmməd Nəsir bu idarənin ən köhnə işçiləri idi.

– Bilirsən ki, olsaydı, sənə yox deməzdim. Bayaq Dadaş gəlmişdi. Alacağı var. Birisi gün Riqaya gedir. Dedim yoxdur. Dalınca göndərərəm.

"Deməli, Dadaş birisi gün gedir. Bu nə pis oldu".

Nemət çoxdan nərddə Dadaşa bir düşbərə-qutab uduzmuşdu. Özü də əhvalat yay məzuniyyətinəcən olmalıydı. İndi bir sabahkı gün qalırdı. Çatdırmaq olardı. Amma bir az yaxşı düşmürdü. Müqavilə-

filan... Elə çıxırdı ki, əvəz-əvəzdi, xəcalətdən çıxır. Yox, əlbəttə, Dadaş onu tanıyır, xasiyyətinə bələddir. Bilir ki, elə adamlardan deyil. Ancaq işçilərdən elə düşünənləri olacaq. Elə biri bu Qurban... "Gördün, lələ, öyrən, bacarana can qurban. Eh dünya, məlik dünya, təpəsi dəlik dünya!" və sair folklor yaradıcılığı... hər halda Dadaşa təklikdə demək lazımdır. Xəbərləri olmasın. Ancaq əvvəl "baş vəkillə" razılaşdırmaq lazımdır. Dəhlizdən evə zəng elədi. Mətləbi Sürəyyaya açdı.

– Özün bilirsən də, – dedi, – lazımdır.

Bir müddət qulaq asdı.

– Əti özüm tapacam, – dedi, – səhər tezdən gedərəm. Hər nə lazımdır alaram. Yox, heç kəs, bir Dadaş olacaq, bir də Murtuzgilə deyərik. Tahirəgilə. Vəssalam.

Dadaşa dəhlizdə yanaşdı, dedi.

– Əşi, bu nə zəhmətdir, nə xəcalətdir, qoy qalsın payıza.

"Görürsən, müqavilə, nə bilim, əvəz-əvəz məsələsini heç ağlına da gətirmir".

– Yox, canımçün, çoxdan hazırlıq görmüşük. İntəhası bilmirdim ki, biri gün gedirsiniz. Odur ki, belə bir az gec deyirəm.

– Uşaqlara demisən?

Nemət bir an tutulan kimi oldu.

– Yox, deyirəm, elə özümüz oturaq, necə deyərlər, xudmani, çünki bilirsiz, – dolaşıb səbəb tapmağa çalışdı. Dadaş dərhal onun imdadına çatdı.

– Aa, nə olar, lap yaxşı, deməli, sabah üçdə.

Nemət otaqlarına girib papağını götürdü,

– Mənim bir balaca işim var gedirəm. Xudahafiz.

Pilləkənlə düşəndə kimsə qəfilcən onun qolundan yapışdı. Nemət diksinib dayandı. Məmməd Nəsir idi.

– Ay səni xoş gördük.

– Salam, salam, Məmməd Nəsir.

Otuz beş il bundan qabaq Dadaş, Səfdər, Məmməd Nəsir bu idarəyə bir vaxtda işə giriblər. İdarədə yaşından asılı olmayaraq hamı Dadaşa Dadaş müəllim, Səfdərə Səfdər dayı deyərdi. Məmməd Nəsiri isə cavan da, qoca da, uşaq da, böyük də adıyla çağırırdı. Bu üçündən başqa bütün ayrı işçilər idarəyə çox-çox sonralar gəlib. Otuz beş il bundan qabaqkı idarə folklorunu:

"Ay Dadaş, başına daş,
Tərpənmə belə yavaş" –

misralarını da orta və gənc nəslə elə Məmməd Nəsir çatdırıb. İndi də Nemətin qulağına əyilib: "Yenə onun şöbəsindəsən?" – deyə xəbər aldı və simayi-şəms üstündə xısın-xısın oxudu:

Ay Dadaş, başına daş...

Nemət bildi ki, yenə dəmdir. Məmməd Nəsirin həyatda iki ehtirası vardı: nərd atmaq və vurmaq. İçəndə başqa aləm idi.

Məmməd Nəsir beli bükülmüş, saçları seyrəkləşmiş ortaboylu arğaz bir kişi idi. Qəribə yazıq təbəssümü vardı. Elə bil icazəylə gülümsünürdü. Həm də böyük məşəqqətlə gülümsəməyə icazə almışdı. Elə bil yerimək, oturmaq, yaşamaq icazəsini də böyük çətinlik və yalvar-yaxardan sonra almışdı. Həm də müvəqqəti almışdı.

Köynəyinin yaxası həmişə çirkdən qartmaq bağlayırdı. Ayıq vaxtlarında savadlı korrektor idi. Bütün aldığını içkiyə verirdi. Arvaddan, oğul-uşaqdan da heç kəsi yox idi. Özü deyərdi ki, bir həsirəm, bir də Məmməd Nəsir.

Onu idarədə Dadaş saxlatdırırdı. Dadaş olmasaydı, yoqin, içməyin ucbatından çoxdan qovulmuşdu. Bir vaxtlar, 30-35 il bundan qabaq bork dost imişlər. Can bir qəlb. İndi bu dostluqdan əsər-əlamət qalmamışdı. Amma hər halda Dadaş həmişə onu müdafiə edirdi: "İşiniz yoxdur, dəyməyin, yola verin getsin, bədbəxt adamdır".

Məmməd Nəsirdən ucuz şirin çaxır iyi gəlirdi.

– Ömər Xəyyam deyir ki:

Bər xaki fikəndi meyi qulqun məra
Xakəm bədəhən məgər to məsti rəbbi!

Yəni mən içmişəm, ay fələk, sən nöş piyansan? Farsların yaxşı bir sözü var: rus demişkən, aslan yest aslan. Bir həsirəm, bir Məmməd Nəsir. Bir gün mənəm, Hüseyn Sərrafdır, bir də Səlim Şeyda vardı, şair-qəzəlxan idi, şair deyirəm e sənə, indikilərdən yox, əsil şair, görürsən, dayanıb sənin lə danışır, birdən susur, gedir özünə, fikirləşir, bəli, bir az keçir, bir qəzəl! Nədi, təbi gəlib, elə bil ağzından dürr tökür.

Bülbülü Şeydanın halın sorma nasehdən, fəqir,
Hər tikəndə qanı vardır, könlünü güldən soruş.

Hə, onu deyirəm axı, həmin bu Səlim Şeydadır, mənəm, bir də Sərraf, mömin kişilərdən biri idi. Gündüz mollalıq edirdi, axşamlar Əsli Kərəm oxuyurdu. Hə, üçümüzük – Məmməd Nəsir əlini boğazına çəkdi, – bax bura qədər içmişik, nuş olmuşuq. Amma indi gərək paxmellənək. Di gəl bir qara qəpik pulumuz qalmayıb. Bir də gördük Sisyanov küçəsiylə Bandelninin tinindən Əhməd Fani gəlir. Getdik tutduq onu, dedik bəs Mirzə, sən bilirsən ki, biz sənin dostunuq. Dedi, bəli, bilirəm. Niyə də bilməyim, axı? Dedim: bəs bilirsən ki, biz ölmüşük. Dedi: xeyr. Bunu bilmirdim, çünki bu gün hələ qəzetlərə baxmamışam. Yəqin, nekroloqdan-zaddan çıxmamış olmaz. Dedim: bəs, qəzeti görsən inanarsan? Dedi: bəli, inanaram, Dedim: Hüseyn Sərraf, cum bir qəzet al. Dedi: köhnəsini, təzəsini? Dedim: hansından tapsan. Bəli, aldı gətirdi. Dedim sər bura. Sərdi Əhməd Faninin ayağının altına. Dedim: bəs, Mirzə, üçümüz burda uzanıb qalsaq, inanarsan ki, ölmüşük? Dedi: bəli, indi inandım. Çıxartdı bir qızıl Nikolay onluğu verdi. Onluq deyirəm sənə, onluq, qızıl onluq... Bəli, getdik, bir həftə kefin istəyən içdik. Bir-birimizi səhər tapdıq, axşam itirdik. İndi pulumuz qurtarıb, gərək paxmel olaq. Neyləyək? Üçümüzük. Mənom, Səlim Şeydadır, bir də Hüseyn Sərraf. Gedirik Tarqovıynan...

Nemət gördü ki, canını asanlıqla qurtaran deyil.

– Məmməd Nəsir, – dedi, – de görüm Krasnovodska haçan gedirik e?

Məmməd Nəsir bir an söhbətinə ara verdi. Nemətin sözlərini dərk etmək istədi. Döyükdü. Sonra birdən başa düşdü.

– Krasnovodska? Hə, hə, bildim. Haçan istəyirsən. Sənin könlün haçan istəsə, Məmməd Nəsir qulluğunda hazır.

Nemət bura təzə işə girəndə bir gün Məmməd Nəsir onu tutdu ki, gəl minək gəmiyə gedək Krasnovodska.

Nemət təəccübləndi.

– Krasnovodskda nə var?

– Heç nə. Elə-belə. İndi şənbədir. Minək gəmiyə gedək. Çaxır götürək, bala-bala vuraq özümüzçün. Dənizin seyrinə dalaq, külək də bala-bala üzümüzə vursun. Düşək Krasnovodskda bir yaxşı xudmani yer tapaq. Oturaq bir balaca vuraq. Sonra yenə minək gəmiyə, bala-bala vura-vura qayıdaq geri. Səhər də beçə xoruz kimi çıxaq işə. Necədir sənincün?

Nemət:

– Yox, – dedi, – bu işdə bir məna görmürəm.

Məmməd Nəsir kəhrəba təsbehini pencəyinin sürtülmüş qoluna keçirtdi:

– Oğul, – dedi, – hər şeydə bir məna olsaydı, həyatın bir mənası olmazdı.

Çıxıb getdi. Sonralar işçilər Nemətə dedilər ki, Məmməd Nəsir bu təklifi hamıya eləyir. İndiyəcən heç kəs də razı olmayıb.

"Krasnovodsk! Barı bir səfalı yer ola. Deyirlər, nə su var, nə də bir kölgəlik".

Məmməd Nəsirin dumanlı yorğun gözlərində nə isə bir həvəs qığılcımı oyandı:

– Bu gün şənbədir, verək özümüzü sübh obaşdannan. Mən bu gün özümə əməlli maya qoymuşam. Amma səniynən yenə içərəm.

– Gələn şənbə, Məmməd Nəsir. Allah qoysa, gələn şənbə mütləq gedərik.

– Eh, – deyə Məmməd Nəsir əlini yelləyib getdi. Nə qədər sərxoş olsa da, başa düşdü ki, nisyə söhbətdir.

İdarənin çöl qapısının ağzında anqutboğaz bir oğlan Nemətə müraciət etdi:

Nəşriyyat buradır?

Nemət bu oğlanı ilk dəfə görürdü. Qoltuğunda iri bir qovluq vardı.

– Sizə kim lazımdır?

Oğlan boğazını arıtladı.

– Mənə, – deyə kəkələdi, burda kitablara kim baxır?

– Kitablara?

– Hə, kitab çap eləmək işinə.

Nemət: "Yəqin, cavan yazıçıdır, aman Allah" – deyə düşündü.

– Kitab yazmısan?

– Bəli.

– Nədəndir?

– Bizim müasir cəmiyyətin həyatından.

– Hekayədir, romandır, pocmadır?

– Hamısı var. Hekayə də, şeir də. Altı ildir yazıram. Apardım jurnala, dedilər nəşriyyata aparsan yaxşıdır. Birbaşa kitabın çıxar. Dedilər, onlar belə şeylər axtarırlar.

Bir an içində kinolent kimi səhnələr Nemətin gözü qarşısından keçdi. Bu nataraz gəncin ömrünün epizodları: oxuduğu kitablar, izlədiyi mətbuat, yazmaq meyili, qaraladığı səhifələr. Müxtəlif redaksiyaların daş qapıları. Qarşılarındakı adamın cızmaqaraçı olduğunu təyin edən, şəbədə üçün obyekt axtaran bəzi redaksiya işçilərinin nabələd adamçün aydın olmayan dolamaq priyomları. Nəzakət pərdəsiylə örtülmüş istehza, rişxənd, lağ. Yaxa qurtarmağın yetmiş iki müxtəlif fəndi. Sanki bütün bunları Nemət öz gözüylə görmüşdü. Daha doğrusu, görmüşdü də.

Bu və buna bənzər yüzlərcə hədər həvəs...

Bütün bunlar Nemətə nə qədər tanış idi! Öz başına gəlməmişdisə də, onda elə bir duyğu vardı ki, guya bütün bu işlərdən özü keçib. Hər halda, o bu gəncə nə qədər acı və kədərli, mütləq lazımlı söz deyə bilər, həyat dərsi verə bilərdi.

Birdən-birə Nemət istədi ki, qayıdıb Məmməd Nəsiri, məhz Məmməd Nəsiri, ayrı adamı yox, tapsın, bu gənci də götürsün, gedib xudmani yerdə otursunlar, bala-bala içsinlər, içib səmimi olsunlar, bala-bala söhbət eləsinlər, ürəklərini boşaltsınlar, çünki Məmməd Nəsir demişkən, qarnını doldurmasan, ürəyini boşalda bilməzsən. Düz deyir. Ayıq vaxtı ürəyinin dibində pas atıb qalanları, çürüyüb ürəyində itənləri üzə çıxarıb özgəsinə açmaq olmur. Onlar da qalır, kif atır, çürüyüb ürəyini də çürüdür, ömrünü də.

İçəndən sonra Nemət bu anqutboğaz, bu yöndəmsiz geyinmiş oğlana deyərdi ki, bala, mənə qulaq as. İnan, hələ gec deyil. Mənim dayım, Allah ona rəhmət eləsin, Allah bütün ölənlərinizə rəhmət eləsin, mənim dayım demişkən, İlyas Nizami deyilsənsə, vaz keç, boşla, girişmə bu işə. Özüvə peşə seç. Texniki peşə olsa daha yaxşı. Yazıqsan, bala. Sonra başına döyəcəksən, gec olacaq. Bunun axırı yoxdur. Sənin kimi yüzlərcə, minlərcə gənc bax bu saat, sənin yazdığını, lap elə sənin yazdığın kimi, ya bir az ayrı cür, heç təfavütü yoxdur, bir az daha yaxşı, ya daha pis, daha savadlı, ya daha bisavad, hə, sənin yazdıqlarını onlar da yazır. Hələ gec deyil, cavansan. Ömrün qabaqdadır. At bu işin daşını. Əlbəttə, əgər İlyas Nizami deyilsənsə! Yox, bəlkə İlyas Nizamisən? Hə, onda başqa məsələ. Bəlkə elə doğrudan İlyas Nizami oldun. Kim bilir?

Nemət:

– Çıx üçüncü mərtəbəyə, – dedi, – on birinci otaq.

Nəşriyyatdan çıxıb studiyaya tərəf getdi. Meydançadan keçəndə gördü ki, on bir-on iki yaşında uşaqlar futbol oynamağa hazırlaşırlar. Ayaq saxladı. Dayanıb onları izləməyə başladı.

İçlərində ikisi lap balaca idi. Yeddi-səkkiz yaşında. Yəqin, onları qapıçı qoyacaqlar. Həmişə uşaqlar ən balacaları, ən zəifləri qapıçı təyin edirlər.

Oğlanlardan biri daş qoydu – ştanqa! Bir neçə addım saydı, ikinci daşı qoydu. Bu bir qapı! Sonra gedib eyni üsulla ikinci qapını düzəltdilər.

Doğrudan da balacaları qapıçı qoydular. İki dəstəyə bölündülər. Üç-üç. Bir nəfər artıq idi.

– Sən sudya!

"Sudya" cığallığa başladı.

– Özün ol sudya. Mən istəmirəm. Mən oynamaq istəyirəm.

– Yaxşı, indi sən ol. Üç qoldan sonra mən olaram, sən oynayarsan.

Razılaşdılar. Kapitan yerdən çöp götürüb yumruğunda gizlətdi. O biri komandanın kapitanı tapdı.

Oyun başlandı.

Nemətin öz uşaqlığı yadına düşdü. O qədər bax lap bu cür futbol oynayıb ki... Küçə futbolunun ənənələri, texnikası, qanunları dəyişməzdir. 25 il bundan qabaq da hər şey beləcə idi. Daş ştanqalar. Balaca qapıçılar. Vaxt yox, qol hesabı oyun. Qolların cığallanması. "Yox, yan getdi", ya da "hündürdən getdi, ştanqanın üstündən" – hər şey, eynilə olduğu kimi qalmışdı.

Tofiq, ver mənə! Özün çıx. Ala, Nazim!

– Ruka! Ruka! – deyə qışqırışdılar.

Əli topa toxunmuş oğlan küçə futbolunun əfsanəvi qanununa isnad etdi. "Prijataya ruka" – dedi. Mübahisə başlandı. Birdən kiminsə ağlına gəldi ki, hakimin də bir rolu ola bilər, hakim amiranə bir səslə:

– Pinal, – dedi. Nəhayət, o da bir anlıq xəlifə olmuşdu. Cərimənin səbəbkarı bir kəlmə də kəsmədi. Dinməzcə penalti yerini təyin etməyə başladı: qapıdan addımladı. "İndi gör necə addımlayacaq!" Doğrudan da addımlarını elə iri atırdı ki, qorxurdun bağanağı aralı qalsın.

Belə saya-saya onuncu addımda gəlib rəqibin qapısına çıxdı. Özü də başa düşdü ki, deyəsən çox ağ eləyib. Sonuncu addımını bir az qısa etdi.

– Bax, buradır, – dedi, – vurun!

Bayaqdan bəri dinməz-söyləməz ona tamaşa edən rəqib komandanın kapitanı:

– Ala! – dedi və özü saymağa başladı.

"İndi gör bu necə sayacaq!"

Bu kapitan elə bil ayağı zəncirli dustaq kimi yeriyirdi – dıpbır-dıpbır. Penalti yeri lap yaxın oldu. Təzədən haray qopdu.

Nemət özü də bilmirdi ki, nə səbəbdən işini-gücünü atıb burada dayanıb, belə maraqla bütün bu şeyləri izləyir, ayrılıb gedə bilmir.

Kövrək uşaq xatirələrinin riqqətindən başqa bu futbolda nə isə başqa bir şey də var idi. Hisslərin, həvəslərin çılpaqlığı, təmənnasızlığı, saflığı, təmizliyi...

Görəsən bizim şöbənin cəfakeşləri bu oyuna baxsaydılar, nə deyərdilər? Əlbəttə, Qurban zəhər tuluğudur. Dedikləri də hamısı tikanlı sözlərdir. Ancaq bəlkə onun dediyində bir faiz, yarım faiz, çərək faiz həqiqət var. Futbol marağında bəlkə də çirkin bir şey yoxdur, ancaq hər halda, çox kədərli bir şey var. "Boşluğu doldurma". "Cəfakeşlik çoxunuzun boynuna düşüb". Ay səni, Qurban! Amma bəlkə cəfakeşliyə səbəb işdaşların söhbətindən, marağından, həvəsindən geri qalmamaq istəyidir? Deməli, belə çıxır ki, hamı bir-birinin ucbatından cəfakeş olub. Bir-birinin xətrinə.

– Qol! Qol! – deyə uşaqlar qışqırışdılar.

Studiyanın kassası qarşısında xeyli adam vardı. Nemət yarım saata qədər növbədə durdu. Zənd-zəhləsi getdiyi İ. də burda idi.

İrişə-irişə:

– Görürsən də, – dedi, – soyuruq hökumətimizi.

Bir xeyli pul aldı.

– Kasıbçılığımızı eləyirik də. – İrişə-irişə saydı. Nemətə tərəf uzatdı:

– Sən mənim canım, buyur üstündən götür.

– Çox sağ ol. Özüm alacağam.

İrişə-irişə cibinə qoydu:

– Di sağ ol!

İrişə-irişə çıxıb getdi.

Nemət: "Pulu da adamlar cürbəcür alır – deyə düşündü. – Biri halal zəhmətinin dəyəri kimi, açıq üzlə. Birisi də bax bunun kimi, elə bil qəbih bir iş tutur, qanunla aldığı pulu da oğru təki alır. Elə bil haram mal yeyir, üstünü açmasınlar deyə də hamıya irişir. Eh, nə isə..."

Deməli, belə. İndi gedək, maqnitofon alaq.

Poçtamtın yanından keçəndə əlini döş cibinə atdı. Pasportu yanında idi. İçəri girdi "Do vostrebovaniya" yazılmış pəncərəyə yanaşdı:

"Mənim bura gəlməyim nəyə oxşayır? Elə bil qəbir üstünə gəlirəm. Ya da suyu qurumuş dəyirmana. Yox, bu bənzətmələrin heç biri düz deyil. Bu pəncərənin ardında heç kəsi basdırmamışam. Burda qurumalı bir şey də yox idi".

Hər dəfə yolu bu küçədən düşəndə poçta girər, pasportunu uzadıb gözləyərdi. Qəribə bir həyəcanla gözləyərdi. Kağızçı səliqəylə zərfləri yoxlayar, hər dəfə də eyni sözləri deyərdi: bir şey yoxdur. Məktub hələ yəqin, yoldadır.

Hardan da olaydı? Nemət bilirdi ki, yolda-zadda da deyil. O heç yerdən, heç kimdən məktub gözləmirdi: Yox yerdən məktub çıxmayacaqdı ki... Yaddaşını ələk-vələk eləsə də başqa şəhərdən ya Bakının özündən ona "do vostrebovaniya" məktub yazacaq bir adam xatırlaya bilməzdi.

Amma nədənsə bu küçədən tək keçəndə hər dəfə həmin pəncərəyə yanaşırdı. Yanında bir sənəd olmayanda heyifsilənirdi:

– Namazov, aha, var. Yox, bu, Namazov Nadir imiş. Siz Nemətsiniz!

– Bəli, mən Nemətəm.

Kağızları bir-bir ötürüb son zərfi də bir qırağa qoydu:

– Hələlik heç nə yoxdur, – dedi. Şüşənin yarımdairəvi kəsiyindən pasportu qaytardı.

Nemət ağır-ağır pəncərədən aralandı. Qəfilcən fikrində gözlənilməz bir bənzətmə oyandı. "Bu da mənim qəribəliyimdir, – deyə düşündü. – Məmməd Nəsirin Krasnovodsku kimi... Hər şeydə məna axtarsan..."

Siqaretini odlayıb küçəyə çıxdı.

NƏRGİZİN XORUZ BABAYA MƏKTUBU

Salam, Xoruz baba!

Xoruz baba, mənim adım Nərgizdir. Xoruz baba, mənim doqquz yaşım var. Xoruz baba, mən bu məktubumda sizin tapşırdığınız quş adlarını yazıram. Quş adları: göyərçin, qaranquş, sərçə, sığırçın, bildirçin, qarğa, ağacdələn, sağsağan, qartal, şanapipik, qaraquş, tovuz quşu, turac, laçın, qırqovul, cüllüt, dolaşa, durna, bayquş, kəklik. Ev quşları: toyuq, xoruz, ördək, hind toyuğu, qaz. İyirmi altı quş.

Xoruz baba, mənim Rəhilə yoldaşım var. Rəhilə yaxşı oxuduğu üçün müəllimə onu sinifkom seçib. Onların maqnitofonları var. Xoruz baba, ora sizin səsinizi yazıblar. Sən Rəhilənin adını radioda demisən. Rəhilənin atası səni yazıb maqnitofona, sən deyirsən Rəhilə Həsənova mənə məktub yazıb. Xoruz baba, mən də sənə məktub yazmışdım. Xoruz baba, atam bizə də maqnitofon alacaq. Xoruz baba, mənim adımı da radioda de. Atam maqnitofon alanda mən deyərəm səni maqnitofona yazsın. Maqnitofon almağı Karmenlə Cilda istəyir. Atam onlarçün alacaq. Atam dedi ki, dərslərini yaxşı oxusan, Xoruz baba sənin də adını çəkər. Rəhilə deyir ki, Xoruz baba sənin adını deməz, sən hesabdan üç almısan. Xoruz baba, mən hesabdan beş alacam. Xoruz baba, mən yaxşı qızam. Xoruz baba, mən ailəmizdə kiçik yaşlı olduğum üçün, atam, anam, nənəm və bacılarım mənə hörmət bəsləyirlər. Mən anamın sözünə qulaq asıram. Nənəmə kömək eləyirəm. Mənim nonəm mənə çoxlu nağıllar danışır. Xoruz baba, mən çoxlu nağıllar, mahnılar, şeirlər bilirəm. Mən pianinoda "Kukla" mahnısını çala bilirəm. Xoruz baba, mən həmişə radioda sənin bizim üçün verdiyin nağıllara qulaq asıram. Xoruz baba, sabah radioda mənim də adımı de. Xoruz baba, mən yaxşı qızam. Mənimçün "Telefon" mahnısını çaldır.

İmza: Sizin kiçik nəvəniz
Namazova Nərgiz Nemət qızı

İKİ-BİR

Fələk iki-bir atdı
Bəxtimin nərdi kimi

Zaur bilirdi ki, axır Təhminəni razı salacaq, çünki bu elə bir təklif idi ki, ilk dəqiqədən həqarətlə rədd olunmamışdısa, deməli, gec-tez qəbul olunacaqdı.

– Axı niyə mütləq plyaja getmək istəyirsən?

– Yadında, mən "Moskviç"imi alanda sən dedin ki, yaxşı oldu, yayda bizi plyaja apararsan.

– Mən deyirdim bütün şöbəynən gedərik, demirdim ki, ikimiz...

– Bütün şöbə? – Zaur rişxəndlə sadalamağa başladı.– Dadaş, Nemət, Qurban...

Təhminə uğunub getdi.

– Axı, Zaur, başa düş, eşidən-bilən nə deyər, mənim ərim...

– Biz nə günah işlədirik ki... ərin Bakıda olsaydı... amma indi burda yoxdur... gedək çimək, iki saata qayıdarıq.

– İki saata? Yəqin?..

"Vəssalam!".

– Lap yəqin. Söz verirəm.

Təhminə alt dodağını dişləri arasına alıb, başını yana əydi. Saçları çiyninə axdı.

– Gedim qarajdan maşını götürüm, iyirmi dəqiqədən sonra gəlirəm evinizin qabağına.

– Yox, yox, evin qabağına gəlmə. Evimizin yanında bağ var e, onun sol tərəfində gözlə.

– Oldu. Çox gözəl.

Zaur üçüncü mərtəbəyə dırmaşmağa başladı. Pillələri beş-beş atılır, bığaltı gülümsünür, zümzümə edirdi. Uçmağa qanadı çatmırdı.

Pilləkənin başında Məmməd Nəsirlə toqquşdu. Tünd çaxır iyi Zaurun burnunu çaldı.

Məmməd Nəsir onun qolundan yapışdı.

– Mən ölüm, – dedi. – Gedək bir nərd ataq.

– Məmnuniyyətlə, Məmməd Nəsir, gələn səfər. İndi yaman tələsirəm.

Dartınıb çıxmaq istədi.

Məmməd Nəsir:

– Bircə tas, – dedi, – sən mənim canım.

– Ay kişi, dedim də, tələsirəm...

Məmməd Nəsir:

– Yeddi dəfə orfoqrafiyanı dəyişdilər, – dedi. – Amma məni işdən xaric eləyə bilmədilər. Hər dəfə qaydaları əzbərləyirəm. Qoy gəlsin sənin cavan korrektorların. Görək hansımız yaxşıyıq. Əski əlifbanı da bilirəm, latını da, indikini də.

– Yaxşı, a kişi, burax qolumu...

– Yox, dayan, sən cavansan, görməmisən. Kişilər vardı, kişilər. Kişi deyirəm e sənə. Kişi. Bax həmin bu yerdə Teymur Mahmudov məni tutdu. Deyir: "Nə olub, Məmməd Nəsir, gözümə bir az turş dəyirsən?" Dedim: "Yox, sağ oluz, yaxşıyam". Eh kişilər vardı. Hər birisi bir şiri-nər, aslan, bəbir.

Zaur qolunu qopardıb götürüldü.

Məmməd Nəsir onun dalınca baxıb, baxıb, başını buladı. Öz-özüylə danışa-danışa pilləkəni enməyə başladı.

– Deyirəm, əmim Türkiyəyə gedib, mənim nə təqsirim? Niyə daş eləyib ayağıma bağlayırsız... Deyirlər, yox, ot kökü üstə bitər. Deyirəm, əşi, o vaxt mən uşaqdım. Nikolay vaxtı çıxıb gedib. Özü də Əliqulu kişi hardan mənim köküm oldu? Üzünü də görməmişəm. Deyirlər yox ki, yox, yox oğlu yox. Niyə gizlətmisən ki, əmin xaricdədir? Çıxardırıq səni işdən. – Pilləkəni qalxan qızlara salam verdi: – Salam-əleyküm, xanım qızlar, hər vaxtınız xeyir. – Qızlar pıqqıldayıb gülüşdülər. Məmməd Nəsir onlara fikir verməyib öz-özünə danışmağını davam etdirdi: – Çıxarırsız çıxarın, neynək. İndi də viqovor verirlər ki, içirsən. Eh, mənə nə var, bir həsirəm, bir Məmməd Nəsir. İçirəm, neçün ki, lazımdır. Yəhya, ay Yəhya, mən ölüm, gedək bir nərd ataq.

– Yekə kişisən, get özünə iş tap.

– Ay Cümşüd, sən atovun goru, mən nə dedim ki. Deyirəm, gedək nərd ataq, bəyəm bimərifət söz dedim?

Yəhya:

– Məmməd Nəsir, deyəsən, yenə o söz, – dedi və çırtmayla boğazına vurdu.

– Ay bic xərəngə, – deyib Məmməd Nəsir göz vurdu. – Məmməd Nəsiri el içində xar eləmə. Açma sandığı, tökmə pambığı.

Cümşüd:

– Məmməd Nəsir, şöbə müdirisən, yoxsa, idarənin müdiri? – deyə xəbər aldı.

– Hə? Yox, hələ redaktoram, ha, ha, ha... Vur bura, mən ölüm. – Məmməd Nəsir otuz beş il idi bu idarədə korrektor işləyirdi. Amma deyirdi ki, üçüncü qədəhdən sonra oluram redaktor, beşincidən sonra şöbə müdiri, yeddincidən sonra idarənin müdiri. Sonra daha hesabı itirirəm. Ancaq bir vaxt görürəm ki, zamministrəm. Sonra ministr. Sonra Hindistan padşahı. Sonra allah...

– Deməli, redaktorsan? Nə əcəb bəs, belə az vurmusan. Bu gün ki, şənbədir. Əsil məqamdır.

– Ay Cümşüd, bəlkə gedək bir nərd ataq?

– Sabah, Məmməd Nəsir, sabah.

Yəhyayla Cümşüd yarımçıq qalmış söhbətlərini davam etdirə-etdirə pilləkənlə düşməyə başladılar.

– Bəli, indi Nemət olub gülməşəkər. Getmə gözümdən, gedərəm özümdən.

– Əşi, dünən Dadaşla xosunlaşırdılar, mən bildim ki, işin içində iş var.

Məmməd Nəsir:

– Sabah bazardır, – deyə onların dalınca qışqırdı, amma cavab almadı. Zümzümə eləyə-eləyə dəhlizlə getdi:

– Bilsən nə qədər, sevgili canan, can alansan.

– Xeyir ola, Məmməd Nəsir, yenə səgah deyirsən?

Az qala makinaçı Tavusla toqquşdu.

Məmməd Nəsir:

– Səgah deyil, qızım, dilkeşdir, – dedi və sonra əlavə etdi, – ay səni xoş gördük, əhvali-şərif?

– Sağ ol, duaçıyam.

– Çoxdandır gözümə dəymirsən?

– Rayona getmişdim. Anama dəyməyə. Bizim tərəflərdə olmamısan ki? Bir gözəl, səfalı yerlərdir, iki göz istəyir tamaşasına. Bu səfərimdən çox razı qaldım.

Məmməd Nəsir.

– Ən yaxşı səfər... – deyə sözə başladı.

– Bilirəm nə deyəcəksən. – Tavus onun sözünü ağzında qoydu, – ən yaxşı səfər şərab kuzəsinin boğazından dibinə səfər etməkdir. Yüz dəfə eşitmişəm.

– Ay sağ ol. Bu yolu ki, keçirsən, çatırsan şüşənin dibinə, düşürsən cənnətə. Bəli, hurilər, qılmanlar, mələikələr... Özləri də qələt eləyirlər, cənnətdə "suxoy zakon"zad yoxdur. İçki bax buracan – əlini hulqumuna dirəyib elə bil mişarladı. – Bəli, iki saat, üç saat olursan cənnətqradda. Yanında da sənin kimi bir canalan canan. Bax, bir var can, bir var canan, bir də var canalan...

Tavus:

– Ala ey, – deyə iki əlini çətir kimi Məmməd Nəsirin başına tutdu, – ətin tökülsün, kişi, ətimizi tökdün.

– Hə, cənnətdə ki bir az cövlan cləyirsən o yan-bu yana, sonra uzadırlar səni xərəyə, yəni ki, çarpayının üstünə, gətirirlər obratnı geri. Ayılıb görürsən bəli, yenə öz otağındasan ki, varsan, həmin-zəmin, Məmməd Əmin.

Tavus çıxıb getmişdi.

Məmməd Nəsir onun dalınca baxıb:

– Qudurasan qurbağa, – dedi, – bizim rayon, sizin rayon... Mərdan kişi düz deyirdi ki, bu bakılılar, qarabağlılar, qazaxlılar, nə bilim gəncəlilər, göyçaylılar, naxçıvanlılar içində azərbaycanlı olmaq çox çətin məsələdir.

Məmməd, Nəsir belini büküb dəhlizlə yolunu davam etdirirdi. Evə gedən işçilərə kamal-ədəblə: "Salaməleyküm, hər vaxtınız xeyir, xoş getdiniz, sağ olun, gülə-gülə" deyirdi.

Həmişə aşağı baxdığındanmı beli bükülmüşdü, ya beli bükülü olduğundanmı həmişə aşağı baxırdı?

Dadaşgilin qapısına çatdı. Qapını elə açırdı, elə bil qapıdan üzr istəyirdi ki, bağışla səni açıram. Qapını açıb yan-böyürü, barmaqlarının ucunda, tələsik içəri şütüyürdü.

Dadaşgilin otağına elə girdi ki, elə bil otaqda yatan, ya xəstə var.

Dadaş kağız-kuğazını iri şişman portfelinə yığışdırırdı. Portfel elə yekəqarın idi ki, bura lap adamı da yerləşdirmək olardı.

Təhminə siyirtməsindən balaca güzgüsünü çıxarıb dodaqlarını boyayır, sonra diliylə boyanı yalayırdı.

Qurban başını aşağı sallayıb nə isə yazırdı.

Məmməd Nəsir:

– Salaməleyküm, – dedi, – xanım qız, səni görməmişəm.

Təhminə güzgüsünü çantaya qoyub:

– Salam, Məmməd Nəsir, – dedi.

Dadaş:

– Nədi, Məmməd Nəsir, sözlü adama oxşayırsan? – dedi.

Məmməd Nəsir dırnaqlarını çeynəyə-çeynəyə:

– Deyirəm, bəlkə bir ataydıq... – dedi.

– Canımçün tələsirəm, yoxsa məmnuniyyətlə, – mixəyi, zəhmli portfelini əlinə götürdü. Ötkəm səslə: "Di salamat qalın" – dedi.

Dadaşın enli kürəyi bir anlığa qapını tamam tutdu.

Məmməd Nəsir üzünü bu kürəyə tutub:

– Sağ oluz, gülə-gülə, – dedi, bir-iki dəfə başını əyib küroklə vidalaşdı, beli daha da büküldü, yarıqat oldu, – sağ oluz, xanım qız, sən də xoş getdin.

Qapı örtüldü. Dadaşın ağır addımlarının səsi gəlirdi: elə bil dəhlizdə bir cüt ütü yeriyirdi. Bu səsə Təhminənin dikdaban çəkmələrinin addım səsləri calandı: elə bil döşəməyə gilə-gilə su damırdı.

Səslər uzaqlaşdı, itdi.

Qurban başını qaldırdı:

– Məmməd Nəsir, düzdü, deyirlər sənin bu Dadaşla xüsusi zarafatın var?

– Necə bəyəm? Nə zarafat?

Qurban qımışdı:

– Nə bilim vallah, uşaqlar danışır. Deyirlər bərk içəndə gecə saat ikidə, üçdə gedirsən bunlara. Zəngi basırsan, arvadı oyanıb gəlib qapını açır. Deyir nə olub, nə təcili işdir ki? Deyirsən bəs çox təcili işdir. Bəli, Dadaş bir tuman-köynəkdə gözünü ovuşdura-ovuşdura qapıya çıxır. Deyir nə olub, nə var, nə xəbərdir, ay Məmməd Nəsir, gecənin bu vaxtında? Sən də ki, – Qurban papiros çəkənlərin xırıltılı gülüşüylə güldü, – sən də ki, çırtıq çalıb deyirsən:

Tupbuludu, tupbulu.
Cupbuludu, cupbulu.

Məmməd Nəsir də bərkdən güldü. Ağzında bir dənə sağ dişi yox idi.

– Olub-olub, – dedi, – əşi, mən bu Dadaşın dabbaqxanada gönünə bələdəm. Neçə il yoldaş olmuşuq. Sən o vaxt uşaq olardın. Birinci bura işə mən gəlmişəm. Elə o vaxtdan korrektor işləyirəm. Yeddi dəfə orfoqrafiyanı dəyişdilər. Hamısını da əzbərlədim. Latını da bilirəm,

ərəbi də, indikini də. Bir gün Parapetin tinində Mirzə Cəlilə rast gəldim. Göy parusin pencəyi vardı. Əlində də əsası. Dedi: "Məmməd Nəsir, axı biz belə deməmişdik, qardaş". Eh, ay Qurban, adamlar var idi, adamlar görmüşdük.

Qurban:

– Dadaş da o vaxtdan işləyir?

– Yox, birinci bura mən gəlmişəm. Sonra dartdım Səfdəri gətirdim. İndi baş mühasibdir e... o vaxt kassir köməkçisi idi. Şunu götür, şunu qoy. Bu Dadaş da var ha... Bunu da bura mən işə düzəltmişəm. Bir gün bax clə bu yerdə, söz yerinə çəkər Teymur Mahmudova rast gəldim. Dedi: nə var, Məmməd Nəsir, gözümə bir az turş dəyirsən? Dedim: bəs sağ oluz, sağlığınıza dolanırıq. Amma bir yoldaşım var. Mümkün eləsəydiniz, onu işə götürərdiniz. Dedi: bəs nə yoldaş? Dedim: bu Dadaş. Dedi: bəs nə bacarar? Dedim: Bəs hər nə desən. Dedi gəlsin kuryer götürüm onu hələlik, sonra baxarıq. Eh, kişilər vardı o vaxt, hanı indi onlar!.. Qaldıq uşaq-muşaq əlində. İndi hər yerindən duran...

– Bəs, düzdür ki, bu Dadaş Teymur Mahmudovdan material verib?

Məmməd Nəsir çiyinlərini çəkdi:

– Əşi, gedək bir nərd ataq da...

– Deməli, Dadaşı işə sən düzəltmisən. Kuryerlikdən başlayıb gör hara qalxıb!

Hə, o vaxt yaman ləng idi. Elə hey qışqırırdılar: ay Dadaş, di tez ol, tərpən. Əlli-ayaqlı ol bir az. Şeir də qoşmuşdular: ay Dadaş, başıva daş, tərpənmə belə yavaş. İndi gör kimdir!

Qurban:

– Müdirin sağ əli, – dedi, – sözü qılınc kimi kəçir. Kəsdiyi başa sual yoxdur. Amma insafən səni həmişə müdafiə eləyir. O səfər töhmət vermək istəyirdilər, qoymadı.

Məmməd Nəsir:

– Çox sağ olsun, – dedi. Mən ki, ondan bir pislik görməmişəm, ancaq yaxşılıqdan başqa. Adamın Allahı var. Əşi, kişisən, dur gedək bir nərd ataq.

– Yox, gorək evə qaçam. Beş dəqiqə gec gəlsəm, arvad günümü göy əsgiyə bürüyəcək. Sən belə-belə şeyləri bilməzsən, Məmməd Nəsir, sənə nə var ki, subay adamsan...

– Subaylıq sultanlıqdır. Bir həsirəm, bir də Məmməd Nəsir.

Otaqdan çıxdı. Otaqların çoxu boşalmışdı. Səfdər dayı dəmir qapısını qıfıllayıb pilləkənə tərəf yollandı. O həmişə işə hamıdan tez gəlib hamıdan gec gedərdi.

Məmməd Nəsir:

– Səfdər, – dedi, bir nərdlə necəsən?

Səfdər dayı fikirli və dalğın görünürdü. Səsi eşidib diksindi, başını qaldırdı. Elə bil Məmməd Nəsiri əvvəlcə tanımadı, elə bil onu ilk dəfə görürdü. Eynəyini çıxarıb nəfəsini şüşəyə verdi, sonra dəsmalla sildi.

– Ey, ay Nəsir, – dedi, – mən nə hayda, sən nə hayda!

İki ay bundan qabaq Səfdər dayının arvadı rəhmətə getmişdi.

Məmməd Nəsir:

– Ay Səfdər, – dedi, – vallah, bu dünya bir yer deyil. Bir başım açılmır, bir macal eləyə bilmirəm ki, gedib özümü öldürüm.

Səfdər:

– Özünü niyə artıq zəhmətə salırsan, əcəl onsuz da özü gəlib səni tapacaq.

Məmməd Nəsir pıçıltıya keçdi:

– Səfdər, deyirlər Dadaş Teymur Mahmudovdan danos yazıbmış, hə?

Səfdər dayı arı qovurmuş kimi dəsmalını yellədi:

– Məmməd Nəsir, son ölənlərinin goru, xatovu məndən uzaq elə. Sən içmisən, dünya vecinə deyil.

Tələsik addımlarla çıxıb getdi: tak-tuk, tak-tuk...

Maşını qarajdan çıxaranda Zaurun yadına düşdü ki, çimmək paltarı yadından çıxıb idarədə qalıb. Yay vaxtı bu dənizliyini həmişə idarədə qoyurdu. Görürsən işdən sonra uşaqlarla sözləşib tələsik cumdular dənizə.

Maşını nəşriyyatın qabağına sürdü. İş qurtarmış, camaat dağılmışdı. Qapını döydü. Qapıçı: heç kəs yoxdur, – dedi, – hamı çıxıb gedib.

– Bilirəm, – deyə Zaur tələsik onun yanından içəri dürtüldü, – yadımdan şey çıxıb qalıb.

Öz otaqlarına çıxdı. İçəri girdi, siyirməni çəkdi, qəzetə bükülmüş dənizliyini götürdü. Saata baxdı və birdən təəccüblə qulaq verməyə başladı.

Bomboş idarənin yuxarı mərtəbəsindən nərd səsi aydın eşidilirdi. "Bıy, Məmməd Nəsir burdaymış ki! Görəsən, kimi xamlayıb?"

Fikirləşdi ki, qoy çıxım baxım, görüm kimi xamlayıb. Əvvəl-əvvəl Təhminəylə danışmağa mövzu da olar. Ümumiyyətlə, fikir verib Təhminə Məmməd Nəsirdən danışmağı sevir, o biri məktəb əhvalatını da danışaram. "Sonra da keçərsən ayrı söhbətlərə, incə mətləbə, Zaur kişi. Ay vələddüzzina!".

Bığaltı qımışdı, saçlarına sığal verdi, yüyürüb yuxarı mərtəbəyə dırmaşdı, nərd səsi gələn otağa tərəf getdi.

Qapını açdı, baxdı. Mat qaldı.

Otaqda Məmməd Nəsirdən başqa heç kəs yox idi. Məmməd Nəsir öz-özüylə nərd oynayırdı. Zaurun gəlişini duymadı:

– At, Dadaş, – dedi. Atdı. – Aha, şeş qoşa.

Oynadı.

– İndi lələşün Məmməd Nəsir atsın.

Atdı.

– İki-bir. – Başını qaşıdı. – Yaxşı, mən bu iki-bir andıra qalmışı hardan oynayım? Əldən oynasam bataram ki... ayrısı da yoxdur. – Oğrun-oğrun ətrafa döyükdü. Zauru yenə görmədi. – Bu heç, – dedi. – Guya bu olmayıb. Qoy bir də atım. Özümüzük də, bilən olmaz.

Atdı.

– Tfu səni. Yenə iki-bir. Gətirmir də...

Zaur yavaşca qapını örtüb ağır-ağır pilləkəni düşməyə başladı. Başını buladı, gülümsündü. Qapıçıya:

– Sağ olun, – dedi və çıxarıb otuz qəpik verdi.

Küçəyə çıxanda bir də başını buladı.

DADAŞIN PROFESSOR TEYMUR MAHMUDOVA MƏKTUBU

Moskva
Dobrolyubov küçəsi, 11-ci ev, mənzil 7

Hörmətli və əziz professor! Atəşin salamlar. Cürbəcür işlər adamın başını elə qarışdırır ki, heç bir macal tapıb Sizə məktub yaza bilmirəm. Nəhayət, bu gün, şənbə günü öz-özümə dedim ki, daha nə cür olursa-olsun, gərək vaxt tapıb Sizə bir-iki kəlmə yazam. Məktub yazmıramsa, bu o demək deyil ki, Sizdən xəbərsizəm. Moskvadan gələn

tanış-bilişdən həmişə Sizi soruşuram. Səhhətinizin, kef-əhvalınızın sağlam və gümrah olduğunu eşidib çox sevinirəm. Tez-tez mərkəzi mətbuatda imzanızı görəndə ürəyim dağa dönür. Professor, Siz bəlkə heç özünüz də təsəvvür edə bilmirsiniz ki, Sizin adınız, işiniz, taleyiniz, ömrünüz bizim nəsil üçün nə deməkdir. Mən həmişə əsil insanı, yüksək ülvi bir humanist, bütün çətinliklərdən mərd-mərdanə və açıq alınla çıxan bir insanı təsəvvür etmək istəyəndə məhz Sizi düşünürəm. Sizin neçə ağır illərdən çıxıb, haqsız ittihamlara məruz qalıb sarsılmaz inam və etiqadla, yenidən qurub-yaradan insanların içində belə ləyaqətli yer tutmağınız yalnız cavan nəslə deyil, elə bizim yaşlı nəslimizə də ibrət dərsidir. Doğrudan, bəzən elə adamlara rast gəlirsən ki, kiçicik bir haqsızlığı, ya kəsiri görüb laqeydləşir, yorulur, yaxasını kənara çəkir, heç nəyə qarışmır, başını girləyir. "Dəymə mənə, dəymərəm sənə, ya azacıq aşım, ağrımaz başım". Siz isə bütün kəşməkeşlərdən sonra yenə də əvvəlki hünərlə, cavanlıq həvəsiylə, gənclik ehtirasıyla işləyir, çalışır, yaradır, xalqımıza, millətimizə xeyir verirsiniz. Əziz Teymur müəllim, bu təmtəraqlı və pafoslu sözlər üçün məni bağışlayın. Ancaq inanın ki, bu sözlər ürəkdən gəlir, qəlbimin ən dərin, ən səmimi hissələrini ifadə edir.

Əziz professor, keçən yay söz verdiniz gəlmədiniz, heç olmasa bu il sözünüzün üstündə durun. Universitetdə dərsləriniz qurtaran kimi istirahətə bura gəlin, necə deyərlər, doğma vətən torpağı yolunuzu gözləyir. Gedək bir əməlli-başlı Azərbaycanı gəzək. Qalxaq Göy göl. Özüm öz əlimlə Sizə yaxşı bir kabab çəkim. Ötək ordan Şuşaya, Laçına, Kəlbəcər tərəfə. Siz ki maşallah, belə səyahətlərin aşnasısınız. Sonra da Bakıda bizdə bir köhnə dost-aşnaynan yığışaq, armudu stəkanlarda bir yaxşı məxməri çay içək, bir nərd ataq. (Nərd oynamağı unutmamısınız ki?) Yeri gəlmişkən, bildir Yəhyayla Sizə bir nərdtaxta göndərmişdim. Nuxada bir ustaya şəxsən özüm sifariş vermişdim. Belə ayrı aləmdi, əl işi... Bilmirəm xoşunuza gəldi, yoxsa, yox? Burda sağ-salamatlıqdır. Səfdər kişinin arvadı öldü. Mina xanım, bilmirəm yadınıza gələr, ya yox? Bəli, professor, bizim nəsil də yavaş-yavaş seyrəlir. Baxırsan köhnə dostlardan kim qalıb? Kimdi qalan o vaxtın adamlarından? O vaxt, Sizin işə götürdüyünüz adamlardan indi idarədə qalan bir mənəm, bir Səfdər, bir də Məmməd Nəsir. Məmməd Nəsir zalım oğlu da elə hey içir. Onu vaxtında evləndirmədik ki, bəlkə arvad ipə-sapa yığaydı. Yoxsa indi tək adamdı, nə vecinə? O gün az

qala işdən qovacaqdılar. Qoymadım. Durdum dedim, atacaqsınız bayıra, neyləyəcək? Bayıra atmaq asandır. Gəlin bir məsləhət eləyək, qolundan tutaq, kömək eləyək. Köhnə işçidir, idarənin veteranıdır. Savadlı korrektordur. Hələ siz cavanlar ondan çox şey öyrənə bilərsiniz. Bilirsiniz də professor, cavanlardır, odlu-odlu danışırlar, elə bilirlər hamıdan ağıllıdırlar. Deyirəm onlara ki, biz sizin yaşda olmuşuq, amma siz hələ bizim yaşa çatmamışsınız. Odur ki, siz biləni biz çoxdan bilirik, amma biz biləni siz hələ bilmirsiniz. Uzun sözün qısası, saxlatdım Məmməd Nəsiri. Sizi də köməyə çağırdım. Dedim bəs professor da eşitsə, bizdən inciyər, axı, Məmməd Nəsiri bura işə o götürüb.

Nə isə, əziz professor. Sizə xeyli başağrısı verdim. Ancaq Sizə bir *işim də düşüb. Bilirəm, indi Sizin yerinizə başqa adam olsaydı, düşünə* bilərdi ki, hə, işin düşüb, elə məktubu da onunçün yazmısan. Ancaq mən sizin qəlbinizin genişliyinə bələdəm, bilirəm ki, belə dar fikirlərə düşməzsiniz. Hər halda, mənim haqqımda belə düşünməzsiniz. Məsələ ondadır ki, biz burada "Tarixi şəxsiyyətlər" seriyası buraxmaq haqqında təşəbbüs irəli sürmüşük və prinsipial razılıq almışıq. İndi bu məsələnin təsdiqini Moskvada bir az tələsdirmək lazımdır. Mən özüm bu iş üçün Moskvaya gəlmək istəyirdim. Ancaq sonra fikirləşdim ki, heç kəs bu işə Sizin kimi kömək edə bilməz. Sizin orada necə böyük nüfuza malik olduğunuzu yaxşı bilirəm və odur ki, Sizdən artıq dərəcədə xahiş edirəm, bu işə himayədarlıq edin. Əgər prinsip etibarilə *razısınızsa, konkret məsələlər barəsində Sizə yeni bir məktub yaza*ram:

Ayrı elə bir yenilik yoxdur. Bizim Aqil bu il orta məktəbi qızıl medalla bitirib. Meyili də Moskvayadır. Ali məktəbi orda oxumaq istəyir. Deyirəm, elə bilirsən asandır Moskvada imtahan verib ali məktəbə qəbul olunmaq? Amma heç bir şey eşitmək istəmir. Hələ özü də bilmir hansı sahəyə gedəcək. Bəlkə Siz bir məsləhət verəsiniz. Nə isə... bu da bir problemdir.

Hörmətli professor. Cavabınızı səbirsizliklə gözləyirəm. Daha böyük bir intizarla Sizin özünüzü burada gözləyirik.

Dərin hörmət hissiylə Dadaş
5 iyun 1965

ÜÇÜNCÜ

Siqareti siqaretə calayırdı: "Əgər dolamaq istəyirmişsə, çox mənasız zarafatdır".

"Bəlkə bağın o biri tərəfini deyib? Yox, orda maşın saxlamaq qadağandır. Sol tərəfi dedi. Sol tərəf buradır da".

Zaur maşının saatına bir də baxdı, sonra qol saatına baxdı. Sözləşdikləri vaxtdan düz 45 dəqiqə keçirdi.

"On beş dəqiqə də gözləyim. Olsun bir saat. Əgər gecikirsə, bir *saat bəsidir. Ondan artıq mən heç Bricit Bardonu da gözləmərəm.* Yox, əgər mənimlə zarafat eləmək fikrinə düşübsə, nə olar, heç eyib etməz, mən də papaq altında qalan oğlanlardan deyiləm".

Yeddi dəqiqə də keçdi.

Son siqareti damağına qoydu. Boşalmış qutunu xışmalayıb ovcunda əzdi, tuşlayıb səkidəki zibil qutusuna atdı.

Maşının gözünü açıb təzə qutu götürdü, cibinə qoydu, rulu tumarlamağa başladı.

Lap qulağının dibində səs eşitdi:

– Bağışla, deyəsən, bir az gecikmişəm.

Bayaqdan bəri bu səsi gözləyirdisə də diksindi, qanrılıb baxdı. Təhminənin qırmızı paltarının ağ düymə cərgəsini gördü.

– Zərər yoxdur, – dedi, – keç bu tərəfə.

Qapını açdı. Təhminə içəri keçdi, əlindəki iri ala-bula çantanı Zaura uzatdı.

Zaur:

– Ver çantanı bura, – dedi, – arxaya qoyum. Nə yığmısan bura bir belə?..

– Heç, bir az yemək götürmüşəm.

Zaur maşını işə saldı, hərəkətə gətirdi...

– Yemək? Yemək neyləyirsən, evdə yeyəydin də, – üzünü Təhminəyə tərəf çevirib bığaltı gülümsündü, – iki saata qayıdarıq da...

Təhminə maşının güzgüsünü üzünə tuşlayıb, saçlarını düzəldirdi.

Yeməyinə yemişəm. Dedim birdən yubandıq. Acsaq...

– Aa... belə de, – mənalı-mənalı Təhminəni süzdü. "Pah atonnan! – deyə düşündü, – gör dünyanın nə günüdür?! Yad kişiylə plyaja gedir. Özü də bilir niyə gedir, amma tədarükünü də yaddan çıxarmır.

Qarının da qeydinə qalır. Bəli, XX əsrdir, Zaur kişi. Romantika vaxtı çoxdan keçib".

– Hansı tərəfə gedək? – deyə Təhminədən soruşdu. Təhminə dərhal:

– Pirşağı tərəfə, – dedi. – Pirşağıdan da o tərəfə bir plyaj var. Yaxşı yerdir, sakit, adamsız...

"Görünür, yaxşı bələddir. Kişinin qızının əməlli-başlı səriştəsi varmış. Kül başına, Manaf!"

– Uşaqlıqda Pirşağıda bağımız vardı. Atam sağ olanda. Çimməyə həmişə o tərəfə gedərdik. Bir qiyamət qayalıq var orda...

Səs-küylü, adamlı küçələrdən keçib geniş şoseyə çıxdılar. Yol basırıq idi. Şənbə günü axşama doğru elə bil bütün şəhər maşın-maşın, avtobus-avtobus sahil bağlarına tərəf axışırdı. Maşınların dal şüşələri bostanı andırırdı: xiyar, qovun pomidor...

Boy-buxunu, yaraşıqlı sifəti, idmançı inadı və başqa keyfiyyətləri Zauru erkən kişiləşdirmişdi. İyirmi üç yaşında çox şey görmüşdü. Təcrübədə kamilləşmiş fitri bir məharətlə hər növ, hər çeşidli qadınla söhbət sala bilir, söhbətdə hər şeyin faizini, dərəcəsini, məqamını da bilirdi. Nə dərəcədə qəlizdən qırıldatmaq, neçə faiz yumor, ikibaşlı eyhamlar. İncə mətləblərə keçmək məqamını da duyurdu, incə söhbətdə müvazinət saxlamaq ustalığı da vardı. Yeri gəldikcə gah adam üzünə həyəcan göstərir, tutulur, özünü itirir, gah da adamına görə açıq-saçıq danışırdı. Təhminənin özüylə də küncdə-bucaqda müxtəlif çeşidli söhbətlərdən az eləməmişdi.

Amma bax indi, onun, nağıllarda demişkən, arzu-kamına, muradına çatmasına lap az qalan bir zamanda, onu məqsədinə doğru saatda 80 kilometr sürətlə aparan bu maşının içində gözlənilməz bir acizliklə danışmağa söz tapmırdı. Bilmirdi nədən başlasın, hansı səmtdən gəlsin. Təhminə də susmuşdu.

Birdən Zaurun yadına Məmməd Nəsir düşdü.

– Nə olub, niyə gülürsən?

– Heç əşi, yadıma düşdü bir şey. Bayaq qayıtmışam idarəyə, bir də gördüm...

Məmməd Nəsirin öz-özüylə nərd oynamasını yerli-yataqlı danışdı. Deyəsən, əhvalatın duzu Təhminəyə çatmadı:

– Bəyəm adam öz-özüylə nərd oynaya bilər?

– Yox da elə məsələ ondadır. Heç kəsi tutub tovlaya bilməyib, odur ki, öz-özünən oynayır.

Təhminə:.

– Məmməd Nəsir çox qəribə tipdir, – dedi.

– Əşi, ayrı aləmdir. Keçən yay bunun bacısı qızı universitetə girir. Yəqin içib dəm olub, lovğalanıb ki, bəs mən düzəldərəm. Mənim bir yoldaşım universitetdə işləyir, o danışır: deyir, görürəm bir gün bu Məmməd Nəsir dayanıb universitetin qabağında yetim quzu kimi büküb boynunu. İçəri buraxmırlar. Özü də bir balaca dəmdir. Bəs, qapıçıya dedim ki, burax onu, bilirsən bu kimdir? Böyük adamdır. Buraxdırdım onu içəri. Bacısı qızı da yanında imiş. Deyir içəri keçən kimi belini düzəltdi, yanındakı qızın əlindən dartdı birbaş imtahan verilən otağa. Mən də, deyir, düşdüm bunların dalınca, görüm bu neyləyəcək. Açdı, deyir, sinif qapısını, girdi içəri, bəli, imtahandır, uşaqlar oturub. Komissiya-filan. Komissiyada da bir Rəhim var, odur, bir də Cavanşir var, köhnə müəllimlərdəndir, odur. Bəli, Məmməd Nəsir, deyir, kamal ədəblə bunlara salam verdi, dedi, bəs Cavanşir, məni tanıyırsan? – Bəli, tanıyıram. – Çox əcəb, çox gözəl. Rəhim, sən necə? – Bəli, mən də tanıyıram, Məmməd Nəsir. – Çox əcəb. Bax bu mənim bacım qızıdır. Bildiniz də? Daha ayrı söz demirəm. Bacım qızı! Bildiniz? – Bəli bildik. – Hə, qızım, keç otur. Xatircəm ol. Vəssalam! Di salamat qalın, – deyib otaqdan çıxıb, bir də qayıdıb ki, bağışlayın a, siz də bağışlayın, uşaqlar. Sonra çıxıb gedib, bacısıgildə basıb kəsib ki, bəs, sən arxayın ol, ürəyini buz kimi elə. Elə bil ki, qızın oturub universitetdə leksiyada.

Maşın bol gediş-gəlişli şəhərbasardan çıxıb, getdikcə seyrəkləşən yolla irəliləyirdi.

Susmuşdular. Bir azdan sonra Təhminə:

– Yaxşı, nə olub, qəbul eləyiblər qızı? – deyə soruşdu.

– Hardan qəbul eləyəcəklər? Tökülmüşdü. Kəsiblər gedib.

– Niyə?

– Necə niyə? Məmməd Nəsirin ağzına baxan kimdir? Adamı o cür tapşırarlar?

Təhminə:

– Əlbəttə, – dedi, – tapşırmağın da öz ritualı, qayda-qanunları var. Necə deyərlər, zəngin adət-ənənələri. Əvvəlcə kənar söhbətlər, sizin it bizim ərsini apardı, o yandan, bu yandan, havalar xoş keçir, daha nə var, nə yox, sonra belə sözarası kiçik bir işarə, eyham, arifsən, gərək başa düşəsən, sən mənim işimi düzəlt, biz də xəcalətdə qalmarıq, filan-peşməkan, əl-əli yuyar, əl də üzü...

Zaur:

– Eh, kim kimədir, – dedi. Bir qədər susandan sonra Məmməd Nəsirlə əlaqədar başqa bir əhvalatı xatırladı. – Məmməd Nəsirin müdirimizlə olan əhvalatından xəbərin var?

– Yox.

– Bir gün Cəfər müəllim küçədə Məmməd Nəsirə rast gəlib. Deyib: axşamın xeyir, Məmməd Nəsir. Bir də görüb ki, Məmməd Nəsir iki əlini başına çəkdi ki, vay, Cəfər müəllim, bütün mayam batdı. Kişi başa düşməyib: – Nə danışırsan Məmməd Nəsir, nə mayabazlıqdır? Deyir: bəs, Cəfər müəllim, əməlli-başlı özümə maya qoymuşdum. *İçib əntiqə dəm olmuşdum. Sizi gördüm tamam ayıldım. Bütün mayam batdı.*

Təhminə güldü, Zaur:

– Neyləsin yazıq Məmməd Nəsir, – dedi. – O da kamını içməkdən alır. Tək kişidir. Ürəyi darıxır, içir də. Bədbəxt oğlu vaxtında bir halal süd əmmişin başını bişirib evlənməyib də, – udqunub əlavə etdi, – əlbəttə, bişirmək onunçün o qədər də asan deyil, amma...

Təhminə:

– Sənincün nccə? – dedi, – sənincün asandır?

Zaur çırtmayla siqaretinin külünü atdı.

– Baxır da, – dedi və güzgüdə Təhminəyə göz vurdu. – Baxır atəşin hərarətinə.

– Onda mənə bir siqaret ver, bir də atəş.

– Oho, sən çəkirsən? Heç bilməzdim.

Kibrit çəkdi. Maşının içindəki yeldöyəndə kibritin odu yaralı quş kimi çırpınıb söndü.

Təhminə ikinci kibriti çəkib əlləriylə odu bələdi, bürüdü, ovuclarının içində gizlətdi. Bir qullab vurub:

– Sən hələ çox şeyi bilmirsən, əzizim, – dedi.

– Bircə onu bilirəm ki, bu maşının içində indiyə kimi belə dünya gözəli oturmayıb.

– Yəni bura çox dünya gözəli mindirmisən?

Zaur nə isə qeyri-müəyyən bir səs çıxardı, həm təsdiq, həm inkar kimi qəbul etmək olardı.

– Maşını çoxdan almısan?

– Yeddi ay olar.

Kaş soruşmayaydı ki, hansı pula? "Atamın puluna" deməkistəmirdi. Təhminə soruşmadı. Yəqin hamı kimi o da bunu bilirdi.

– Yaxşı işləyir, – dedi. Yarısual, yarıtəsdiq ifadəsi ilə dedi.

– Ceyran kimi qaçır. Zarafat deyil e, əlli at gücü var burda.

– Necə?

– Əlli.

– Mənim bir tanışım vardı. "Volqa"sı vardı. Elə hey qürrələnirdi ki, yetmiş at gücündədir. Bir dəfə lap zəhləmi tökdü, dedim bilirsən nə var, maşının yetmiş at gücündədir, amma başında yeddi at beynicə ağlın yoxdur. Küsdü məndən, o gedən getdi.

– Kimdi ki o?

– Çox bilsən, tez qocalarsan. – Zaurun tutulduğunu görüb, – eləbələ, bir tanışım idi, – dedi, – aramızda heç bir şey yox idi.

Zaur düşündü ki, ağlına gələn sualı versin, ya verməsə yaxşıdır, sonra qərara gəlib.

– Təhminə, – dedi, – bağışla, sənə bir şəxsi sual verim. Amma incimə.

– Aha.

– Bəs, *Manaf səni qısqanmır?*

Təhminə gülüb əlini onun başına çəkdi, saçlarını qarışdırdı. Xoş bir gizilti iynə-iynə Zaurun bədənini dolaşdı. Bir an gözləri dumanlanan kimi oldu, əlində rul oynadı, maşın sərxoş kimi ləngər vurdu.

Təhminə müvazinətini güclə saxlayaraq:

– Oho, nə yaman odlu cavansan, – dedi.

Zaur cəld özünü ələ aldı. Bir qədər əsəbi güldü.

Maşın yolu yumaq kimi təkərlərinə sarıyırdı. Ağaclar, teleqraf dirəkləri arxaya yıxılıb qalırdı. Uzaqda asfalt üzərində ilğımlar-gölməçələr parlayır və yoxlaşıb gedirdilər. Maşın yolu hərisliklə udur, udurdu.

Təhminə:

– Məndən sənə əmanət, – deyə sükutu pozdu, – əgər günlərin bir günündə işdi-şayəd evlənib eləsən, mütləq arvadını qısqan. Qısqanclıq duydun, duymadın, əsasın oldu, olmadı, heç təfavütü yoxdur, əgər istəyirsənsə arvadın səni saysın, sənə hörmət eləsin, yerini bilsin, mütləq qısqan onu. Əlbəttə, daha lap xırdaçılıq eləyib zəhləsini tökmə, yazıqdır. Görürsən elə kişilər olur e, yerli-yersiz səfeh-səfeh qısqanıb arvadı çərlədir, dığ edirlər. Əlbəttə ki, o cür yox, amma belə öz qaydasında, həmişə gərək arvadın elə bilsin ki, sən onu dəlicəsinə qısqanırsan, amma ağır kişisən, büruzə vermirsən. Onda bütün işlər yaxşı gedər. Görürsən sənə necə məişət dərsi verirəm, desələr kim öyrətdi, dənən elə özüm bilirdim.

– Çox sağ ol, artıq dərəcədə minnətdaram.

Uzun bir qullab vurub sözünə davam etdi:

– Çünki bilirsən, qısqanmamaq arvadı təhqir edir, fikirləşir ki, yəqin ya ərim mənə biganədir, sevmir məni, ona görə qısqanmır. Ya da ərimin rəyincə mən elə idbar bədəncərəyəm ki, heç kəs, heç bir kişi ömründə mənə yaxın düşməz. Bildin? Necə deyərlər, əndazədən çıxmadan, həddi-ölçünü itirmədən belə qaydasınca bir balaca qısqanmaq mütləq lazımdır.

– Sənin ərin belə edir?

Təhminə onun atmacasını qulaqardına vurdu:

– Sənə bir dərs də verim, – dedi. – Heç olmasa bugünkü səfərimizdə təzə bir şey öyrən. Əgər arvadın bilsə ki, ona xəyanət etmisən, coşub özündən çıxa bilər, qab-qacağı sındırar. Çox dəlisovdursa, nə bilim, lap vurar özünü yandırar, ya gedib rəqibinin saçını yolar, üz-gözünü cırmaqlayar, dağıdar. Yox əgər insan adamdırsa, nəcibdirsə, xasiyyətcə həlimdirsə, üzə vurmaz, içinə salar, içini yeyər, içəridə yanıb-yanıb qovrular. Ərinə qəzəblənər, qızar, nifrət eləyər. Amma bu hisslərin heç biri həqarət deyil. Ərə qarşı həqarət, ikrah hissi ancaq bir halda baş qaldırır. O vaxt ki, arvad özü ərinə xəyanət edir, həm də bilir ki, əri bunu hiss eləyə-eləyə özünü bilməməzliyə, eşitməməzliyə, görməməzliyə qoyub. Bax, onda arvad kişidən iyrənməyə başlayır. Bütün başqa hisslər, qəzəb də, nifrət də sovuşub gedir, sönür, soyuyur, amma bu hiss, iyrənmək hissi ömürlük qalır. O adama daha yaxın dura bilmirsən. Elə bil qurbağa, kərtənkələyə toxunmaqdan çimkinən kimi çimkinirsən. Bildin? – O, əlini yenə Zaurun saçlarına tərəf uzatdı, lakin tez çəkdi. – Yox, yox, sən allah, – dedi, – yaxşı yadıma düşdü. Sən elektriklisən. Sonra maşını aşırdarsan, xataya düşərik.

Zaur:

– Bütün bunlar mənimçün çox mürəkkəbdir, – dedi, – onunçün də evlənmirəm.

– Bir yana baxanda elə yaxşı eləyirsən.

Yenə bir müddət sükut çökdü. İki dolu taksi hay-haraylı siqnallarla onları haqlayırdı. Qabaqdakı maşının sürücüsü əlini siqnala batırıb çıxarmırdı. Zaur çəpəki güzgüyə baxıb, ayağını qaza basdı. Maşının şüşələri titrədi. İndi maşınlar döş-döşə gedirdi.

Sürücünün yanında oturmuş bığlı kişi onlara baxıb irişir, dişlərinin iki cərgəlik qızılında günəşi əks etdirirdi.

Təhminə:

– Nə oyun çıxarırsan? – dedi. – Nə bəhsə-bəhsə girmisən? Qoy keçib getsinlər... Yavaş-yavaş sür, söhbət eləyirik.

Zaur ayağını pillə-pillə qazdan çəkdi.

Hər iki taksi güllə kimi ötüb qabağa çıxdı. Kəsik-kəsik siqnallarla qələbələrini qeyd etdilər, uzaqlaşdılar.

Təhminə:

– Mən idarəyə gələndə uzun zaman işçilərlə dil tapa bilmirdim, – dedi. – Mənə elə gəlirdi ki, çox kütdürlər. İçlərində bircə Nemət ağıllı, mədəni adama oxşayırdı. O da həmişə elə qayğı içində idi, elə bil alnında yazılmışdı ki, "neyləyim, necə eləyim, nə cür dolanım?" Mənə elə gəlirdi ki, heç vaxt onlarla dil tapa bilməyəcəyəm. Amma vaxt adamı bilirsən necə dəyişir! Adam heç özü də bilmir, – maşının küləklik pəncərəsini açıb siqaretin kötüyünü bayıra vıyıldatdı, – bax, saatı görürsən, saniyə əqrəbi necə tez qaçır. Gözünü zillə bax, gör heç saat əqrəbinin hərəkətini görə bilərsən? Amma gözünü çək, iki-üç saatdan sonra bax, görəcəksən ki, burdan bura gəlib. Adam da belədir. Uşaqlıqda tez-tez dəyişir. Saniyə əqrəbi kimi. Böyüyəndə isə yavaş-yavaş. Saatlar, günlər gedir, ömürdən gedir, gündə necə dəyişdiyini duymursan, ancaq hər dəqiqə, hər saat dəyişirsən. İki-üç ildən sonra birdən baxırsan özünü tanımırsan. Əşi, yəni bu mənəm?

– İndi sən də belə dəyişmisən?

– Hərdən düşünürəm özümü tanımıram. Necə oldu ki, mən bu adamlarla uyuşdum? Uyuşdum yox e, dostlaşdım, mehribanlaşdım, eyniləşdim...

– Nə olar ki? Dostlaşmısan, dostlaşmısan da. Dostlaşmaq bəyəm pis işdir?

– Demirəm ki, pisdir. Məsələ onda deyil. Mən onlara alışdım. Başa düşürsən, meyillərinə, həvəslərinə, sözlərinə, zarafatlarına, ibarələrinə. Özlərinin, arvadlarının, uşaqlarının ad günlərinəcən əzbər bilirəm. Mövqelərinə də bələdəm, məclislərinə də, tostlarına, tamadalarına... əh!

– Yəni belə pis adamlardır?

– Eh, sən nə yapışmısan: pis-pis! Heç nə başa düşmürsən. Pis adam. Yaxşı adam! – əlini başına apardı, küləyin dağıtdığı saçlarını səliqəyə salmağa başladı, – dünyada nə pis adam var, nə yaxşı adam. Ömür elə uzun çəkir ki, ancaq pis olmağa, ya ancaq yaxşı olmağa heç kəsin həvəsələsi çatmır. Görürsən biri həyatı boyu gah yaxşı olur, gah pis...

– Yox, baxma, yenə adamdan adama təfavüt var. Məsələn, tutaq ki, Dadaş necə adamdır?

Güzgüdə baxışları toqquşdu.

Təhminə güldü:

– Ay vələdüzzina, məndən söz almaq istəyirsən?

Zaur:

– Yox, – dedi, – mən camaatın şəxsi işinə qarışmaq istəmirəm.

Təhminənin baxışında əvvəlcə təəccüb oxundu, sonra nəyisə anlamış kimi:

– A, belə de, – dedi, ciddiləşdi və əlavə etdi: – Bax, bir şey məni çox maraqlandırır. Hamı elə bilir ki... – bir an tutuldu, qısa tərəddüddən sonra davam etdi. – Mən Dadaşın aşnasıyam. Çox yaxşı, indi məni maraqlandırır görüm, sən bu barədə nə fikirləşirsən? Bax, sən Zaur Zeynalov.

Zaur:

– Zeynallı, – dedi, – mən? Nə bilim, mənə elə gəlir ki...

– *Sən özün də dedin ki, mən dünya gözəliyəm. Çox yaxşı. Deməli,* istəsəm yüz sənin kimi cavan oğlan başıma fırfıra kimi fırlanar.

Zaur kəskin ədayla:

– Fırlansınlar da!

– Oho, damağına dəydi. Yaxşı, yüz yox, on, beş. Yaxşı, səndən bircə dənədir, bax, elə sən özün. Məndən xoşun gəlir, eləmi?

Zaur:

– Elədir, lap elədir, – dedi və əsəbi hərəkətlə qazı basdı. Maşın zəncirdən açılmış kimi irəli cumdu.

– Yaxşı, yaxşı, sakit ol. Dediyim odur ki, Dadaş mənim nəyimə lazımdır? Keçəl, yekəqarın, yekəburun, qoca. Ondan bir keçəcəyim, bir təmənnam da yoxdur. Müdirimdir. Çox olsun lap bəd başına məni işdən çıxartdıracaq, yəni bir yerdə bir parça çörək qazana bilməyəcəyəm? Siqaret ver görüm...

Yandırdı.

– Ay sağ ol. Məsələ ondadır ki, Dadaş özü də bunu başa düşür, hərif deyil. – Tüstünü halqa-halqa maşının tavanına üfürdü. – Dadaş barmağının ucuyla da mənə toxunmayıb. Yəni onda bir toxunası hal da yoxdur. Hay-hayı gedib, vay-vayı qalıb, – güldü, – amma burda bir məsələ var. Dadaşa şayiə, söz-söhbət lazımdır. Çünki o yaşda, o ağızburunda mənim kimi cavan, gözəl bir arvadın adamı olmaq onun başının ucalığıdır.

Yolun kənarında bir neçə nəfər dayanmışdı. "Moskviç"i görüb əllərini qaldırdılar. Maşın yanlarından ötüb keçəndən sonra arxadan qışqırışdılar.

– Məndən nə gedir? İndi ki bundan Dadaşın könlü xoş olur, qoy olsun, qoca kişidir.

– Düz demirsən. Mən eşitmişəm ki, söz düşəndə Dadaş həmişə bu şayiəni danır.

– Ay allah, nə yaman uşaqsan sən hələ! Əlbəttə, danacaq. O vaxt ki, bu şayiə yox idi, onu yaratmağa cəhd edirdi. Bəli, bəli, bu fikir onun özündən başqa heç kəsin ağlına gəlmirdi. Özü başladı belə rəy yaratmağa. Əlbəttə, çox ustalıqla, altdan-altdan. Nə bilim işdən bir yerdə çıxmaq, məni ötürmək, ikibaşlı sözlər, mənalı baxışlar. Məsələn, otaqda mənimlə qəsdən sırf rəsmi danışırdı. Çöldə-bayırda, dəhlizdə isə tutub uzun-uzadı söhbət edirdi. Özü də xısın-xısın, pıçıltıyla. Hamı da görür axı. Deyirlər, balam, bu nə söhbətdir ki, otaqda hamının yanında eləmirlər; xəlvətə çəkilirlər? Sonra başqa şeylər də vardı. Məsələn, bax belə xırda təfərrüat. Axşam bizə zəng eləyir, mənimlə, Manafla danışır. Görürsən, deyirəm ki, xəstəyəm, bəlkə sabah işə gələ bilmədim. Bəli, səhər, idarədə bunu belə xüsusi cür xəbər verir: Təhminə bir balaca kefsizləyib, bu gün işə gəlməyəcək.

Yaxşı, sən də sözbazlıq eləmə də, burada nə var ki?

– Başa düşmürsən? Guya bu məlumatı sadəcə telefonla almayıb, hamıda belə təsəvvür oyanır ki, guya bu nə isə yaxın, məhrəm adamdır, bir sözlə, ev adamıdır. Ailənin içindən gəlib işdə xəbər verir. – Susdu və bir qədər əsəbi əlavə etdi: – Təhminə işə gəlməyəcək. Guya başqası bunu zəng eləyib bilə bilməzdi. Kibriti ver görüm. Sönüb. Aha... Hə, sonra ki, başladı söz-söhbət, eyhamlar, onda da arifdi, başladı danmağa, özü də elə can-başla danmağa başladı ki, yatanları da ayıltdı. Çox vaxt görürsən, özü bu söhbəti heç eşitməyənlərə eşitdirirdi: *oşşi mənimçün söz çıxarıblar, yaxşı deyil, qızım yerindədir; gedər* ərinə çatar, duz-çörək kəsmişik, filan-peşməkan. Deyərsən daha bundan namuslu adam yoxdur, – istehzayla əlavə etdi, – qeyrət dağarcığı, – susdu, sona yenə sözünə davam etdi. – Hə, belə-belə hamıda fikir oyandı ki, bəli, burda mütləq bir iş olmamış deyil. Mən də qaldım gic vəziyyətdə. Hər sözümü, hər hərəkətimi başladılar müəyyən yerə yozmağa. Dadaşa mehribanlıq da göstərsəm, etinasızlıq da, heç fərqi yoxdur. Hər şeyi bir cür başa düşürlər.

Birdən nədənsə Zaurun Təhminəyə yazığı gəldi. Düşündü ki, bütün bu yüngülməcazlığına, əzilib-büzülməsinə baxmayaraq, yəqin, onun da öz dərdi-səri var.

Təhminə:

– Əlbəttə, – dedi, – mən də istəsəm, yüz cür kələk qurub işin içindən çıxaram. Məsələn, bəd ayaqda adımı bir başqasıynan çıxardaram. Dadaş da qalar qurumsaq kimi baxa-baxa.

Qəfildən maşının güzgüsündə gözləri Zaurun nigaran baxışlarıyla haçalandı, bir an içində şıltaq bir fikir beynindən keçdi.

– Məsələn, – dedi, – şayiə buraxardım ki, sənlə sevişirəm. Hamı da *inanardı, çünki, maşallah, şəkil kimi* göyçək oğlansan, özün də subay, – şaqqıldadı, – bura bax, yoxsa elə bilirsən sənlə plyaja getməyə də onunçün razı oldum, məqsədim var, hə? Düzünü de, sən allah, elə fikirləşirdin?

– Arvad deyilsən sən, şeytansan, şeytan.

– Nə olar? Qoy şeytan olum. Bir var dəli şeytan. Mən də dərdli şeytanam.

– Nədir axı sənin dərdin, Dadaş?

Təhminə bu sözləri də qulaqardına vurdu, cavabsız qoydu.

– Bəli, çox şey edərdim, – dedi, – etmirəm, çünki mən adamların hamısını başa düşürəm. Bilirəm bu dünyada kimə gərək olan nədir. Dadaşa ancaq vur tut quru söz-söhbət lazımdır. Necə deyərlər, ocağın tüstüsü. Nə olar, qoca kişidir, qoy könlü xoş olsun. Məndən nə gedir?

– Necə nə gedir? Bəs, adına ləkə gəlmir?

– Əzizim, – dedi, – adlarına ləkə düşməkdən qorxan bilirsənmi kimlərdir? O adamlardır ki, təmiz elə bir adlarıdır, özləri çoxdan çirkab içindədirlər. Ona görə də ancaq quru adlarını qoruyurlar. Aman günüdür ləkə düşər. Əgər mən özümü ləkəli bilmirəmsə, adamlar adıma nə ləkə vurur-vursun vecimə deyil.

– Bəs, Manaf da belə duşünür?

– O...mənim ərim ayrı oğlandır. Dünyada tayı-bərabəri yoxdur. Deyir ki, ürəyim buz kimidir, arvadımdan arxayınam. Təhminə aydan arıdır, sudan duru, intəhası, gözəldir. Gözələ həmişə söz qoşarlar, o qədər paxıl gözügötürməyən var ki... Düz demir, sən allah?

– Nə bilim, yəqin düz deyir də.

Təhminə rişxəndlə ona baxdı.

– Elə bilirsən dediyinə özü inanır? Qəlbinin dərinliyində bilir ki, *mən onu sevmirəm, deməli*, ona sadiq də deyiləm. Ancaq bu fikri beynindən rədd edir, bu barədə düşünmək belə istəmir. Amma orda, lap, lap ürəyinin dibində, barmağını Zaurun köksünə sarı uzatdı, – bax burda bir quyu var ha, onun lap dibində, özünə belə təsəlli verir ki, nə olsun, mən də Təhminəyə xəyanət edirəm. – Təhminə bərkdən güldü. – Amma məndən beşbetər aşnaları bir ifritə bədəncərədirlər, gəl görəsən! İkisini mən tanıyıram. Biri Bakıdadır, biri Tiflisdə. Kişinin oğlu mecduqorodnı Don-Juandır. Yəqin Moskvada da adamı var, amma mən tanımıram. Hər halda tez-tez bəhanə tapıb cumur Moskvaya. Odey, indi də bir aydır Moskvadadır. Deyəsən, günü pis keçmir. Tezliklə qayıtmaq fikri yoxdur.

Laqeyd, tənbəl hərəkətlə maşının güzgüsünü özünə tərəf çevirdi, dodaq boyasını çıxarıb dodaqlarını boyamağa başladı. O, solğun boyaları sevmirdi, həmişə dodaqlarına al-qırmızı rəng çəkir, özü də boyanı dodağına elə sıxırdı ki, dodağı qat-qat boyanırdı. Boyanı bağlayıb balaca çantasına qoydu.

– Amma zövqü bir şey deyilmiş. Bilmirəm heç məni necə bəyənib. Bakıdakı dəhrəcanlı bir şeydir, dam boyda. Tiflisdəki də dəmbərəgöz, Allah göstərməsin.

Zaur:

– Sən də bütün bunlardan belə sakit danışırsan, – dedi və öz sualından özü utandı. – "Deyəsən, hansı əsrdə yaşadığını unutmusan, Zaur kişi" – deyə düşündü.

– Eh, mənə nə! Od ver görüm. Sağ ol. Birinci dəfə eşidəndə pis oldum. Sonra adət etdim, laqeydləşdim. Ən ləzzətlisi də odur ki, elə bilir mənim heç nədən xəbərim yoxdur. Gəlir, belə ciddi tonla "sovnarxoza çağırmışdılar" – deyir. – "Tiflisə bir həftəliyə ezamiyyətə göndərirlər". Mən də bilirəm axı, işdən öz hesabına bir həftəlik məzuniyyət alıb. "Sabah gedirsən? – deyirəm, – yoluna nə hazırlayım?" Bəli, Tiflisdə də şıdırğı hazırlıq gedir. Bir nəfər var, mənə danışıb. Deyir arvadın ayrıca mənzili var, iki otaq. Manaf teleqram vuranda ki, bəli gəlirəm, otaqlara xüsusi xəli döşənir, döşəkçələr, mütəkkələr düzülür, kişinin oğlu keçmiş xansayağı kef eləyir. Sonra...

Zaur çevrilib Təhminəyə baxdı. Təhminə tuşla çəkilib uzadılmış kirpiklərini qaldırdı. Birdən Zaur onun gözlərinin lap dibini gördü. Səhrada qəflətən qum axıb-çöküb quyu açılan kimi, Təhminənin gözlərində nə isə uçub-dağılmışdı, gözlərinin lap dibində, bəlkə də dibsizliyində nə isə zil qaranlıq bir lağımın ağzı açılmışdı. Qəlbin gizlinlərinə açılan bir lağım, uçuruma aparan bir yolun ağzı.

Zaur:

Lazım deyil, – dedi, – danışma. Keç ayrı söhbətə.

– A... belə de. Bu cür söhbətlər sənin zərif qəlbinə toxunur. Bəs, özünü elə göstərirdin ki, müasir oğlansan, həyatın hər üzünü görmüsən, dəyirmanın bu başından girib o başından çıxmısan, – gözlərini qapamadı, amma gözlərinin içindəki quyunun ağzı tutuldu, gözləri yenə də həmişəki kimi şıltaq və işvəkar, şux və işıqlı idi, – nə oldu, xoşun gəlmir belə söhbətlərdən? Həyatdır da bu, oğlum, həyat demirsən, qulaq as!

– İstəmirəm. Bu həyat deyil, həyatın astarıdır. Mənim belə söhbətlərdən xoşum gəlməz. Görürəm sonınçün danışmaq ağırdır, danışma, nə vacib olub...

– Ağırdır? Əksinə. Ağır neçin olur? Ağır-zad deyil. – Uzun zaman yola baxdı, sonra, – mən Manafı başa düşürəm, – dedi, – cavanlıqda çətin dolanıb. Ailə saxlayıb. İndi, necə deyərlər, bolluğuna düşüb. Yaşı keçdikcə cavanlıqda ötürdüyü dəmlərin əvəzini çıxmaq istəyir. Dünyada ən yaman dərd görməmişlikdir.

Siqaret tüstüsündən boğuldu. Bir xeyli öskürdü. Sonra birtəhər sakit oldu.

– Tiflisdən gələndə də yoluna yemək qoyurlar, – dedi, – qab-qacağı bilmirəm gizlədir, ya atır. Bir dəfə, bilmirəm, içmişdi, ya kef başına vurmuşdu, çaşıb evə Asyanın qab-qacağını gətirmişdi. Tiflisdəki arvadın adı Asyadır. Belə göy kasa idi. Noxud-noxud ağ naxışlı. Mən də götürüb gizlətdim. Gələn səfər Tiflisə gedəndə yeməyini o kasaya qoydum. Elə bilirsən, başa düşdü?

– Deyirsən iki evin qab-qacağını əzbər bilsin?

– Yox, heç olmasa Asya xanım onu başa salaydı.

– Nə bilirsən, bəlkə Tiflisə çatanda da sənin qab-qacağını gizlədir?

Təhminə şaqqıldadı.

– Bax, bu, mənim ağlıma gəlməmişdi. Yox, bala, gələcəyin parlaqdır, – sonra çılğınlıqla əlavə etdi: – Dünyada ən çox acığım gələn şey riyakarlıqdır, bir də yalan...

Zabratın yanından Pirşağı yoluna buruldular. Avtobus dayanacağında bir kişi uzaqdan "Moskviç"i görüb əl qaldırdı.

– Saxla götürək onu.

– Bir o çatmırdı.

– Xahiş edirəm saxla. Yoxsa bütün söhbətlərimiz qurtardı, danışmağa sözümüz qalmadı, heç olmasa saxla görək nə istəyir.

Zaur ayağını əyləcə basdı. Maşın sürüşüb dayandı.

Kişi sadə kəndli geyimində idi. Yanında çarşablı bir arvad da vardı. Maşın dayanan kimi kişi zənbilini qapıb maşına tərəf gəldi.

– Qardaş, – dedi, – Pirşağıyacan apararsan bizi?

Təhminə:

– Gəl aparaq, – dedi, – gör nə yorğundurlar.

Zaur:

– Yaxşı, oturun, – dedi.

Kişi arvada əl elədi. Sonra ucadan qışqırdı:

– Bəri gəl, Əlmərdan.

Dayanaq köşkünün altından ucaboylu bir oğlan çıxdı. Axsaya-axsaya maşına tərəf gəlməyə başladı:

Zaur:

– Ancaq iki yerim var, – dedi və Təhminəyə tərəf dönüb əlavə etdi. – Ya moqu vzyat tolko dvoix. Vstretiş qaişnikov, nepriyatnostey ne obereşsya. Hara gedirsən, bunlar kimdir? Özün bilirsən də... budut spraşivat i o tebe.

Oğlan axsaya-axsaya gəlib maşına çatdı.

Zaur:

– Əmi can, – dedi, – iki yerim var. Ancaq ikiniz otura bilərsiniz.

– İkimiz? A bala, bəs bu üçüncü yoldaşı neyləyək?

– Üçüncü kimdir?

– Üçüncü? Gözümün ağı-qarası. Bircə oğlum. Gedib şəhərdə imtahanlarının hamısını beşə verib. Boyuna qurban olum onun.

Zaur əllərini yellədi.

– Təbrik edirəm, – dedi, – gözünüz aydın. Ancaq... daha neyləyək, yerimiz ikidir.

Əlimərdan:

– Dədə, ay dədə, – odey, bax avtobus gəlir...

– Ay səni xoşxəbər olasan. Əşi, bir saatdır gözləyirdik. Oğlum, bağışla, sizi də yoldan elədik.

– Allah bağışlasın.

"Moskviç" hərəkətə gəldi, uzaqlaşıb getdi.

Təhminə:

– Radio işləyir? – dedi, – bir şey tut.

– Hələ tezdir. Bir azdan...

Şlaqbaum lap "Moskviç"in burnunun qabağında endirildi. Maşın yerə mıxlanmış kimi dayandı. Dəmir yolunun o biri tərəfində də iri yük maşınları dayanıb gözləyirdi. Təhminə:

– Bilmirəm niyə, – dedi, – axır vaxtlar tez-tez yuxumda şlaqbaum görürəm. Zol-zol şlaqbaum.

Zaur:

– Səndən də sözlər çıxır a, – dedi, – adam da yuxuda şlaqbaum görər?

Deməli, görərmiş də ki, görürəm. Əvvəllər həmişə yol görərdim. Uzun-uzadı yol. Getdikcə gedirsən, getdikcə gedirsən. Heç hara da gəlib çıxmırsan. İndi də şlaqbaum görürəm.

Uzaqdan qatar göründü. Yaxınlaşdı, hay-küylə keçib getdi. Səs-küy içindən Təhminənin sözləri qırıq-qırıq eşidildi:

Görürəm... haçan... zolaq...

Yol gözətçisi qalın məftilli hərləngəci fırlatmağa başladı, şlaqbaum yuxarı qalxdı.

Hər iki tərəfdə dayanmış maşınlar irəli cumdu. Zaur "Moskviç"i qabarıq relslər üstündən ehmallıca keçirdi. Maşınsız yola çıxıb sürəti artırdı. Külək pəncərələrdən içəri doldu.

Təhminə:

– Üçüncü! – dedi. – Fikir verdin? Yaxşı sözdür, hə? Bayaqdan bəri fikirləşirəm. Bundan yaxşı söz tapmaq çətindir, hə? Nə qədər məna var bu sözdə?

Hansı sözdə?

Suala cavab vermədi.

– Həyatın mənası da elə budur da!

– Xeyir ola, yenə həyatın mənasından dəm vurursan? Yoxsa, sənin də könlünə filosofluq düşüb?

– Bəs, nə bilirdin? Bilmirsən ki, mən filosofam, diplomum da var hətta? Fəlsəfə fakültəsini qurtarmışam.

– Yox əşi... Yatsam yuxuma da girməzdi.

– Sən ki yuxu görmürsən.

– Görsəm də, görməsəm də, hər halda heç təsəvvür eləyə bilməzdim ki, sən filosofsan.

– Niyə? Fəlsəfə hara, mənim kimi yelbeyin hara, hə?

– Yox, mən elə demək istəmirdim. Amma, ümumiyyətlə, mənə elə gəlir ki, fəlsəfə arvad işi deyil.

– Yox, əzizim, əsil elə arvad işidir. İntəhası kişilər fəlsəfəni kitablardan çıxarırlar, arvadlar qarınlarından. Bağışla a, deyəsən bir az kobud çıxdı... Xətrinə dəymədi ki... Sən geofakı qurtarmısan da?

– Bəli.

– Diamat keçmisən?

– Keçmişəm.

– Bilirsən tezis, antitezis, sintez nədir?

– Məni imtahan eləyəcəksən?

– Yox, bir fikir ver. Birinci tezis, həmi? İkinci, onun əksi antitezis. Üçüncü ikisinin sintezi, hə?

– Yaxşı, nə olsun?

– O olsun ki, bax, uşaq da üçüncüdür – sintez. Qadın tezisdir. Kişi antitezis. Uşaq sintez. Bax, mən tezisəm, sən antitezissən... – qəfilcən susub dayandı.

Zaur: "İşə düşmədik, – deyə düşündü, – heç bilməzdim ki, belə səftərəngidir. Sən tezis, mən antitezis, uşaq sintez. Bircə uşaq çatmırdı..."

– Heç fikirləşmisən ki, dinin də, fəlsəfənin də, cürbəcür etiqadların da əsasında üç rəqəmi var? Çünki həyat elə bu üçlük deməkdir. Üçüncü – uşaq deməkdir, nəticə, çıxış, yol, mənа, məntiq deməkdir. Son deməkdir. Bəlkə elə ona görə də uşağı olmayan adama sonsuz deyirlər. Sonsuz! Dəhşətli sözdür, eləmi?

– Yaxşı, bu qədər "uşaq, uşaq" deyirsən, bəs, özünün niyə uşağın yoxdur?

– Mənim? Ha, ha, ha. Mənim ha? Əzizim, bütün bu dediklərim nəzəri mülahizələrdir. Dəliyəm ki, uşağım olsun? Dünya beş gündür, əzizim, gəz, dolan, kefini çək.

– Manaf da belə deyir?

– Manaf? Yox, Manaf yəqin istəyir. Kişilərə nə var ki? Onlara nə əziyyət düşür? Amma, bəs, mən yazıq deyiləm ki, cavan ömrümü uşağın cığ-vığında çürüdüm? Yox, əzizim, uşaq saxlamaq, böyütmək mənim təbiətdə adamçün deyil. Odur qonşumuzda bir arvad var, Mədinə. Görürəm də, uşaq dığ eləyib onu, canını boğazına yığıb. İndi üç yaşındadır. Arvada göz verir, işıq vermir. Əri də yazığı atıb gedib.

– Atıb gedib?

– Hə. Elə birinci il. Uşaq olandan altı ay sonra. Bir yandan namərdlikdir, bir yandan baxanda da, yazıq başını götürüb qaçıb. Uşaq aman vermirdi ki... Sutkada 24 saat ağlayırdı.

Aralığa yenə sükut çökdü. Dəniz hələ görünmürdü. Amma elə bil nəfəsi, havası, iyi duyulurdu.

– Uşaq olmamışdan kişi lap Mədinəni divara çıxardırmış ki, bəs, uşaq istəyirəm. Sonra bir gün Mədinə deyib ki, hamiləyəm. Kişinin az

qalıb ürəyi getsin. Başlayıb şadlığına şitlik eləməyə. Səhərisi gün qoyun kəsdirib. Mədinə deyir ki, doqquz ay başıma pərvanə kimi dolandı. Deyir, gəlib qulağını qoyardı qarnıma, qulaq asardı, görsün nə eşidir; uşaq hərəkət eləyir, yoxsa yox. Diqqətlə, deyir, qulaq asırdı, dəqiqələrlə. Lap saatsaz saata qulaq asan kimi, – adəti üzrə yenə qəfilcən susdu, söhbətini yarımçıq kəsdi. Baxışları yenə də maşının güzgüsündə toqquşdu. Təhminənin gözləri uzaqlaşmışdı. Harasa çox-çox aralı bir aləmə çəkilmişdi. Susması kimi yenidən danışmağa başlaması da qəfil, gözlənilməz oldu, – axı mənim atam saatsaz idi. Yadımdadır, xarab saatları gətirərdi. Düzəldərdi, sonra qulağına qoyub dinlərdi. Tam dəqiq işləyib-işləmədiyini səsiylə təyin edərdi. Bax, o kişi də arvadının qarnına belə qulaq asarmış. Bir kinoda görmüşəm, kəndçilər də torpağa elə qulaq asırlar. Gördüm, lap atam yadıma düşdü. Geoloqlar da bəzən yerə qulaqlarını qoyurlar. Düzdür, hə, axı, sən geoloqsan?

– Hə, düzdür.

– Yaxşı, bəs geoloq dağda-daşda olar, sən nəşriyyatda niyə işləyirsən?

– Bu, uzun söhbətdir. Sonra danışaram... Demәli, kişi arvadının qarnına qulaq asıb-asıb, nə eşidibsə qaçıb gedib.

– Yox, uşaq olandan altı ay sonra getdi. Dedim ki, bayaq sənə.

İndi dənizin nofosi, havası lap aydın duyulurdu.

– Bilirsən, Mədinə danışır ki, hamilə vaxtı adam içəridən uşağın istisini hiss edir... Elə bil qarnında soba gəzdirirsən.

Zaur:

– Personalnaya peredvijnaya peç, – dedi, – zapas batarei 9 mesyatsev.

– Gülmə. Gör bir sənə bu gün nə qədər bilik verdim.

– Xüsusilə ginekologiya mamaçalıq cəhətdən. Sabahdan rahat gedib doğum evində işləyə bilərəm.

Əlini uzadıb radionu qurdu. "Araz" proqramının çağırtısı eşidildi. Sonra qadın diktorun səsi gəldi:

– Danışır Bakı! Yerli vaxtla saat 17-dir. Son xəbərlər. Nyu-York. Birləşmiş Millətlər Təşkilatının təhlükəsizlik şurası səhər iclasında...

Təhminə əlini uzadıb radionu keçirdi.

– Bilirsən, mən həmişə nə fikirləşirəm. Amma gülmə. Bax, uşaq dünyaya gələn kimi ağlayır. Hə? Görəsən bəs ana bətnində də ağlayır?

Zaur cavab vermədi. Çönüb Təhminəyə baxdı, başını buladı.

Təhminə hırıldadı:

– Təsəvvür eləyirsən? Küçədə arvad gedir, qarnı burnunda. Öz qarnını sığallayır, "ağlama, bala, – deyir, – ağlama, ağlama" – əlləriylə qulaqlarının ucunu dartdı, – Allah göstərməsin, – dedi, – Allah göstərməsin!

– Olmaz keçəsən ayrı söhbətə?

Ayrı söhbətə? Yaxşı, bu saat sənə gülməli şey danışacam. Mədinə ərindən ayrılandan sonra...

– Yenə Mədinə?

– Yox, dayan, indi ayrı şey danışıram. Kişi Mədinədən ayrılanda, demәli, otaqları böldülər. Biri qaldı Mədinəyə, biri – kişiyə. Sonra kişi dəyişdi, amma bir müddət qonşu oldular. Hə, Mədinə danışır, deyir bir gün Rafiqi yatızdırmışam, yaydı, çıxmışam şüşəbəndə, oxuyuram özüm üçün. Yaman deyib-gülən, çalıb-oynayan arvaddır. Ölmüşün yaxşı da səsi var. Hə deyir, oxuyuram, o mahnı var e, "Ətrini yastığından alıram, sənsiz?" Bəli, oxuyuram, getmişəm özümə, bir də görürəm o biri otaqda kişi pəhəpəh bərk boğazını arıtlayır. Dayandım, fikirləşdim, dedim ağrım ürəyinə, sonra elə bilər onunçün oxuyuram, onun ətrini yastığından alıram. Külbaş həmişə tənbəki iyi verərdi. Ay sən öləsən, dedim, yalansa səni görüm torpaq səndən hündür olsun! Nə uzadım, deyir, getdim, evdə nə ki balış vardı, hamısının üzünü çıxartdım, yudum, sərdim eyvandan, lap qapısının ağzından. Niyə gülmürsən, gülməli deyil?

– Əcəb arsız arvaddır!

– Yamanca arsızdır. Görürsən deyir ərindən, kişini yaş yuyur, quru sərir, söyür, nə bilim qarğayır, ağlayır, sonra başlayır oğlunu öpməyə, dişləməyə, deyir qurban olum buna, ər nəyimə lazımdır, atam da budur, qardaşım da, ərim də. Bir də görürsən gözlərinin yaşı qurumamış götürdü uşağı, düşdü ortalığa, başladı süzüb oynamağa.

Zaur:

– Bu da dəniz, dedi.

Hələ çəkilib bitirilməmiş rəsm kimi idi dəniz. Elə bil rəssam kətana yalnız bir neçə cizgi çəkmişdi – sahilin köbəri, üfüq xətti, nöqtə-nöqtə qayalar. Vur-tut ikicə də rəngə əl atmışdı: maviyə, səma və dəniz üçün, bir də sarıya, sahil qumları üçün. Elə bil seyrək kətanın üstündə hələ çəkiləsi çox şey vardı. Səmaya pərən-pərən buludları,

dənizə köpüklü dalğaları əlavə etmək olardı. Göydə qağayılar çəkmək olardı, yerdə əlvan köşklər, suda ağ yelkənlər. Sahildə, dənizdə adamlar çəkmək olardı. Ancaq hələ heç biri çəkilməmişdi. Nə dalğalar vardı, nə yelkənlər, nə qağayılar, nə də adamlar.

– Bax, bu yol Pirşağıya gedir, ancaq sən bu yana burul, aha, bax belə, indi tut bu yolun ucundan, sür. Gedib mən deyən yerə çıxacaqsan.

Maşın torpaq yolla atılıb-düşməyə başladı.

– Hələ çox gedəcəyik?

– Gəlib çatdıq. Saxla.

Dişdəm-dişdəm qayalar bu plyajı sahilin o biri sahələrindən ayırırdı. Bura lap xəlvət yer idi. Təpə tənha. Torpaq yol da gəlib qumlarda itirdi.

Maşını saxlayıb qumluğa düşdülər. Təhminə ayaqqabılarını çıxarıb əlinə götürdü. Ayaqlarında narın qumların xoş qıdığını duyanda elə bil vaxt uzaqlarında qalmış qərib bir diyara – uşaqlıq diyarına düşdü. Boğazında qəhərlənən ilıq, sentimental bir dalğadan boğulacağından qorxaraq, dərhal özünü ələ aldı, bütün oyanan, baş qaldıran xatirələri süpürüb atdı.

– Çantanı bəri ver, – dedi. Arxa pəncərənin qabağında fotoaparatı görüb bu mövzudan yapışdı. Uşaqlıq diyarından qaçdı.

– Sən foto çəkirsən?

– Hərdən-birdən. Aparat çoxdan yadımdan çıxıb maşında qalıb.

– Götür, şəklimi çəkərsən.

"Yox, əzizim, keçəl suya gedən deyil, – deyə Zaur düşündü.– Zaur kişi lap sən deyən uşaq deyil, şəkil sənəddir. Mənim də belə-belə sənədlərdən xoşum gəlməz".

Ləpədöyənə çatdılar. Zaur əlini suya vurub:

– Qiyamət sudur – dedi və soyunmağa başladı.

Mis kimi qaralmış bədəni boynundan topuqlarınacan əzələ idi. Hər hərəkətində əzələlər oynayırdı. O özü də bu əzələ oyunundan və oyunun yaratdığı mənzərədən həzz alırdı.

– Bəs niyə soyunmursan?

– Mən hələ çimmirəm.

– Niyə?

– İstəmirəm.

Elə qəti səslə dedi ki, Zaur inad eləmədi. Əllərini torpağa qoyub, iki dəfə mayallaq aşdı. Bir neçə kərə tullandı, əl-qol atdı. Sonra dənizə cumdu.

Bayaqdan bəri gözlərini ondan çəkməyən Təhminə paltarını soyunmadan dənizin içinə girdi, su dizinə qalxanacan irəlilədi.

Zaur bir-iki dəfə suya baş vurdu. Həftənin, işin, yolun ağırlığı qat-qat, qabıq-qabıq canından çıxırdı. Suyun üzdə yuxu kimi ilıq, dərində soyuq axını dərisini oxşayır, əzələlərinin gərginliyini boşaldır, əsəblərini sakitləşdirirdi. Nənəsinin sözü yadına düşdü. "Xalçanı yatımına görə sığallayarlar". Elə bil dəniz onu yatımına görə sığallayır, oxşayır, dincəldirdi.

Üzüb uzaqlara getdi, sahil kiçildi, maşın sarı fonda yaşıl ləkəyə çevrildi. Təhminə görünməz oldu. Su boy vermədi. Dənizin əzəmətli hüdudsuzluğu, ləpəsiz hamarı, dəniz sakitliyinin baş gicəlləndirən ahəngi bir an vahimə kimi onu basdı, eyməndirdi.

Lakin dərhal özünü topladı. Uzun illərin idman məşqlərini, üzgüçülük məharətini xatırlayıb rahatlaşdı, toxtadı. Bildi ki, bu hiss, su boy vermədiyindən, bir də dənizin aram ləngərindən oyanır. Qollarını açdı, dənizin üzündə xaçvarı uzandı. Göyü gördü. Hardansa gəlib keçən seyrək buludlara baxdı.

Təhminəni düşündü. Onun qənirsiz gözəlliyini, boyalı dodaqlarını, sürməli gözlərini, uzun ayaqlarını. Gülüşündəki, səsindəki, qoxusundakı qadın cazibəsini. Xasiyyətindəki qəribəliyi, pərakəndəliyi, söz-söhbətinin dağınıq məntiqsizliyini...

İstədiyi və isindiyi başqa qadınları xatırladı və etiraf etdi ki, hələ heç birisi onu bu dərəcədə cəzb etməyib. Sövqi-təbii, ancaq qəti bir arxayınlıqla bilirdi ki, özü də Təhminənin xoşuna gəlir. "Yaxşı, bəs, beləysə, biz sadəcə, bir-birimizin ola bilmərikmi? Bəs nə üçün bu təbii, insani istəyə mütləq cürbəcür don geyindirmək lazımdır – nə bilim hiss, duyğu, məhəbbət, intizar, nə bilim daha nə cür təmtəraqlı, boş-boş bekara sözlər. Nə üçün, axı nə üçün bu qədər yersiz hədər, havayı söz demək lazımdır? Nə üçün bu qədər danışmaq lazımdır? Əgər biz hər ikimiz bunu istəyiriksə, bu olmalıdırsa, mütləq olacaqsa, bütün bu sözlər, nə mənim, nə də onun inanmadığı sözlər, duymadan, istəmədən kimə lazımdır? Mənə yox, ona yox. Bəs kimə? Burada bizdən başqa kim var ki? Heç kəs... Ancaq yenə də nə mənə, nə də ona lazım olan sözlər deyilməlidir, sanki burda kimsə, başqa bir görünməz var, onun xatirinə, onun başını tovlamaq üçün. Nə qəribə! Bəlkə bu da bir dəbdir, adət-ənənədir?

O, Təhminənin bütün yoldakı danışıqlarını da bax elə bu dəbin nömrələri sayırdı. Gərək mütləq əvvəl-əvvəl o yandan-bu yandan,

konar-kənar işlərdən danışasan, göstərəsən ki, yox heç vəchlə ola bilməz ki, mənim fikrimdə bir cə o məsələ olsun. Yox, yox, əksinə, bu heç mənim ağlıma da gəlmirdi. Sən nə danışırsan? Yox, yox... Ay-hay! Bu yalan, riyakarlıq kimə gərəkdir? Dedim ki, gedək plyaja ikimiz, ha, bax mən o sözləri deyəndən, sən razılaşandan indiyəcən bütün keçən vaxt ərzində, nə danışırıq danışaq, ikimizin də fikrində bir budur. Sənin də, mənim də. Yaxşı bəs bütün uzun müqəddimələr, uvertüralar, bu cürbəcür don geyindirmək komediya deyil, nədir?

Heç olmasa mənimlə dənizə girəydi. Bəlkə dənizdə adam yarımçılpaq olanda, sözlərə, istəklərə də don geyindirib bəzəmək lazım olmur. Bəlkə dənizdə bu boş sözlərsiz də keçinmək olar. Deyordim, gəl sənə üzmək öyrədim, toxunardım, qucaqlardım, sinəmə sıxardım. Vəssalam.

İndi sahildə gərək bütün mərhələləri keçəsən. "Saçların nə gözəldir, qoy sığallayım, bəli, əlini saçına çəkirsən, sonra boynuna, sonra birdən qəfilcən, guya ki, coşub qucaqlayırsan, bəli, ehtirasın aşıb-daşıb, sonra... tfu!

Sahilə tərəf üzməyə başladı. Təhminə görünmürdü. Sahilə çıxdı. Boylandı. "Bəli də, işimiz var!" Bərkdən çağırdı:

– Təhminə!

- Burdayam.

Başını qaldırıb qayanın zirvəsində Təhminəni gördü.

– Ehtiyatlı ol, yıxılarsan!

– Qorxma. Aparatı götür. Çok mənim şəklimi bax burda.

– Yaxşı.

Aparatı götürdü. Sayğacına baxdı. Lent çoxdan qurtarmışdı.

– Tərpənmə, – dedi, sakit dayan. - Aha, oldu.

– Belə də çək. Bax bu cür.

– Yaxşı. Aha. Oldu. Di düş bura.

Təhminə qayaların üstündən keçi kimi tullana-tullana lap aşağı düşdü.

Zaur yerə sərələnmişdi, özünü günə verirdi. Tüklü sinəsi qabarıb-enirdi. Sonra üzüstə çevrildi, torpağa sərilib quyu qazmağa başladı.

Təhminə çantanı açıb yuxa, göyərti, qırmızı turp, ağ pendir çıxartdı. Kiçik salfeti sərdi.

Həmişə kefdə-damaqda yaşayan bu məclislər gözəli elə bir evdarlıqla süfrə açırdı ki, Zaur ona sonsuz bir təəccüblə baxırdı.

– Mən heç bilməzdim ki, səndə belə evdarlıq damarı var.

– Bayaq dedim, yenə də təkrar edə bilərəm ki, sən hələ çox şeyi bilmirsən. Bax, məsələn, bilmirsən, mən bu çantada sənə nə sürpriz hazırlamışam.

Zaurun barmaqları qazdığı quyuda suya çatdı. Başını qaldırıb:

– Nə sürpriz? – deyə soruşdu.

Təhminə cavab vermədən əlini çantanın içinə salladı. Tünd rəngli bir şüşə çıxartdı.

– Moskvadan gətirmişəm, - dedi. – Bir il idi gizlədib saxlamışdım. Sənin qismətin imiş. Fransız konyakıdır. "Kamyu". Düzdür, konyakı belə zakuskayla içməzlər, amma daha keçib.

"Vallah, bəhməz almışam, bal çıxıb, – deyə Zaur düşündü və öz-özünə zarafat elədi. – bax Zaur kişi, almaq-boşamaq söhbəti olmasın".

– Nəyə gülürsən öz-özünə?

– Heç, vallah, Təhminə, səndən bircə dənədir.

Sonra Günəş qürub etməyə başladı. Paslı qürub dənizə də pas saldı. Sonra içdilər. Bir də içdilər. Bir də. Bir də. Sonra ay çıxdı.

Sonra Zaur qolunu Təhminənin boynuna saldı. Təhminə onun qolunu şarf kimi boynundan açdı.

– Dayan, – dedi, – dayan. Sən fotoqrafsan, gərək biləsən, məhəbbət də foto kimi qaranlıqda aşkar olur.

Sonra Təhminə:

– Gəl gecəni burda qalaq, – dedi.

Zaur comisi dörd qədəh içmişdi və düşündü ki, keçən ay iki yüz manat verib "Moskviç"inə ölüm-zülümlə dörd dənə qəttəzə "yaroslavski pokrışka" alıb. Bu çöllü-biyabanda qalsalar, gecə gəlib maşını tamam soyub-talaya bilərlər. Əlbəttə, o, idmançıdır. Ştanqadan dərəcəsi var. İkisini-üçünü şil-küt eləyə bilər. Amma birdən dəstəylə gəldilər, silahla?

Sonra o bir qədəh də içdi və:

– Gözəl fikirdir, – dedi, – qalırıq gecəni burda.

Sonra Təhminə uşaqlığından danışmağa başladı. Üçüncü sinifdə oxuyanda bir rəfiqəsi onu ərlə arvad arasındakı əlaqələrdən, uşaqların doğulmasından agah edib. – Axmağın birisi, – dedim, – sənin öz atan-anan belə cləyir, mənim atam-anam heç vaxt belə iş tutmaz. O, sırtıq-sırtıq üzümə baxdı, güldü: – Axmaq sən özünsən, – dedi. – Bəs, onda sən necə dünyaya gəlmisən, hə, necə? Mən onunla dalaşdım, küsüşdük. Amma düşünüb bildim ki, düz deyir. Cürbəcür şeylər yadıma

düşdü. Neçə gün ata-anamın üzünə baxa bilmirdim. Elə hey soruşurdular ki, qızım, sənə nə olub? Cavab vermirdim. Ürəyimdə deyirdim ki, nə olub, nə olub? O olub ki, sizdən zəhləm gedir, utanmazlar!

Sonra Zaur dedi ki, yenə ər-arvad, uşaq söhbəti salma, içirəm sənin sağlığına.

Təhminə:

– Mən də sənin sağlığına, – dedi, uşaq istəmirəm, ancaq səndən istərdim.

Zaur dedi ki, xeyr, bağışlayacaqsan, sonra əlavə etdi ki, heyif duz yoxdur. Turpu duza batıranda ayrı ləzzətdir.

Sonra ulduzlar çıxdı və Təhminə dedi ki, elə bil göyə duz səpiblər. Duzlayıblar göyü elə bil, duzu sənin üçün səpiblər, batır turpu ulduzlara, ye, Zaur dedi ki, onda ulduzları hər nə istəsən, təsəvvür etmək olar, məsələn, tum.

Təhminə dedi ki, əlbəttə, olar, gəl götürək ulduzları çırtlayaq.

Tamam qaranlıq oldu və Zaur əlini Təhminənin paltarındakı düymələrə atdı. Təhminə onun əlini kənara çəkib dedi ki, dayan, sənə bir nağıl danışım. Zaur da dedi ki, nağıl istəmirəm, səni istəyirəm. Təhminə də dedi ki, elə bu nağıl mənim özüm haqqındadır. Bu nağılı ona nənəsi danışıb, lap çoxdan. Əsliyən Kərəmin nağılıdır. Deyir, toy günü Əslinin atası Əsliyə bir paltar bağışlayır. Bax lap bu mənim paltarım kimi yaxadan dizəcən düyməli. Sən demə bu paltar tilsimlənibmiş. Toy gecəsi Kərəm gəlib bir-bir düymələri açır, axırıncı düyməyə çatanda, bütün düymələr təzədən bağlanır.

Zaur dedi ki, çox sarsaq nağıldır. Kərəm də əfəlin biriymiş, heç vacib deyil ki, axırıncı düyməni açasan.

Təhminə dedi ki, elə əsil sarsaq sən özünsən, nağıl isə dahiyanə nağıldır, özü də lap mənim haqqımdadır. Çoxları elə bilir ki, mənim bütün düymələrimi açıblar, qalır lap axırıncı, mən isə təzədən yaxamacan düymələnib kilidlənirəm.

Zaur dedi ki, zərər yoxdur, açarıq düymələrini.

Təhminə dedi ki, belə sitizə gülmə, sənə yaraşmır, belə güləndə sən də başqalarına oxşayırsan. Amma mən istəmirəm ki, sən onlara oxşayasan. İstəyirəm sən heç kəsə oxşamayasan. İstəyirəm ki, səndən uşağım olsun. Sənə oxşasın, amma sən heç kəsə oxşama.

Zaur dedi ki, əşi, nə uşaq-uşaq salmısan! Belə uşaq istəyirsən təşkil elə də, maşallah ərinə nə gəlib. Yoxsa ərin...

Təhminə qədəhdəki konyakı Zaurun başına tökdü və dərhal peşman oldu. Dedi ki, heyf o konyakdan, sənin boş başına tökülməkdənsə, mənim qarnıma getsəydi daha yaxşı olardı, hər şeyi unudardım.

Sonra Təhminə əyilib onun üzündən öpdü və dərhal kənara sıçradı, – vəssalam, – dedi, – mənə yaxın gəlmə.

Sonra dedi ki, əgər uşaq istəsəydim on səkkiz yaşında olanda doğardım. Dedi ki, on səkkiz yaşında mən uşaq saldırmışam. Dedi ki, bu mənim ilk eşqim idi. İlk və son eşqim.

Sonra Təhminə ilk və son eşqini danışmağa başladı. Dedi ki, on altı yaşında olanda o adama rast gəlib. Onun adını çəkməyəcəyəm. Çünki onu hamı tanıyır, bəlkə elə Zaur da tanıyır. Yox, axmaq, əlbəttə, Dadaş deyil, nə yapışmısan bu Dadaşdan? Dadaş nə zibildir onun yanında? Dadaş onun heç dırnağı da ola bilməz. O, dünyalar gözəli idi, mən onu mələikə, huri-qılman, Yusifi-Kənan, nə bilim, şahzadə, allah, peyğəmbər bilirdim. Onun yolunda hər şeyə hazır idim. Onu görəndə ağlımı itirirdim, öl desəydi ölərdim, qal desəydi qalardım. Bir gün bildim ki, hamiləyəm. Axmaq canım həm qorxudan ödümü udmuşdum, həm də sevinirdim. Getdim ona da dedim, elə bildim o da sevinəcək. Axı, bilirdim ki, uşaqları yaman sevir, özü də deyirdi ki, bu yaxında ev alacam, onda evlənəcəyik. Bax, bu kağız rəngində oldu. – Nə danışırsan, – dedi, ayağıma yıxıldı, yalvarmağa başladı. – Bədbəxt eləmə məni, mənim rayonda ailəm, uşaqlarım var. Apardı məni Ermənikənddə bir həkimin yanına. Saldırdım uşağı. Bu da mənim həyat universitetim idi. Eh, nə isə, gəl içək.

İçdilər, sonra Zaur soruşdu ki, bəs Manaf?

– Eh, nə Manaf! Bilmirəm bu Manaf səni niyə bu qədər maraqlandırır? Manaf kimdir? Mənimçün Manaf bir heçdir, sıfırdır, yoxdur. Odey Tiflisdə arvad-uşağı var, getsin onların yanına.

– Uşağı da var?

– Qızı var. Yeddi yaşında. Bu il məktəbə gedəcək. Çanta-zad alıb ona aparıb. Guya mən bilmirəm. Gizlədir məndən. Vaxtilə Manaf mənim dərdimdən ölürdü. Amma ona mən heç məhəl qoymurdum. Deyirdi öldürərəm özümü, gərək səni alam. Axır bir gün lap məni cəzana gətirdi, zəhləmi tökdü, dedim, bilirsən nə var? Bax, aç qulağını eşit: səndən əvvəl mənim adamım olub, özü də onunla əməlli-başlı yaxın olmuşam. Üzünə baxdım, yazığım gəldi. Ağappaq ağarmışdı, barmaqlarını qulaqlarına tıxadı, indiki kimi yadımdadır, sonra üzünü örtdü, bir müddət heykəl kimi donub qaldı. Sonra çıxıb getdi. Üç gün ilim-ilim

itdi. Üç gündən sonra gəldi ki, bəs ölüb qurtarmışam. Doğrudan da üç günün içində gədənin ordu orduna yapışmışdı, gözləri düşmüşdü çuxura. Dedi ki, mənim üçün daha heç bir şeyin dəxli yoxdur. Qəbulumsan. Elə günü bu gün gedək ZAQS-a. Dedim xeyr, əvvəlcə şərtimi bil. Heç vaxt o adam haqqında nə məndən bir şey soruşacaqsan, nə də ayrı yerdən bilməyə çalışacaqsan. Bu bir. Heç vaxt üzümə vurmayacaqsan... – Sən nə danışırsan, – dedi. – Əlbəttə. Daha bu barədə danışmadıq. İki gündən sonra getdik ZAQS-a.

Toyumuz axşamı baxdım ona, yazığım gəldi. Gördüm çox sınıqdı. Bir gözü gülür, biri ağlayır. Dedim, bilirsən nə var, şərtimiz şərt yerində. Amma qoy sənə deyim: həmin o adam mənim nişanlım idi. Toyumuz bir həftədən sonra olacaqdı. Amma... uşaqlıq elədik... bilirsən də, olanda olur... axmaqlıq... Toyumuza iki gün qalmış getdi dənizdə batdı. Vallah, elə bil dünyanı Manafa bağışladılar. Az qala ayağıma yıxılıb ağlayacaqdı. Ay Allah, kişilər nə yaman axmaq olur!

Təhminə danışır, danışırdı. Zaur onun səsini eşidir, ancaq sözlərini qavramırdı. O, arxası üstə uzanıb ulduzlara baxırdı, saçlarında qumların gecə nəmliyini – torpağın tərini duyurdu. Uzaq ulduzlara baxır, dənizin xışıltısını, Təhminənin səsini eşidir və Məmməd Nəsirin çox sevdiyi və tez-tez təkrar etdiyi bir fikri xatırlayırdı. Düz deyir Məmməd Nəsir, dünyada ən gözəl səfər içki şüşəsinin boğazından dibinə etdiyin səfərdir. Bu səfərə ikimiz çıxmışıq. Gəlib çatmışıq lap şüşənin dibinə. Dibinə lap az qalır. İndi başqa bir aləmdəyik. İsti, mehriban, xoş, içki şüşəsinin dibi kimi kədərli bir aləmdə... xoş hara, kədərli hara? Eh, aləm başımda qatışıb! Təhminə! Təhminə!

Təhminə də düşünürdü. Danışa-danışa düşünürdü. İçməklə yox, keçmişiylə sərxoşdu. Elə bil uzaq günləri içib dəm olmuşdu. Danışıqları qarmaq kimi keçmişə ilişir, illər, aylar arxasında qalmış xatirələri çəkib çıxarırdı. Təhminə düşünürdü ki, adam heç vaxt qəlbən, ya zehnən, fikirlə, ya hisslə bəxtiyar olmur. Bəxtiyarlıq ancaq keçəri duyumların təsadüflüyüdür. Unudulmuş bir qorxunun, bir səsin, sözün, toxunuşun qəfil külək kimi yaddaşa qayıtması...

Təhminə xoşbəxt olduğu anlar haqqında düşünürdü, bu anlar o qədər tələsik, keçəyən, ötəyən idilər ki, onların xatirələrini də beyində aydın canlandırmaq olmurdu. İllah da içkiylə dumanlanmış beyində. Ancaq bir neçə cizgi, boya... yay gecəsi, Pirşağı bağı, gecə, ulduzlu göy...

Təhminə lap balacadır. Nənəsiylə axşamdan yatıb. Gecə səslərə oyanır, qatmaqarışıq səslər eşidir, adamların kim olduqlarını təyin edə

bilmir, ancaq bilir ki, qohum-qardaşdır, şəhərdən qonaq gəliblər. Deməli, səhər hamısı dənizə gedəcək. Sevincli bir hiss qəlbini bürüyür. Yenidən yuxu onu çəkib aparır...

...Hər gün düz saat on iki radələrində dənizin üfüq xəttində təyyarələr görünür. Dənizin üstüylə ucadan uçurlar. Paraşüt buraxırlar. Ağappaq paraşütlər qönçə kimi açılır, çiçək-çiçək mavi dənizə tökülür. Nənəsi hələ sağdır.

...Sahil... Güclü xəzri. Atasıyla qayanın üstündə dayanıblar. Atasının qıçına sığınıb. Dəniz dalğalarını bayraq kimi qaldırıb. Dəniz nümayiş kimi üstlərinə gəlir.

"Səni gördüm. İllərlə səni görməyə bilərəm. Təki biləm ki, sən varsan. Varlığını uzaqdan-uzağa da duya bilərəm. Sahil kəndlərinin sakinləri dənizi görməsələr də, duyduqları kimi. Ancaq, əzizim, dəhşət odur ki, bir gün gedib görəsən dəniz yox olub". – Uzun kişi barmaqları Təhminənin sağ əlinin barmaqlarını bir-bir sığallayır, bir, iki, üç, dörd, beş. Sonsuz təəccüblə Təhminədən soruşur: əzizim, sənin beş barmağın varmış?

Moskva. Biz Moskvaya gələndə may bayramının ərəfəsi idi. Aerodromdan şəhərə gəlirdik. Hər yan qırmızı geymişdi. Qırmızı bayraqlar, qırmızı şüarlar. Taksiylə mərkəzə gəlirdik və hər dəqiqə işıqforların qırmızı işığına büdrəyib dayanırdıq.

Biz Moskvadan gedəndə hər yan yaşıl geyinmişdi. Ağaclar, otlar, sarmaşıqlı eyvanlar. İşıqforun yaşıl işıqları, yaşıl yarpaqlar kimi, yağışlı-günəşli küçələrə – aerodroma tərəf yönələn maşınımızın təkərləri altına səpələnmişdi. Hər dəfə içən kimi Moskvadayam. Yağış yağır. Yay yağışı. Göy guruldayır. Adamlar qaçışırlar. Yağış kəsir. Hava açılır.

Altıncı mərtəbədə bir ev. Pəncərə. Pəncərədə uzun, ağ, qırmızı, çəhrayı qladioluslar.

Pirşağı. İlkindi çağı şəhərə gedən elektrik qatarının fit səsi uzaqlaşır, itir... Yayın son günü, payızın ilk günü. Sakit qumlar. Adamsızlaşmış bağlar. Boş boz sahil. Boz telcqraf direkləri, arxayın bir sükut. Səssizlik...

Moskva. İsti, yumşaq xalı döşənmiş otaq. Yarımçıq işıq. Çöldə çovğun, qar, külək. İçəridə qazla yanan soba. Radioda uzaq, kəsik melodiyalar. Öz aramını, sonunu tapa bilməyən sərgərdan bir melodiyanın yorğun, usanmış kədəri... Uzaq dənizlərin, tələtümlü okeanların ardın-

dan gələn, çovğunlu, boranlı efirdə gah itən, gah eşidilən bir səs. Ərəb qızının yanıqlı mahnısı. Elə bil oxuyan, gecə özüdür. Uzun, qüssəli Şərq gecəsi. İçini dolaşıb keçə kimi isidən konyak. Ağ yun toxunma köynəkli dünya gözəli.

– Nədən qorxursan, dəli, nədən qorxursan?

Təhminə hönkürüb ağlamağa başladı.

Zaur onu ovutmaq istədi.

Təhminə:

– Yaxşı, ağlamıram, heç, keçər, sən fikir vermə, – dedi. – Sən arvadların göz yaşlarına çox da fikir vermə, çox vaxt özümüz də bilmirik ki, niyə ağlayırıq. Gəl içək.

Son qədəhi içdilər.

– Zakuskamız da qurtarıb.

Təhminə:

– Odey, ayı görürsən? – dedi. – Konyaka ən əla zakuskadır. Sən sağ tərəfini dişlə, sol tərəfini mənə saxla.

İçdilər. Hərəsi ayın bir tərəfindən dişlədi. Təhminə: doymadıq, – dedi, – gəl ulduzlardan plov bişirək, yeyək.

Göyü dənizin üstünə tutub ulduzları süzdülər. Bişirdilər, yedilər.

Təhminə Zaurun üstünə qum səpməyə başladı:

– Gəl səni qumda basdırım.

Zaur:

– Cavanam,– dedi, – yazığam. Anamı ağlar qoyma. İndidən niyə basdırırsan, hələ muradıma çatmamışam.

Sonra yadına bir əhvalat düşdü. Təhminəyə danışdı.

Bir dəfə ər-arvad axşam tərəfi plyaja çimməyə gedirlər. Arvad xəstəymiş, qum vannası qəbul edirmiş. Kişi basdırır a

rvadı boğazınacan qumun içinə, bircə başı çöldə qalır, özü də gedir dənizə çimməyə. Hava bir az da qaralır. Arvad da qumun içində xumarlanır, mürgüləyir. Qaranlıqda plyajnan səssiz, işıqsız gedən bir maşın arvadın başını görmür, basıb üstündən keçir, heç xəbəri də olmur. Kişi dənizdən çıxıb görür ki, arvadı, bəli, xurd-xəşil olub ölüb. Az qala dəli olur, deyir öz əlimlə torpağa basdırdım.

Zaur başını qaldırıb Təhmineni görmədi. Ora-bura boylandı, qayalara, sahilə, dənizə, göylərə baxdı.

Göyə təzə ay çıxmışdı, təzə ulduzlar düzmüşdülər. Ay işığında qayaların kölgələri daha da uzanmışdı. Sarı qumlar gümüşə çalırdı. Ay

dənizə saldığı yolu pul-pul döşəmişdi. Bir səs, hənirti duyulmurdu. Bir an Zauru soyuq vahimə basdı.

Dəniz uğuldayır, uğuldayırdı. Qumlar ürpərir, ürpərirdi.

Təhminə qeyb olmuşdu.

Zaur durub üstündən qumu çırpdı, ora-bura qaçdı. Qayaların lağımlarına baxdı. Birdən dəniz tərəfdən hənirti eşitdi. Dönüb baxdı. Elə bildi yuxu görür.

Dənizdən çıl-çılpaq bir qadın çıxırdı. Elə bil ay işığından heykəl düzəltmişdilər.

Lap yaxına gələndə Zaur onun soyuqdan titrədiyini gördü. Bir an içərisində onu qolları arasına aldı. Qucağına qaldırdı. Qayaların altına apardı.

Təhminə:

– Səni istəyirəm, sənənəm, – deyə odlu-odlu pıçıldayırdı. – Səndən uşaq istəyirəm.

Zaur hər şeyi – özünə çoxdan aydınlaşdırdığı, qəbul etdiyi davranış qanunlarını da, bütün qadağaları, xəbərdarlıqları, məsləhətləri, tövsiyələri, bütün ehtiyatlarını unutdu. Hər şeyi unutdu.

Bir an onun bütün varlığı, məni, keçmişdi, indisi, gələcəyi, atasının maşını, anasının şəhərdə qalmaq, nəşriyyatda işləmək təkidi, bütün keçən sərgüzəştləri, bığlarına hopmuş bütün qadın öpüşlərinin ətri, yağış altında gözləmələri, xəlvəti telefon-avtomat söhbətləri, duyduğu bütün qoxular, eşitdiyi bütün nəğmələr, oxuduğu bütün kitablar, ona gülümsünən bütün gözlər, içinə dik baxa bilmədiyi başqa gözlər, uşaqlıq dəcəllikləri, yetkinlik çağının həvəsləri, idman yarışları, institut həyatı, məşqlər, səfərlər, leksiyalar və imtahanlar, maşın sürmək ehtirası, yaddaşındakı bütün sözlər, adlar, telefon nömrələri, damarındakı bütün dadlar, çəkdiyi cürbəcür siqaretlər, qulağındakı səslər, bu gün, dünən, bu axşam, bu gecə, dənizin səsi, ay, burdakı ulduzlar – hər şey, hər şey yığılıb, bir vəhdətə çevrilmişdi. İstək, ehtiras, həyəcan dolu, gözləyən, tələsən, axtaran bir vəhdətə. Və bu vəhdət başqa bir möcüzəyə, qaranlıq, gizli, dar vəhdətə qovuşmalı idi. Başqa bir insanın bütün həyatını, keçmişini, indisini, gələcəyini, fikrini, qəlbini, kədərini, ümidini, sevincini, aldanışlarını, bezarlığını, onun – Zaurun heç bir zaman bilmədiyi və bilə bilməyəcəyi mübhəm bir aləmi özündə cəmləşdirən vəhdətə qovuşmalı idi, qovuşurdu...

Zaur Təhminənin üzünü, saçlarını, iztirablı gülüşünü qumların haşiyəsində görürdü.

Təhminə Zaurun sifətini qaranlıq göyün, ulduzların haşiyəsində görürdü. Və bu an varlığının hər hüceyrəsiylə inanırdı ki, bu ehtiras, bu intizar, bu ağrı, mütləq, mütləq nəticələnməli, sonlaşmalı, yeni bir həyata, yeni bir insana çevrilməli, onlar İkisi Üçüncünü yaratmalıdırlar. Və bu Üçüncü də hər ikisinin həyatı, acıları, sevinclərini bütün vağzallarda, aerodromlarda, otaqlarda, telefonlardakı gözləmələrini, idarədəki peşələrini, ya evdəki qayğılarını və tək bunların yox, bunlardan qabaq olanların – əcdadların da varlıqlarını, ömürlərinin son və ən vacib mənalarını, bəlkə Zaurun anasının saçlarının, bəlkə Təhminənin atasının gözlərinin rəngini özündə toplamalı, yığmalı, əks etməli, təmsil etməlidir.

İnsan nə qədər mürəkkəb olursa da, sonda o özünü nə isə çox qısa və yığcam bir düsturla ifadə edə bilir. Və bu düstur çaxmaq daşı kimi, kibrit kimi, başqa bir düstura, başqa çaxmaq daşına, kükürdə toxunub qığılcım, yeni həyat qığılcımı, yeni həyat yaradır, dünyaya Üçüncünü gətirir.

Bu Üçüncünün də öz həyatı, öz ağrıları, həvəsləri, meyilləri, anlayışları, zövqü, kədəri olacaq və o yenə başqa birisinə rast gələcək və yenə...

– Əzizim, canım, gözüm, ciyərim, varlığım, – Təhminə elə bil nəfəsiylə sözləri gözərdirdi, – sevgilim, yarım, ərim, gözəlim, bircə dənəm. – Təhminə boğulurdu. İnləyir, söz axtarırdı. – Canım, ciyərim, gözüm, – məhəbbət sözləri qurtardı, – axmaq, it, dəli, gic, pişik, dovə...

Zaurun dodaqlarında Təhminənin dodaqlarının, dərisinin, boyasının, pudrasının ətri, bir də dəniz suyunun, küləyin, qumların dadı birbirinə qarışmışdı.

Zaurun başını var gücüylə üzünə yapışdırdı. Siqareti divara basıb söndürən kimi qızartdaq, odlu dodaqlarını Zaurun dodaqlarına sıxıb söndürmək istəyirdi.

– Sevirsən məni, sevirsən? – deyə Zaur tələsik pıçıldayırdı.

– Oğlumuz olacaq, Zaur, oğlumuz, oğlumuz...

Maşında oturub zarıyırdı.

– Sətəlcəm olmuşam, – deyirdi. – Allah, Allah, ölürəm, – deyirdi.

Zaur "bircə düz yola çıxa bilsəydim, – deyə düşünürdü, – onda iş asandır. Bu qaranlıqda quma batsaq, köməyimizə gələn də olmaz, gərək səhərəcən qalaq".

Saat ikinin yarısı idi. Qalıb səhəri gözləmək olmazdı. Təhminənin halı xarab idi. Ehtiras sönəndən bəri konyakın dumanı Zaurun başından çəkildikcə, "bu nə iş idi mən düşdüm" – deyə sakit ola bilmirdi.

– Üşüyürəm, üşüyürəm. – Təhminə yumaq kimi büzüşür, Zaura sığınır, ancaq yenə də qızına bilmirdi. – Üşüyürəm, üşüyürəm.

Zaur əvvəlcə gözlərinə inanmadı. Qabaqda qırmızı işıq görmüşdü. Yük maşınının qırmızı dal işığı. Bu işığın ucundan tutub sürdü. Təxminən yüz metrdən sonra şoseyə çıxdılar.

Zaur rahat nəfəs aldı. Üçə yaxın şəhərə çatdılar. Yatmış şəhərin gecə vitrinləri işıqlı idi və bu işıqlarda nə isə son dərəcə mehriban, xoş, isidici bir məlhəm vardı.

Təhminənin titrəməsi də elə bil kəsildi. Daha uçunmurdu.

– Siqaret ver bura...

Zaur cibindən qutunu çıxarıb ona uzatdı.

– Al, axırıncı siqaretdir.

– Axırıncıdır? Qoy onda özünə qalsın.

– Yox, evdə varımdır, götür.

Təhminə siqareti dodaqları arasına aldı.

Hansı radiostansiya isə gecə konserti verirdi. Konsert yəqin gecə klubundan verilirdi. Kişi yumşaq səslə həzin melodiya oxuyur, konferansye hansı dildə isə zarafat edir, adamlar gülüşür, əl çalırdılar.

– Bəs kibrit?

Zaur ciblərini döyəcləyib kibrit qutusunu tapdı. Təhminəyə verdi. Təhminə bir-bir kibritləri çıxartdı.

– Hamısı yanıqdır ki, – dedi, qutunu pəncərədən tulladı.

– Ayrı yoxumdur.

"Moskviç" Təhminəgilin evinin qarşısında dayandı. Təhminə qapını açdı, çantasını götürdü və dedi ki, sonra Zaur nigaran qalar, ancaq qalmasın, lap arxayın olsun. Neçə dəfə burda həkimə getmişəm, elə Moskvaya da onunçün getmişdim. Orda özümü ən yaxşı mütəxəssislərə göstərdim. Lap qəti dedilər ki, sənin heç bir vaxt uşağın olmayacaq. Bəli, belə işlər, əzizim, al bu siqaretini, onsuz da kibrit yoxdur.

Zaur ağzını açmağa macal tapmamış Təhminə damağındakı siqareti onun dodaqları arasına soxdu.

– Ötürmə, lazım deyil, – deyə tələsik darvazaya tərəf qaçdı, çevrilib bir də əl elədi, güldü. Nə qamma çalındı, nə motosikl uzaqlaşdı...

Darvazanın qaranlığına girib itdi.

Zaur maşını işə salıb hərəkətə gətirdi. Yatmış şəhərin adamsız, səssiz-hənirtisiz küçələriylə soyuq neon işıqlı vitrinlərin yanından ötüb keçirdi. Radioda gecə konserti qurtardı. Radio da susmuşdu.

Bir an Zaura elə gəldi ki, ağzındakı bu siqaretlə bütün dünyada lap tək qalıb.

Tərs kimi kibrit də yoxdur...

ZAURUN TƏHMİNƏYƏ MƏKTUBU

Təhminə! Mən bu məktubu indi yazıram. Səndən ayrılandan bir saat sonra. Sənə qəribə gələcək ki, biz ayrılandan bir saat sonra, özü də gecə saat 4-də məktub yazmaq nə vacib düşüb. Bəlkə də sənincün bu vacib deyil. Amma mənimçün çox vacibdir. Məktubu niyə yazıram. Çünki məktubda deyəcəyim şeyləri elə-belə, sözlə, sənin üzünə deməyə, hətta telefonla deməyə belə heç vaxt cəsarət etməzdim. Heç bilmirəm, demək istədiklərimi məktubla deyə biləcəyəmmi. Demək istədiyim odur ki, Təhminə, mən bu gün çox şeyi başa düşdüm. Gülmə, Təhminə, yəqin ki, sən məni uşaq sayırsan, hissə qapılan sadəlövh bir uşaq. Nə olar, say. Hər halda mənimçün bu çox vacibdir. Heç bilmirəm nə yazıram. Elə hey yazıram vacibdir, vacibdir, nədir vacib? Heç özüm də bilmirəm. Bircə onu bilirəm ki, bu gün mənim gözüm açıldı, elə bil çox şeyi təzədən gördüm, anladım. Bir yandan Məmməd Nəsirin təkbaşına nərd oynaması, bir yandan bizim bugünkü səfərimiz, xüsusən sənin son sözlərin (həkimlərin sənə dediyi sözlər), bütün bunlar hamısı elə bil mənim varlığımı alt-üst etdi. Bilirsən, əgər mən yazıçı olsaydım, bütün bu hissləri, bu psixoloji incəlikləri daha dəqiq təsvir edə bilərdim. Ancaq məndə bu məharət yoxdur, odur ki, fikirlərimi, hisslərimi də belə dolaşıq ifadə edirəm. Nə isə mənə elə gəlir ki, mən indiyə qədər hamını və birinci növbədə də özümü aldatmışam. Həqiqətdən qorxmamaq, həqiqət nə qədər acı olsa da, onun düz gözünün içinə baxmaq lazımdır. Bunu mənə sən öyrətdin. Doğrudan da dünyada ən murdar şey riyakarlıqdır, ruslar buna xanjestvo deyirlər. Mən də başa düşdüm ki, bundan sonra mən heç bir vaxt nə heç kimi, nə də özümü aldatmamalıyam. Bilirsən, Təhminə, səndən ayrılandan sonra maşınla boş küçələri dolaşırdım və başıma min cür fikir gəlirdi. Bir istəyirdim gedib bu saatca Manafa teleqram vuram ki, bəsdir bu yalan, Təhminə səni sevmir, məni sevir, biz onunla bir-birimizi sevirik. Biz evlənəcəyik. Gəl Bakıya, məhkəməylə Təhminəylə boşanın... Sonra istədim təzədən Pirşağıya dəniz qırağına, həmin o yerə gedəm. Sonra istədim maşınımı divara vurub əzəm. Sonra qərara gəldim evə gedib ata-anamı oyadam. Hər şeyi onlara danışım, deyim ki, çox sağ olun, məni dünyaya gətirmisiniz. Ancaq adam gərək iki dəfə doğulsun. Bir dəfə onu ata-anası dünyaya gətirir. İkinci dəfə o özü-özünü dünyaya gətirir, özü özünə dünyada bir yer qazanır. İndi, əziz ata-anam, mən hələ bircə dəfə doğulmuşam. Mən hələ özüm yaranmamışam. Hələ ancaq sizin yaratdığınız kimi, sizin istədiyinizə uyğun olaraq yaşayıram. Çox sağ olun əziz ata-anam, məni böyüdüb boya-başa çatdırmısınız, oxutmusunuz, saxlamısınız, geydirib-yedirtmisiniz, mənə maşın almısınız. Amma mən daha özüm yaşamalıyam. Götürün bu "Moskviç"i. O sizindir. Mənim onu öz maşınım hesab eləməyə haqqım yoxdur. Nə maşınımı, nə geyimimi, nə otağımı. Bundan sonra belə olmayacaq. Mən öz əlimin zəhmətiylə dolanmaq istəyirəm, öz iradəmlə, öz ağlımla yaşamaq istəyirəm. Yoxsa mən başdan-ayağa özümü kiminsə borcu hesab edirəm. Kiminsə qaytarılmamış borcu. Adımı siz qoymusunuz, məktəbimi, ixtisasımı, iş yerimi siz təyin etmisiniz. Bütün həvəslərim, işlərim də sizin razılığınızla olub. Bəs mən özüm nəyəm, kiməm, hardayam? İndi ilk dəfə mənim həyatıma elə bir adam daxil olub ki, o yalnız mənimdir, yəqin siz onu qəbul etməyəcəksiniz. Yəni bu keçəri bir həvəs olsaydı, siz qarışmazdınız. Siz heç vaxt mənim belə işlərimə qarışmırsınız. Ancaq biləndə ki, məsələ ciddidir, siz hay-haray qaldıracaqsınız. Ancaq mən də ondan keçməyəcəyəm. Çünki o mənim özlüyümdür, özlüyümün təsdiqidir, o mənim etirazımdır. Təhminə, gör mən nə səfeh-səfeh sözlər yazıram sənə. Oxuyub güləcəksən. Bilirsən, mən bütün bunları tamam başqa cür hiss eləyirəm, ancaq kağızda yazanda hər şey nə cürsə bayağılaşır, adiləşir, gülməli görünür. Gülmə, Təhminə, bəlkə mən bu məktubu heç sənə göndərmədim, cırıb atdım. Ancaq göndərsəm də, göndərməsəm də, mən artıq sənsiz yaşaya bilmərəm. Sən elə bilirsən mən kütəm, keyəm, heç nə başa düşmürəm. Mən sənin bütün dediklərini, duyduqlarını hiss eləyirəm. İnan mənə ki, hiss eləyirəm. Mən bilmirəm bizim uşağımız olacaq, ya yox, ancaq mən sənincün həm ər, həm də övlad olmaq istəyirəm. Sənin davamın olmaq istəyirəm, həyatının mənası olmaq istəyirəm. Mən sənincün həm İkinci, həm də Üçüncü,

Dördüncü, Beşinci, Altıncı, Yeddinci, Səkkizinci, nə bilim neçənci, neçənci olmaq istəyirəm. Məktubumu qurtarıram. Son sözü yazıb kibrit çəkib bu məktubu yandırıram. Son söz... Təhminə...

TƏKLİK TİLSİMİ

Saat düz üç tamamda Səfdər dayı pilləkəni düşməyə başladı. Forqinə varmadığı mexaniki bir vərdiş halını almış adəti üzrə, ürəyində pillələri saya-saya düşdü. Üçüncüdən ikinci mərtəbəyəcən on yeddi pillə idi. İkincidən birinciyəcən on səkkiz pillə...

– 17, o da 18, 35 – deyə ürəyində təkrar edib idarənin qapısından küçəyə çıxdı. 35, o da 3719, elər... yox, 35-in 3719-a dəxli yoxdur. 3719 təxmini hesablamanın balansıdır. 4012 olmalıdır. Deməli, 293 manat çatmır. Görəsən harda səhv ediblər. Keçən kvartalda 145 manat səhv etmişdilər. 145, ya 147? Yox 147. Bəs niyə 145 dedi? hə, ev nömrəsiylə çaşdırır. Ev nömrəsi 45-dir. Mirzə Fətəli, 45.

Skleroz məni birtəhər eləyib. Pensiya vaxtın çatıb, Səfdər. Yox, hələ iki ilin var. Daha doğrusu, bir il 9 ay. Yaxud 21 ay, 21 ay neçə gündür? Neçə belə gün? Deməli, yanvar otuz bir, fevral gələn il 29-dandır, mart...

Bəsdir, Səfdər, sənin lap başın xarab olub. Neynirsən bu mənasız hesablamalarla beynini yorursan. Bəsdir. Yaxşı, deməli, balans 3719 manat, əysiyi... Əşi, cəhənnəm olsun balans da, əysiyi də. Saat 3-dür. Dördə beş dəqiqə işləyib. İş günü qurtardı. Bu gün şənbədir. Sabah bazar. Bazar ertəsinə qədər bütün balansı, planı, prixodu, rasxodu, bütün rəqəmləri unut. Unut ki, mühasibsən.

Bazar ertəsi səhər saat 9-da yenə başlayarsan mühasibliyinə. İndi bəsdir. Bir dənə rəqəm yadına salma. Yaxşı, oldu. Elə bil beynimə qalaq-qalaq rəqəm yığıblar, rəqəmlər başımda elə bil tillə vurub. At hamısını. Adamlara, küçəyə bax.

Küçəni keçib gündə nahara gəldiyi balaca, darısqal yeməkxanaya girdi. Hər gün oturduğu küncdəki stolun arxasına keçdi.

Görünür, masanın dalından indicə durmuşdular, üstü kiminsə artıqlarıyla dolu idi. Bulaşıq boşqabdakı kotletin qalıqlarına papiros kötükləri basılmışdı. Süfrəyə pivə dağılmışdı.

Səfdər dayı ani hərəkətlə çığara kağızında çap olunmuş yeməklərin siyahısını götürdü. Dərhal da kənara qoydu, nə yeyəcəyini də bilirdi, yeməklərin qiymətlərini də. Borş, kotlet, kompot, bir şüşə "İstisu", borş 35 qəpik, kotlet vermişeliylə 42 qəpik, on beş qəpik kompot, iyirmi qəpik "İstisu", on qəpik çörək. Cəmisi bir manat otuz qəpik, beş-on qəpik az, ya beş-on qəpik çox, deməli, ayda...

"Səfdər, – dedi, – yenə rəqəmlər? Bəsdir, kişi, at bu rəqəmləri beynindən".

Xidmətçi gəlib masanın üstünü yığışdırdı. Süfrəni çırpdı. Çevirib o biri üzünü saldı. Bu üzü də ləkəli idi. Amma bu ləkələr qalıb qartımış ləkələr idi, hopub solmuşdu, o biri üzdəki kimi təzə deyildi.

Səfdər dayı sifarişini elədi. İncəvara, tez gətirdilər. Borş dadlı idi. Bir az duzu çatmırdı. Ya bəlkə Səfdər dayı şor yeyən idi. Kotlet də pis deyildi. Əlbəttə, Minanın yeməklərinə çatmazdı, amma hər halda...

Səfdər dayı köksünü ötürdü. Yaxşı yumşaq ətdir, – deyə düşündü. Lap qocamalıdır. Mənim kimi dişsiz qocalar üçündür.

Ağzının müxtəlif yerlərində cəmi-cümlətanı 9 dişi qalmışdı.

Kotleti yeyib qurtardı, ağzını siləndə cıqqıltıyla yerə nə isə düşdü. Səfdər dayı baxıb "bəli, bu da belə getdi" – dedi, əyilib düyməni götürdü, döş cibinə qoydu.

Ağ parusin pencəyinin yeddi düyməsi vardı. Yuxarıdan ikinci, üçüncü və beşincisi düşmüşdü. İndi də yeddincisi düşdü.

Düymələri də dişləri kimi pərakəndə tökülürdü. Biri ordan düşürdü, biri burdan.

Kompotu içə bilmədi. Pis təmi vardı. Özü də bulaşıq suyuna oxşayırdı. Görünür, çürümüş meyvələrdən hazırlanmışdı.

Gərək gedəm özümə diş qayırtdıram. Bu dal dişimi də gərək çəkdirəm. Hərdən bir yaman zoqquldayır. Gərək mütləq gedəm. Deyirəm, amma heç getmirəm. Elə günü günə satıram.

Eh, heç adamın başı açılır ki... Gərək evin damına da qır saldıram. Yoxsa payızda yenə damacaq. Damanda adamın bütün ovqatı təlx olur. Gərək bütün otaqlara ləyənlər, vedrələr, boşqab-qazan, bankalar düzəsən. Hərəsindən də bir cür səs çıxır. Mis ləyənə damcılayanda bir səs çıxır, vedrəyə başqa, qazana başqa, boşqaba başqa... Kap, kap, kap... Çap, çap, çap... Pap, pap, pap...

Dünyada üç şey adamı lap zinhara yetirir, çəkmən sıxa, dişin ağrıya, evin dama.

Səfdər dayı minnətdarlıqla köhnə yalınayaq çəkmələrinə baxdı. Ayaqları bu çəkmələrin içində elə rahat, elə xoş idi ki... Bəzən adam öz yorğan-döşəyində belə xoş, rahat olur...

Bəli, Səfdər kişi, evin damır, dişlərin də tökülüb, düymələrin də bir– bir düşür, vaxtdır, kişi. Bəsdir dünyanın səfasını çəkdin. Deyəsən, əcəli qapının dalında bir az çox gözlədirsən axı...

– Yox, vallah, – dedi, – əcəldən qaçmıram. Ölümdən də qorxmuram. Məndən əskik adamları aparmayıb ki... Tay-tuşumun da çoxu ordadır.

Bayaqdan bəri susmuş radiocihaz birdən dilə gəldi. Xeyli xırıldadı, ayrı-ayrı sözləri deyib yenə susurdu. Ancaq anlamaq olurdu ki, rayon qəzetləri üçün mətn oxunur.

– Təkrar edirəm. Kolxoz və sovxozlarımız bu il... dövlətə... planda nəzərdə tutulmuş... təkrar edirəm, kolxoz və sovxozlarımız bu il dövlətə planda nəzərdə tutulmuş 1200 ton əvəzinə 1897 ton taxıl, 90 ton əvəzinə 105 ton barama, 370 min əvəzinə 379 min yumurta, 222 ton əvəzinə 226 ton yun satmışlar, təkrar edirəm, 1200 ton əvəzinə...

Səfdər dayı bir manat altı şahısını verdi, küçəyə çıxdı.

Gedim bir arvada baş çəkim, – deyə düşündü.

Arvadı iki ay bundan qabaq basdırmışdı. Qəbir üstünə adətən cümə axşamları gedərdi. Srağagün də getmişdi.

Amma bu gün nədənsə birdən Minaya baş çəkmək ehtiyacı duydu.

Taksi dayanacağına çatdı. Növbə tutdu.

Ondan qabaq dörd adam vardı. Küçə saatına baxdı. Əqrəblər başlarını 12-nin üstünə qoyub yatmışdı.

14-17 nömrəli bir taksi gəldi. Sonra dalbadal ikincisi, üçüncüsü gəldi. Səfdər dayının növbəsi çatmışdı. Təxminən 5-6 dəqiqə də gözlədi. Dolu maşınlar bir-bir ötürdü. Səfdər dayı qeyri-ixtiyari nömrələrə baxır, ani olaraq nömrənin birinci yarısıyla ikinci yarısını toplayırdı. 41-18, deməli 59, 22-15, eylər 37.

Tindən yaşıl işıqlı taksi buruldu. Nömrəsi 27-00. Səfdər dayı-27 üstə gəl 00 eylər 27 – deyə düşündü və bu qəribə əməliyyata təəccübləndi. Amma fikirləşdi ki, bu rəqəmi 27-00 kimi də oxumaq olar.

– Sizin növbənizdir?

– Bəli, bəli.

– Hara gedəcəyik?

– Qəbiristanlığa.

Sürücü qeyri-ixtiyari gülümsündü, amma dərhal da üzündən gülüşü sildi.

Səfdər dayı onun nəyə güldüyünü başa düşdü. "Doğrudan da yəqin, mənim görkəmim elədir ki, sürüb aparıb, elə birbaş qəbrə qoymaq olar. Yəni elə əslinə qalsa adamlar anadan olandan öz qəbirlərinə tərəf getmirlər? Yolları nə qədər uzaq düşsə də, nə qədər dolama-dolama, eniş-yoxuş olsa da, axır gəlib mənzilə çatırlar. Molla Nəsrəddin demişkən, hara getsələr, axırda gəlib bura çıxacaqlar".

Sayğacda rəqəmlər bir-birini təqib edirdi. 12 qəpik, 13, 14, 15 qəpik...

Pəncərələrin dalında Qız qalası, bulvar, Azneft meydanı arxaya qaçırdı. Elə bil onları sayğacın rəqəmləriylə nömrələmişdilər: Qız qalasının nömrəsi 12, bulvarınkı 13, Azneft meydanınkı 14.

Maşın şəhərin hündürünə dırmaşdı.

Minanın qəbri içərilərdə idi. Maşın yolundan çox kənar. Səfdər dayı maşını saxlatdırıb on şahısını verdi, düşdü. Qəbirlərin arasıyla arvadının son məskəninə tərəf addımlamağa başladı. Həmişəki kimi yenə də qəbirlərin üstündəki yazıları oxuyurdu.

Əskər Teymurov
1905-1957

Tofiq Babayev
1927-1946

Adlar və rəqəmlər. Adlar və rəqəmlər. Yəni bu rəqəmləri bura yazmaq vacibdir? Yəni adamdan elə bu iki şey qalır? Adı və bu iki tarix? Axı, niyə belə? Axı, əslinə qalsa bu yazıların adamın şəxsən özünə dəxli də yoxdur. Adını özü qoymayıb. Familini də həmçinin, təvəllüdü, ölümü də özündən asılı deyil. Olmaz ki, bura adamın şəxsən özünə dəxli olan şeylər yazsınlar, məsələn, kim idi, bu dünyada nə iş görüb, nə iş qoyub gedib, ya məsələn, tutalım, xasiyyəti necə idi? Kimə nə yaxşılığı, nə pisliyi keçib? Övladı olub, yoxsa yox, öləndən sonra kimi qalıb? Yoxsa quru rəqəmlərdən nə çıxsın?

Faiq Mərdanov
1912-1959

Bəhmən Salayev
1938-1965

Qeyri-ixtiyari rəqəmləri toplamağa başladı. 1912+1959=3871. Sonra fikirləşdi ki, burda toplamaq düz olmaz, çıxmaq lazımdır. 1959-1912=47. Deməli, biçarə Faiq Mərdanov 47 il ömür sürüb. 1965-

1938=27. Vay, bədbəxt, Bəhmən Salayev 27 yaş yaşayıb. 27 yaşında ölüb. Görəsən nədən ölüb?

Əşi, əcəl göznən-qaş arasındadır. Bayaqkı fikri bir də beyninə qayıtdı. Deməli, belə çıxır ki, adam əcəlin qurduğu tələlərdən bir-bir qaçıb qurtarır ki, bura, bu son mənzilə sağ-salamat gəlib çıxa bilsin. Yüz cür təsadüfi ölümdən qorunur ki, özünü axırda böyük ölümə yetirsin.

Qədim bir əfsanəni xatırladı. Deyir, qoca bir səyyah gəlib qürbət ölkəyə çıxır. Qəbiristanlığa gedir. Görür qəbirlərin üstündə adamların yaşları yazılıb. Hamısı da bir yaş, iki yaş, çoxu beş yaş. Özü kimi piranə bir kişiyə rast gəlib soruşur ki, bəs bu nə olan işdir? Sizin camaat hamısı yəni körpə yaşında tələf olub? Qoca deyir ki, xeyir a, məsələ başqadır, məsələ ondadır ki, biz burda homin bu adamların xoşbəxt yaşadıqları vaxtı yazmışıq. Qalan günlərini, illərini ömürdən saymırıq. Onda səyyah da deyir ki, bəs mənim də ömrümün axırına az qalıb, bu gün sabah öləcəm, vəsiyyət eləyirəm ki, məni də elə burda basdırın, qəbrimin üstündə də yazın ki, bəs bu adam elə anadan ölü doğulub. Minanın qəbrinə çatdı.

Minəvvər Mədət qızı
1909-1965

Söz vermişdi ki, bu səfər özünü tox tutacaq, kövrəlməyəcək. Amma qəbri görəndə birdən hardansa Minanın gecələr yuxuda danışması yadına düşdü. Özü də belə hətərən-pətərən danışıb sayıqlamazdı. Sözləri elə aydın, mükəmməl tələffüz eləyirdi, elə bil ayıq vaxtı oturub sənin lə söhbət edir.

Özünü saxlaya bilmədi, qəhərləndi, ağladı.

"Niyə belə vəfasız çıxdın, ay arvad, məni bu qoca yaşımda kimə *tapşırıb getdin*?"

Cibindən dəsmalını çıxartdı, eynəyini götürdü, gözlərini sildi. Bir müddət sakit dayandı. Sonra çevrilib getdi. Şəhərə piyada düşdü. Evə getməyi gəlmirdi. Gecəyə hələ çox vardı. Evdə təkbaşına gecəni gözləməkdan qorxurdu.

Gecələr işi düzəlirdi. Hər gecə yuxu görürdü. Yuxuları da elə tünlük olurdu ki... *o qədər adam olurdu yuxularında, gəl görəsən!* Taytuşları, dost-aşnaları, curları-kişilər, məktəb vaxtının yoldaşları, uşaqlıq, gənclik dostları gəlib əllərini onun çiyninə vurur, ay Səfdər, yenə

bu çötkəni qoymusan qabağına, hesabla görək dünyanın axırı haçandır? – deyirdilər. Yuxusuna çoxlu arvad da gəlirdi, anası, bacıları, bibisi qızları. Düyməsini tikər, paltarlarını yuyar, ütüləyər, xörəyini asardılar. Hər gecə Minanı görürdü, hər gecə də səhərə yaxın Mina başqa şəhərə köçür, ya da onu qoyub harasa gedirdi. Səfdər nə əlac eləyirdisə, saxlaya bilmirdi onu. Saat yeddini vuranda gözlərini açar, durub geyinərdi. Görəsən yuxuda ölənləri harda basdırırlar.

Tez-tez yuxuda qızı Nərminəni görürdü. Nərminəni iki il idi əriylə bir yerdə Afrikaya göndərmişdilər. Qvineyada sovet xəstəxanasında işləyirdilər. İkisi də həkim idi. Səfdər dayı xəritəyə baxmışdı. Qvineya lap dünyanın o başındaydı. İldə iki-üç məktub yazırdılar. Səfdər Minanın ölümünü hələ qızına yazmamışdı. Bu da bir çətin iş idi, gözünə durmuşdu. Qərib yerdədir, ərindən başqa bir qohum, bir yaxın adamı yox...

Səfdərin yuxusunda Nərminə içəri girib anasını soruşurdu:

– Bazara gedib, gələr.

– Yox, ay kişi, *sən mənə düzünü de, lap düzünü de, anam necə* olub, hardadır?

Hər dəfə Nərminə Səfdər dayının yuxusuna gələndə elə bu sualı verərdi: sən mənə düzünü de, lap duzünü de!

Yuxu görmək Səfdərə lap cavanlıqdan qalmışdı. Görürsən adam olur ayda-ildə bir yuxu görməz. Səfdər allahın ver günü yuxu görərdi. *Mina da hər gecə yuxu görərdi. Səhər oyananda yuxularını* bir-birinə dınışardılar. Elə bil hərəsi bir uzaq səfərdən qayıtmışdı. Qürbət ölkələrdə yedikləri, içdikləri özlərinin olmuş, gördüklərini, eşitdiklərini, bir-birinə danışırdılar.

Küçədəki qəzet lövhəsinin qabağında ayaq saxladı. Qəzetin dördüncü səhifəsinə elə bil yuxarıdan aşağıyacan rəqəm səpələnmişdi, istiqraz cədvəli çap olunmuşdu.

3... 5... 6... 9... – rəqəmlər, rəqəmlər, rəqəmlər. Uduşlar. Peşmançılıq.

Səfdər dayı düşündü: bunlar nədir ki, adicə quru rəqəmlər, amma bax, məsələn, 3 altıdan yox, 7-dən sonra gələndə kiminsə bəxti gülür, kiminsə hıçqırığı içində qalır. Bu rəqəmləri belə yox, belə düzsən kimsə umsuq olur, kimisə bir xal yandırır, amma başqa birisinin birdən-birə kefini duruldur.

Dönüb saata baxdı. Yox. Hələ evə getmək tezdir. Adi günlər işdən beşdə çıxırdı. Bu gün qısa gündür, deməli, gecə də iki saat gec gələcək.

"Gəlsənə vağzala gedim, – deyə düşündü, – vağzal qiyamət yerdir. Gələnlər, gedənlər! Heç yerdə o qədər deyib-gülən görmək olmaz. Aerodrom da elədir. Amma aerodrom uzaqdır".

Vağzalın təzə keçidindən perrona çıxdı. Birinci və ikinci perron bomboş idi. Üçüncü perronda çoxlu adam vardı. Bəziləri əllərində iri gül dəstələri tutmuşdular.

İri lövhədə qatarların gəlib-getmə cədvəli asılmışdı, 11 30... 16. 45... 19. 05. Rəqəmlər, rəqəmlər...

Reproduktordan paslı bir səs eşidildi:

– Moskvadan gələn 20 nömrəli qatar 3-cü yola qəbul olunur.

Perrondakılar hərəkətə gəldilər. Parovozun səsi eşidildi. Burnu göründü. Vaqonlar bir-bir ötdü, 4, 5, 6, 7...

Yük xidmətçiləri vaqonlara tərəf yüyürdülər. Yaxalarındakı nömrələr zınqırov kimi atılıb-düşür, bərq vurub parlayırdı: 15, 52, 38, 40...

Səfdər dayı çevrilib pillələrlə aşağı düşdü, vağzalın qarşısındakı meydana çıxdı. İzdihamlı, səs-küylü küçəylə yavaş-yavaş gedirdi. Bankın tanış binasının yanından keçərkən, işin qızğın vaxtında bura gəldiyi saatları xatırladı və düşündü ki, indi bank bağlıdır, işləmir, içindəki bütün rəqəmlər də yatıb. İstiqrazlardakı, pullardakı, növbənöv mühasibat kağızlarındakı rəqəmlər hamısı yatıb. Torpağa səpilmiş toxumlar kimi səssiz, sakit uyuyur. Həftənin birinci günü oyanacaq, qalxacaq, cücərəcəklər.

Küçə saatına baxdı. Saatın əqrəbləri sınıb içinə tökülmüşdü. Elə bil saatın içi vaxtın xarabalığı idi.

Əqrəbsiz saata baxanda adam nədənsə eymənirdi, adamda nə isə anlaşılmaz, müdhiş və vahiməli bir hiss oyanırdı. Elə bil burunsuz bir sifət görürsən.

Saatın yalnız rəqəmləri qalmışdı: 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10,11,12...

Birdən Səfdər dayıya elə gəldi ki, küçədəki adamlar da rəqəmlərə oxşayır. Bax o dar kəmər bağlamış kök arvad 8-ə oxşayır, o iri başlı kişi 9-a, hamilə arvad 6-ya oxşayır. Uzun dimdikli papaq qoymuş oğlan 7-yə bənzəyir. O tərəfdən iki arıq, kəkilli oğlan gəlir – 11. Başqa bir arıq oğlan yumru-matan bir arvadla yanaşı addımlayır – 10.

Səfdər dayı öz-özünə güldü: "Yox, deyəsən bu gün mənim lap yəqin başım xarab olub. Yaxşısı budur, nə qədər gec deyil, gedim evə".

Açarı çıxarıb qapısını açdı. İşığı yandırdı. Keçib pəncərənin pərdəsini araladı. Çayniki suyla doldurub odun üstünə qoydu.

Divardakı təqvimə yanaşdı, diqqətlə baxdı.

5 iyun. 1965. Şənbə:
Günün çıxması saat 3.15 dəqiqə,
batması 21.07 dəqiqə.

"Pah atonnan! – dedi, – zalım uşağı, günü də cədvələ salıblar. Batıb-çıxmasını hesablayıblar. Hər şeyi, hər şeyi inventara salıblar, günü, ayı, göydə neçə ulduz var, hamısını. O gün biri danışırdı, deyir, siçanları, taxtabitiləri, birələri də hesablayıblar. Hansı şəhərdə neçə siçan, neçə taxtabiti, neçə birə var. Hamısını hesablayıb, inventara salıblar. Pah atonnan, a kişilər..."

Səfdər dayı diksindi. Çoxdan bəri otağında eşitmədiyi bir səs eşitdi – zəng səsi.

Evində telefonu vardı, amma lazımsız qutu kimi bir qıraqda atılıb qalmışdı. Yuxuya getmiş tənbəl, qara pişik kimi səssiz-səmirsiz, kirimişcə xumarlanırdı. İndi isə zəngi zəngə calayırdı. Kim ola?

Dəstəyi götürdü.

– Allo!

– Aydını çağırın, pojalyusta!

– Hara zəng eləyirsən, qızım?

– Ağayevgilin evi deyil?

– Xeyr, bala, Atayevin evidir.

– Oh, bağışlayın.

Asdı. Du, du, du, du, du...

Səfdər də telefonun çəngəlini basdı. Amma dəstək əlində qaldı. Nədənsə onda qəribə bir həvəs oyanmışdı. Kimləsə telefonla danışmaq istəyirdi. Elə bil ancaq indi ağlına gəlmişdi ki, telefonu var və bu telefonla danışmaq olar. Kimə zəng eləyim görəsən?

Dəstəyi yerinə qoydu. Telefonun altındakı masanın pərçim olmuş siyirtməsini açdı, oradan tozlu mixəyi bir dəftər çıxartdı. Dəftəri açdı.

Elə birinci səhifədəcə Minanın xəttini görüb kövrəldi.

A. hərfində Minanın xəttiylə "Atayev Səfdər" sözləri və onların telefon nömrəsi yazılmışdı. 4-15-20. Mina həmişə zarafatla üç şahı bir abbası deyərdi.

İkinci səhifəni açdı.

B. hərfində Babanın telefonu yazılmışdı. Yazıq Baba. Davadan qayıtmadı. Elə bil lap Babayçün deyiblər ki:

Sən ki bir od-yalovdun,
necə yatdın yerdə sən?

Şir, pələng kimi oğlan idi, yazıq.

V. hərfində iki ad yazılmışdı: "Validə". Validə Minanın kiçik bacısı idi. İki ildir əriylə Nuxaya köçüb gediblər. Bir də "Vahidov". Vahidov kimdir? Səfdər dayı nə qədər fikirləşdisə də yadına sala bilmədi.

Q. hərfində yazılmış ad bərk-bərk qaralanmışdı. Mina qaralamışdı. Yazıq yaman kölgəsindən qorxan idi. Əlbəttə mənimçün qorxurdu.

Qulamı aparanda qaralayıb, 55-ci ildə Qulam qayıtdı gəldi. Amma daha o 20 il bundan qabaqkı nömrəsini qaytarmayacaqdılar ki... Yəqin, təzə nömrə veriblar.

D. hərfində Dadaşın nömrəsi yazılmışdı. Səfdər dayı Dadaşa zəng eləmək istəmirdi. Cavanlıqda bərk dost idilər. Sonra aralandılar. Bayaq Məmməd Nəsir nə gəvəzələyirdi? Ay səni, Məmməd Nəsir. O vaxt Dadaşı gündə çağırırdılar. Yaxşı, məni niyə çağırmırdılar, Məmməd Nəsiri niyə çağırmırdılar? Əlbəttə. Dadaş gedənlərin çoxuyla daha artıq bağlıydı. Bəlkə ona görə çağırırlarmış. İndiki kimi yadımdadır, bir gecə bizə gəldi. "Arağın var?" "Bilirsən içən deyiləm" - dedim. "Bilirəm, – dedi, – onunçün də özüm gətirmişəm. Barı bir şey ver". Pendir-çörək gətirdim, bir az da göyərti. Oturdu yarım litrəni təkbaşına içdi. Özü də dinməz-söyləməz. Bir kəlmə dinib danışmır. Mən də oturub buna baxıram. İçdi, şüşəni başa çatdı. "Eh, ay Səfdər, – dedi, – birini bilirsən, birini bilmirsən". Sözləri indiyə kimi qulağımdadır: – "Sənə nə var ki, xoşbəxt adamsan". Papağını qoydu getdi. O gündən gördüm, bəli, deyəsən mənə bir az suçlu baxır, belə bir cür gen gəzir. Mən də özümü heç o yerə qoymadım. Daha heç soruşub, eləmədim ki, bəs nə olub? Salamələyküm, əleykəsalam, Vəssalam, Dadaş belə Dadaşdı.

E. hərfi boş idi.

Ə. hərfi "Əliyev Tahir". Əliyev Tahir? Hə, hə, yadıma düşdü. Bir vaxt qonşu idik. Amma neçə ildir bir-birimizə rast gəlmirik. Küçədə görsəm heç tanımaram. Yəqin, mənim heç adım da onun yadında deyil.

İ. "İdris". Maşallah, İdris. Məndən üç yaş böyükdür, amma turp kimidir. Həmişə dağda-daşda. İndi də eşitmişəm Zaqatala tərəfdə qızıl axtarır. Bu telefonu niyə çəkdirib bilmirəm. Heç vaxt Bakıda tapılmırlar, nə özü, nə arvadı. "Geoloq babayam, – deyir,– şəhərdə nə işim var? Mənimki dağdı, daşdı". Bəlkə indi mənim bəxtimdən şəhərdə ola? Qoy bir zəng eləyim.

Dəstəyi götürüb nömrəni yığdı. Uzun zaman aralı siqnallara qulaq asdı. "Hardan olacaq? İndi görəsən hansı dağda, hansı meşədə çadır qurub oturub?!".

M. Məmməd Nəsir. "Ay onun başı batsın. İndi yəqin, lül atəşdi. Fağır oğlu məhv elədi özünü, zay oldu bu içkiylə. Əvvəllər yenə bir əndazası vardı. İndi lap ağ eləyib. Adama nə qədər deyərlər, nə qədər öyüd-nəsihət eləyərlər. Uşaq deyil ki, sinli kişidir, saçı, saqqalı ağarıb. Ağlayır, söz verir, üç gündən sonra yenə görürsən lülqəmbərdir. Özü də kimnən gəldi içir, başlayır, ağzını Allah yoluna qoyub axvayı-axvayı danışmağa. Uşaqlar yaxşı deyirlər ki, Məmməd Nəsirin qarnını doldur, ürəyini boşaltsın.

N. "Nəbiyev Əsgər" Əsgər yazıq da bildir öldü. Evə gəlib pencəyini çıxardıb. "Arvad, mənə bir çay" deyib, elə oradaca canı çıxıb. Bu ürək zəhrimarın da belə işi var da!

R. Rəhim. "Yox, bala. Rəhim indi böyük adamdır. Əli böyüklərin ətəyindədir. Zəng eləyəcəyəm, deyəcək görəsən nə işi düşüb. Bir də ki, yəqin, heç bu nömrə də düz deyil. Axı böyük adamlar vəzifəyə keçən kimi o saat telefonlarını dəyişirlər.

S. "Səfdər Atayev" 4-15-20. Bu səhifədə nömrəsini öz xəttiylə yazmışdı.

T. "Teyyub". Şənbə günü Teyyub Bakıda qalan deyil. Mərdəkanda beli alıb əlinə, düşüb bağın canına. Bu il də yəqin, mütləq bir səbət üzüm göndərəcək. Yadından çıxan deyil.

X. H. Ç. – səhifələr ötdükcə Səfdəri qüssə basırdı. Elə bil yeganə kibrit qutusunda ancaq yanıq kibritlər qalmışdı.

F. "Fərhad". Fərhad Moskvadadır.

U. "Ulduz". Ulduzgil təzə evə köçüblər. Yəqin, hələ telefon çəkdirməyiblər.

Dəftər köhnə orfoqrafiya vaxtından qalmışdı. Hələ iki hərf dururdu. Ö və Ə.

Ö hərfi boş idi:

Səfdər dayı aramla, ehmallıca son səhifəni açdı.

Ə səhifəsində "Yaşar" sözü yazılmışdı, amma nədənsə telefonunu yazmaq unudulmuşdu. Telefon nömrəsi yox idi, – elə yalın-yalxı Yaşar.

Dəftəri qapadı və birdən gözü arxa cilddə yenə Minanın xəttinə sataşdı. Mina iri çap hərfləriylə:

Yanğın 01
Milis 02
Təcili yardım 03

yazmışdı.

Səfdər dayı öz-özünə gülümsünüb dəstəyi qaldırdı.

Sıfırı çəkdi, əlini birə uzatdı, birdən ağlına gəldi ki, yanğın idarəsiylə zarafat eləmək olmaz. Adamın atasını yandırarlar. Hər halda, telefonu lap yəqin kəsdirərlər.

İstəmirdi ki, telefonunu kəssinlər. Dinməsə də qoy bir qıraqda durub qalsın. Necə olsa bir həyandır.

02 ilə də zarafat etmək olmazdı. 03-nən də həmçinin.

Bəs, 04? Görəsən, 04 telefon varmı? Görəsən, haradır? Bəlkə bu nömrəni yığıb elə-belə danışmaq olar? Səni sorğu-suala tutmadan iki-üç kəlmə xoş söz deyərlər, hal-əhval tutarlar, kefini soruşarlar, ürəkdirək verərlər?

Səfdər dayı 04 yığdı. Telefondan heç bir səs çıxmadı. Nə uzun siqnallar, nə də qısa! Heç bir səs gəlmədi. Sanki bu, mövcud olmayan bir ərazi idi.

05-i çəkdi. Yenə səs çıxmadı.

06-da hay vermədi.

07-də tez-tez qısa siqnallar eşidildi. Məşğul idi.

08 də məşğul idi.

Səfdər dayı son nömrəni – 09-u çəkdi və dəstəkdə dərhal səs eşidib özünü itirdi, karıxıb:

– Salaməleyküm, Səfdərdir, – dedi.

Quru bir səs eşidildi:

– Kim? Familini aydın deyin.

– Famili?.. Atayev. Atayev Səfdər.

– Ünvan?

– Mirzə Fətəli, 45.

– Gözləyin.

Məsələ Səfdərə sonra çatdı. Başa düşdü ki, məlumat bürosuna zəng eləyib, arvad da elə bilib bu telefon nömrəsini istəyir.

Onu gülmək tutdu, amma dəstəyi asmadı. Dəstəkdən səs gəldi:

– 4-15-20. Səfdər:

– Lap düzdür, – dedi, – üç şahı, bir abbası.

Ancaq qız onun sözlərini eşitmədi. Dəstəyi qoymuşdu.

Səfdər dayı da dəstəyi qoydu. Pıqqıldayıb güldü.

Birdən fikirləşdi ki, görəsən, adam öz telefonuyla öz nömrəsinə zəng eləsə nə olar?

Görək. Dəstəyi götürüb nömrəni çəkdi. 4, 1, 5, 2, 0... Aha. Tələsik, aramsız, kəsik siqnallar eşidilməyə başladı.

– Du, du, du, du, du, du, du...

Səfdər dayı:

– Məşğuldur, danışır,– dedi. Güldü, sonra nədənsə bir az tutulan kimi oldu.

Dinləməyə başladı. Bir xeyli qulaq asdı.

Dəstəkdən zahlətökən bir ardıcıllıqla səslər eşidilirdi: du, du, du, du, du...

Elə bil payız günü evin damır...

NƏRMİNƏNİN ATASI SƏFDƏRƏ VƏ ANASI MİNAYA MƏKTUBU

Mənim əzizlərim! Ana və ata! Uzaq Qvineya diyarından sizə çox-lu-çoxlu salam göndərirəm. Sizinçün burnumun ucu göynəyir. Əvvəlcə, sizə bir şad xəbər vermək istəyirəm: hər ikiniz baba və nənə olmusunuz. Özüm qəsdən bu barədə sizə heç nə yazmırdım ki, anam nigaran qalmasın. Bilirəm axı, yaman vasvasıdır. İndi hər şey yaxşı qurtarıb və on gün bundan qabaq balaca bir oğlan nəvəniz dünyaya gəlib. Hüsü deyir ki, atama oxşayır, ancaq burnu lap səninkidir, ay ana. Adını hələ qoymamışıq. Ay ata, mən istəyirəm sənin adını qoyaq; ancaq Hüsü deyir ki, iraq-iraq, sağ olan adamın adını qoymazlar. Dedim, sizlərdə qoymurlar, amma bizlərdə qoyurlar. Dedim bizlərdə belə qayda var ki, birinci uşağa babasının adını qoyurlar. Heç özüm də bilmirəm belə qayda var, ya yox, ancaq hər halda Hüsünün başını tovlamaq üçün belə dedim. Çünki çox istəyirdim sənin adını qoyam, ay ata. Uşağın adını çağıranda elə bilərəm siz də yanımdasınız bu qərib yerdə. Qız olsaydı sənin adını qoyacaqdım, ay ana. Ay ana, qurbanın olum, səndən yaman nigaranam. Hər gecə səni yuxuda görürəm. Elə qatmaqarışıq yuxular görürəm ki, heç olmasa mənə bir əlcə kağız yazaydın. Atama bax, gözünə su ver, hər ay müntəzəm mənə məktub yazır. Bizim əhvalımızı xəbər alsanız, güzəranımız pis keçmir. Hüsünün burda yaman hörməti var. Burda həkimlərə çox ehtiyac var. Elə xəstələr, elə xəstəliklər var ki, Allah göstərməsin. Camaat çox mehribandır. Amma çox kasıbdırlar yazıqlar.

Hə, balaca Səfdər oyandı, başladı bağırmağa. Yəqin acıb, köpəkoğlu yaman qarınquludur.

Öpürəm sizi bərk-bərk:

P.S. Hüsü sizə çoxlu salam göndərir.

Qızımız Nərminə

BİR DƏ MƏN GÖRSƏM Kİ...

Yazılana pozu yoxdur(?)

Nemət düyməni basdı:

– Hə, bir şey deyin.

Sürəyya: yazır?

Nemət: Hə. Bir şey deyin.

Sürəyya: nə deyək?

Nemət: nə bilim, bir şey deyin də.

Sürəyya: aha... Demək, mən demək istə... Yox, demək mən demək, yaxşı çıxmadı. Dayan... hə... Deməli...ıhı, ıhı, (öskürür). Deməli, mən demək istəyirəm ki... Bu gün ayın 5-dir. İyunun. 65-ci il... Demək, sən almısan maqnitofon.

Bikə: neçə vermisən buna?

Nemət: yüz doxsan manat. Bikə xala, yaxın gəl. Sən də bir şey de bax bura, maqnitofona.

Bikə: Alyagildə də bundan var. Amma bundan böyük olar. Murtuz Moskvadan gətirib. Deyir 4000 manata almışam. Köhnə pulnan.

Nemət: Karmen, Cilda, Nərgiz! Gəlin, siz də bir şey deyin. (Addımlar).

Karmen: nu çto?

Nemət: qızım, gəl bura. Cilda, sən də yaxın dur. Bax bura de.

Karmen: əşi, nə deyim e...

Nemət: bir şey deyin də...

Karmen: xoxma e... çto skazat?

Sürəyya: əşi, bir şey deyin də. Atanız təzə maqnitofon alıb gətirib.

Karmen: çuvak poşel samıy zadrıpannıy maqnik kupil i teper scans ustraivaet.

Cilda: ne qovari.

Gülüşdülər.

Sürəyya: *kəs səsini, axmağın qızı. Zadrıpannıy! Lap yaxşıdır.*

Karmen: o, maxani polnostyu poddercivact paxana. Troqatelnoye edinoduşiye starşeqo pokoleniya.

Cilda: ne qovori.

Bikə: Murtuzgil pəncərənin qabağına qoyublar. Bundan azı iki dəfə böyük olar.

Karmen: çuvixa v vostorqe ot maqnitofona Murzika, nikak ne uspokoitsya.

Nemət: Nərgiz, qızım, quzum, gəl sən bura.

Nərgiz: mən gəldim.

Sürəyya: qızım, o şeiri denən. Əzbər deyirdin ha...

Bikə: Murtuz deyir dörd min manat vermişəm. Köhnə pulnan.

Nərgiz: istəmirəm.

Sürəyya: əşi, istəmirsən istəmə. Hamısı özünü naza qoyub. Bəsdir *Nemət. Saxla görək necə yazıb.*

Nemət: Nərgiz, sən yenə mənim ruçkamı götürmüsən? Deməmişdim sənə ona əl dəymə? Bir də mən görsəm ki, o ruçkanı götürmüsən, özündən küs.

Nemət düyməni basdı. Lentin hərlənməsini saxladı:

– Görək necə yazıb, – deyə ikinci düyməni basdı. Lenti geri hərlətdi.

– İndi qulaq asaq, – dedi və üçüncü düyməni basdı.

Səslər gəldi:

Nemət: hə, bir şey deyin.

Sürəyya: yazır?

Karmenlə Cilda qışqırışdılar.

– Maxanın səsidir.

Nemət: hə, bir şey deyin də.

Sürəyya: nə deyim?

Sürəyya:

– Mənim səsimdir? – dedi, – heç oxşamır.

Nemət: nə bilim, bir şey deyin də.

Sürəyya: aha... demək, mən istə... yox, demək mən demək, yaxşı çıxmadı, dayan...

Hamısı gülüşdü:

Karmen:

– Demək, mən demək istə, – deyə anasının səsini yamsıladı.

Sürəyya:

– *Əşi, qoyun qulaq asaq da,* – dedi. *Maqnitofondan səsi gəldi:*

– Bu gün ayın 5-dir. İyunun. 65-ci il. Demək, son almısan maqnitofon. Nemət:

– Lap tatar kimi danışırsan, – dedi. "Demək, sən almısan maqnitofon".

Maqnitofondan Bikə xalanın səsi gəldi:

– Necə vermisən buna?

Nərgiz:

Nənə, sənsən, ay nənə, – deyə cır səslə çağırdı.

Karmen:

– A çuvixa ne mojet, – dedi – obyazatelno doljna spravitsya o sene.

Yenə gülüşdülər.

Bikə xala:

– Murtuzgil də səsimi yazmışdı, – dedi, – lap öz səsimə oxşayırdı. Amma burda heç oxşamır.

Maqnitofondan yenə Bikə xalanın səsi gəldi:

– Alyagildə də bundan var. Amma bundan böyük olar.

Alya Bikənin böyük qızı, Sürəyyanın böyük bacısı idi.

Bikə: Murtuz Moskvadan gətirib.

Karmen:

– Vot eto maq, ya ponimayu, – dedi.

Bikə: deyir 4000 manata almışam. Köhnə pulnan.

Nemətin səsi gəldi:

– Karmen, Cilda, Nərgiz, gəlin siz də bir şey deyin.

Maqnitofondan addım səsləri eşidildi. Sonra Karmenin səsi gəldi:

– Nu çto?

Karmen təəccüblə:

– Mənəm, – dedi.

Cilda:

– Yox, bəs mənəm, – dedi, – koneçno tı.

Karmen: xoxma e... çto skazat?

Sürəyya:

– Xoxma-moxma. Bunların danışığına bax, – dedi. Maqnitofondan səsi gəldi:

– Əşi bir şey deyin də... Atanız təzə maqnitofon alıb gətirib.

Karmen: çuvak poşel samıy zadrıpannıy maqnik kupil...

Nemət:

– Qızım, – dedi, – vallah, mənə dedilər ki, bu pis marka deyil.

Cilda: ne qovori.

Maqnitofonda gülüş səsi eşidildi. Sonra Sürəyyanın səsi gəldi:

– Kəs səsini, axmağın qızı...

Karmen:

– Doğma qızınla gör necə danışırsan, – dedi. – İ uçti, eto uje zapisano. Daha sözüvü obratno götürüb dana bilməzsən. Dokazatelstvo na litso.

Maqnitofondan səsi gəldi:

– O, maxani polnostyu podderjivayet paxana.

Cilda:

– Ne qovori, – dedi və həmin andaca onun səsi maqnitofonda təkrar edildi:

– Ne qovori...

Bikə xala:

– Alyagilinki bundan böyük olar. – deyə sözə başladı, amma elə bu an öz səsini eşidib susdu:

– Bundan azı iki dəfə böyük olar.

Karmen: çuvixa v vostorqe ot maqnitofona Murzika.

Sürəyya:

– Bay, biabırçılıq, – dedi. – Murzik nədir, az, eşidər, inciyər. Biabır olarıq.

Karmen:

– Nə var ki, – dedi, – tyotya Alya ona həmişə Murzik deyir.

Bikə xala:

– Alya arvadıdır, – dedi, – o başqa, sən başqa.

Maqnitofondan Nərgizin səsi gəldi:

– İstəmirəm.

Sürəyya: əşi, istəmirsən, istəmə. Hamısı özünü naza qoyub. Bəsdir. Nemət, saxla görək necə yazıb.

Nemət: Nərgiz, sən yenə mənim ruçkamı götürmüsən. Deməmişəm sənə ona əl dəymə? Bir də mən görsəm ki...

Birdən-birə sükut başlandı. Lent səssiz-səmirsiz hərlənirdi. Yazı burda qurtardı. Nemət düyməni basdı:

– Vəssalam, – dedi.

Sürəyya.

– Əntiqədir, – dedi, – nə cür danışmışıq, hamısı düşüb.

Karmen:

– A çto tı dumala. – dedi, – sən bir şey danışacaqsan, orda başqa şey düşəcək?

Gülüşdülər.

Süroyya:

– Allah haqqı, lap möcüzədir, – dedi.

Karmen:

– V kakom veke vı jivyote, lyudi? – dedi, – camaatçün maqnitofon proydennıy etap. A bunlar indi ayılıblar. Potryasenı çudom texniki.

Cilda: – Ne qovori, – dedi, – xoxma e...

Nemət:

– Balam, özünüz maqnitofon istəmişdiniz, – dedi, – Başımı keçəl eləmişdiniz. Mən də alıb gətirmişəm də.

Sürəyya:

– Lap yaxşıdır, – dedi. – Sən bu sırtıqlara fikir vermə, qələt eləyirlər.

Bikə xala məzəmmətlə:

– Heç nəyi bəyənmirlər, dedi. – Alyanın uşaqları da belədir.

Sürəyya:

– Amma doğrudan qiyamət şeydir, - dedi. – Mən heç öz səsimi tanımazdım. Elə bil özgə adamdır.

Nemət:

– Heç kəs öz səsini tanımır, – dedi. – Çünki elə belə həyatda biz səsimizi olduğu kimi eşitmirik.

Sürəyya:

Sən mənim canım, qoy bir də qulaq asaq, – dedi.

Karmen:

– Nu ujc prostite, – dedi. – Eto ispıtaniye vışe moix sil.

O da, Cilda da o biri otağa keçdilər. Nərgiz də onların dalınca qaçdı. Nemət düyməni basdı. Dinləməyə başladılar. İlk sözlər, cümlələr ötdü.

Maqnitofondan Sürəyyanın səsi eşidildi:

– Demək, mən istə...

O biri otaqdan Karmen qışqırdı:

– Demək, mən istə...

Nemət başını buladı:

O biri otaqdan Karmenin səsi gəldi:

– Seyças çuvixa naçnyot rasxvalivat maqnitofon Murzika.

Dərhal maqnitofondan Bikə xalanın səsi eşidildi:

– Alyagildə də bundan var. Amma bundan böyük olar.

O biri otaqda qəhqəhə vazları cingiltiylə sınıb dağıldı.

Axıra qədər qulaq asdılar. Qızlar o biri otaqdan replikalar atır və maqnitofon onların sözlərini tutuquşu kimi təkrar edirdi: artıq onlar yazını əzbər bilirdilər.

Əslinə qalsa, Nemət də hansı sözdən sonra hansı sözün, kimin səsindən sonra kimin səsini eşidəcəyini bilirdi. Dil yanıltmacları, danışıq büdrəmələri, nəfəslər, öskürəklər, gülüşlər, hamısı cağbacağ öz yerində sabit və dəyişilməz donub qalmışdı.

Maqnitofondan Nemətin səsi eşidildi:

– Bir də mən görsəm ki...

Sonra lentlərin sükutu hərlənməyə başladı.

Nərgiz o biri otaqdan qaçıb gəldi. Qaçanda iki nazik hörüyü siçan quyruğu kimi çiynində atılıb-düşürdü.

– Ata, – dedi. – Bir də görsən nə edərsən?

Nemət:

– Ay şeytan, – dedi. – Bir az tez saxlamışam, sözüm yarımçıq qalıb. Amma bax deyirəm: bir də mənim ruçkamı götürsən, atanı yandıracağam.

Nərgiz dinməzcə mətbəxə getdi. Kibrit gətirib atasına uzatdı.

– Yandır, – dedi.

Nemət gülüb qızını qujağına götürdü. O üzündən, bu üzündən öpdü. Yerə qoydu.

Qapı döyüldü.

Açdılar.

Mürşüdün daz başı göründü. Mürşüd:

– Döy taxta qapımı, döyərəm dəmir qapını, – dedi, – gülmə qonşuna, quyuya özün düşərsən, – bu, onun danışıq manerası idi. Qəsdən müxtəlif zərb-məsəlləri bir-birinə calayıb deyər, ya da təhrif edərdi.

İki qatar qızıl dişləriylə gülə-gülə içəri girdi.

– Ay salaməleyküm, ay hər vaxtınız xeyir. Necəsiniz? Yaxşısınız. – Bu da onun zarafat formalarından biri idi. Özü sual verib özü də cavab verərdi: "Saat neçədir? Beşin yarısı. Hardan gəlirsən? İşdən". Sonra da gülərdi.

Mürşüd Nemətgilin qonşusu idi. Özü də diş həkimiydi. Kimsə haçansa demişdi ki, bu Mürşüd yaman bəmzə oğlandır və bu sözlərlə onun evini yıxmışdı. Məzəlilik, neçə deyərlər, ağır bir yük kimi onun boynuna düşmüşdü. Hər yerdə, hər məclisdə, hər saniyə, hər dəqiqə məzəli olmaq yolunda yeddi qat qabıqdan çıxardı. Mürşüd gələndə sosi otağı başına alardı, otağı güclü radiostansiya efiri dolduran kimi doldurardı.

– Nizami demişkən, cücəni payızda sayarlar, dedi.– İndi gəlmişəm, Nemət qağa, səndən qisas alım.

Dünən Nemət şahmatda onu dörd əl dalbadal udmuşdu.

– Dünən xoruzumu verdin qoltuğuma. Arvad sübh tezdən məni oyadıb ki, get bir toyuq da al evdə ptisaferma düzəldək. Dedim, arvad

heç elə söhbət yoxdur, – əlini daz başına çəkdi, – eşitməmisən keçəl suya getməz. Bu xoruz əmanətdir. Nemət qağadan ölborcu almışam. Sabah şəxsən aparıb qağamın qoltuğuna verəcəm. Nizami demişkən: borclu borclunun sağlığını istər.

Nemət:

– Nizami müəllimin bir başqa kəlamı da var, – dedi. – Rəhmətlik yaxşı deyib ki, daldan atılan daş dəysə-dəysə, topuğa dəyər, – o da Mürşüdün yumoruna alışmış və onu mənimsəmişdi.

Mürşüd:

– Ay Allah ölənlərinə rəhmət eləsin, – dedi. – İndi mən səni elə udacam ki, heç Nizaminin Gəncədə ruhu da inciməsin.

Nemət:

– Məni şahmatda udmaq, tul işdir, – dedi. – Mən yaxşı məktəb keçmişəm. Müharibə vaxtı, uşaq idim onda, anamdan gizlin qonşunun oğluyla marqarinə oynayardıq. Bilirdim ki, ölsəm də gorək udam. Doğrudan bir dəfə də uduzmadım.

Mürşüd:

– O ki qaldı mənkuhatın müəzzəm faidələrinə, burada mətləb bir az tuldur, – dedi.

Mürşüddən beş dəqiqə sonra Mənzər gəldi. Mənzər Mürşüdün arvadı idi. Həmişə də belə edərdilər. Ya əvvəl ər gələrdi, beş dəqiqədən sonra arvad təşrif buyurardı. Ya da tərsinə.

Mənzər:

– A kişi, hardasan, səhərdən səni axtarıram, – dedi. – Salamələyküm. Nemət qardaş.

– Hardayam? Çəkməmin üstündə, papağımın altında, köynəyimin içində.

Mənzər şaqqıldayıb əliylə ağzını yumdu,

– Aa, aa, – dedi. – Bacı, deyəsən, xəmir yoğurur. Mürşüd, səsivi çıxarma, düşbərə-qutaba qonağıq.

Mürşüd:

– Mən srağagündən hazır, – dedi, – mən düşbərə-qutabın köhnə Məcnuniyəm.

Sürəyya:

– Gözümüz üstə yeriniz var, – dedi. – Sabah üçdə buyurub gəlin.

Mürşüd:

– E, yox, – dedi. – Nisyə girməz kisəyə. Sabah nisyə söhbət oldu. Çərxi-dövranı bilmək olmaz. Zəifcanlı oğlanam. Qan təzyiqim yüksək,

özüm də radikulit. Nə bilim sabaha salamat çıxacağam, yoxsa yox. Nizami yaxşı deyib ki, bu günün işini sabaha qoyma:

Mənzər:

– A, bacı, mübarək olsun, – dedi. – Deyəsən, təzə priyomnik almısız.

Mürşüd iki əlini daz başına vurdu:

– Vaxsey, vaxsey, arvad, – dedi. – Məni biabır elədin. Ağız, bu ki maqnitofondur, priyomnik deyil, çox mübarək, sağlığınıza qismət olsun, mən də bayaqdan görmürəm.

Mənzər:

– Nə bilim, a kişi, – dedi, – evimizdə bişməyib, qonşudan gəlməyib...

Mürşüd "ciddiləşdi".

– Yox, arvad, sən lap ağ elədin. Qonşun sənə düşbərə– qutab bişirir, bəs deyil, hələ üstəlik maqnitofon da bişirsin?

Mənzər şaqqanaq çəkdi:

– Ay kişi, heç bəndə sənin dilinə düşməsin.

Mürşüd:

– Yox da, – dedi, xeyli gülüb birtəhər sakitləşdi. – Mən ölüm, düz demirəm, Nemət qağa? Kişisən, vur bura. Deyir, qonşuda bişməyib. Balam hansı vilayətdə görünüb ki, qonşu-qonşuya maqnitofon alsın?

Bikə xala:

– Sizin kimi qonşuya adam lap canını da qurban eləyər, – dedi. – Vallah, xeyirdə, şərdə qonşu adama qohumdan yaxın olur.

Nemət: "Qonşu mövzusu, – deyə düşündü, – on beş dəqiqə çərənləyəcəklər".

Mürşüd:

– Can Bikə xala, – dedi,– varam sənin o bal kimi şip-şirin şəkər dilinə. Belə dili olan adamın dişləri də gərək cabaca olsun. Sabah gəl sənə müftəcə düz otuz iki dənə təzə diş qoyum. Amma, Nemət, zarafat bir yana dursun, qonşuluq ki var, doğrudan ayrı aləmdir.

Nemət: "Yox, deyəsən tab gətirə bilməyəcəyəm", – deyə düşündü. – "Mürşüdün yumoruna birtəhər davam gətirmək olar, amma üstəlik izhari-məhəbbətinə də qulaq asmaq!".

– Əlbəttə, Mürşüd, – dedi, – söz ola bilməz ki, qonşuluq ayrı aləmdir, – Birdən gözü maqnitofona sataşdı. – Bilirsən, dedi, indicə səsimizi yazmışdıq. Qiyamət çıxıb, qulaq asmaq istəmirsiniz?

Mürşüd:

– Bax, bu olar, rəhmətlik Nizami demişkən əmiri. Qur, qulaq asaq, Nemət qağa. Yaxşı deyiblər ki, hər şeyin köhnəsi, maqnitofonun təzəsi.

Nemət maqnitofonu qurdu. Hər adamın səsi gələn kimi Mənzər içini çəkirdi:

– Vaxsey, vaxsey, Nemət qardaşdır, Mənzər canı, Nemət qardaşdır. Sürəyya bacı. Sürəyya bacıdır. Oh, Bikə xala, canımçün, Bikə xaladır, elə bil maqnitofondan ən azı Nəsrəddin şahın səsi gəlməli idi, onun yerinə Nemət, Sürəyya, Bikə xala danışıb Mənzəri mat-məəttəl qoyurdular.

Mənzərin kəşfləri davam edirdi:

– Karmeniçka, Cildiçka! deyə çığırırdı.

Mürşüd:

– Murzik,– deyə dik atıldı. – Murtuz, Balayeviçi deyir? Evinəcən, Karmen bala! Ay sənin oyunun olsun.

Maqnitofondan Nemətin səsi gəldi.

– Bir də mən görsəm ki...

Sonra sükut başlandı.

Nemət:

– Vəssalam, – dedi, düyməni basdı.

Mürşüd:

– Görsən neyləyəcəksən, Nemət? – dedi. – Mən ölüm, qulağıma pıçılda.

– Heç nə, əşi...

Mənzər:

– Vaxsey, vaxsey, qiyamət imiş, – dedi. – Nemət qardaş başına dönüm, ver bir də qulaq asaq.

Nemət düyməni basdı. Bir də qulaq asdılar.

Mənzər yenə səsləri tanıyır:

– Sürəyya bacı! Bikə xala! Vay evinəcən, – deyə qışqırırdı:

Yenə Nemətin səsi gəldi.

– Bir də mən görsəm ki...

Nemətlə Mürşüd şahmat oynamağa başladılar.

Mürşüdün adəti vardı. Oynayan vaxtda aramsız danışır, oxuyardı.

– Deyir, çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu. Yaxşı, Nemət müəllim, mən burdan sənə şah desəm, hara gedərsən? Aha, bura, çox gözəl, çox da pakizə, deyir qızım sənə başmaq alım, al dədə, qurbanın olum. Al, bir dənə də şah. Deyir şax, şax, uşaqsan, uşax. Dərsə gedən bir uşaq, çıxdı buz üstə qoçaq, durdu qoçaq neylədi, buza belə söylədi. Nə söylədi, söylədi ki, mən bu topu götürürəm, bu atla, soruşsan niyə deyərəm neçin ki, lazımdır, Deyir, dağlar dağımdı mənim,

qəm oylağımdı mənim, dindirmə, deyir, qan ağlaram, çünki yaman çağımdır mənim, hə... ki... qızı verdilər keçələ, bəs bir gün gördülər... nə gördülər, gördülər ki... şah, bir də şah deməli, belə getdin, çox yaxşı, indi sən mənə şah deyirsən, lap əcəb eləyirsən, – birdən-birə elə bil Mürşüdün söz axını qurudu, bir az tutulan kimi oldu, başını qaldırıb maddım-maddım Nemətə baxdı, – boy, mən matam ki, – dedi, – ə, bu necə oldu, ə? Bu biri topu görmədim zəhrimarı, ay sənin saqqalın ağarsın, pah atonnan, udmuşdum e, əməlli-başlı səni sıxışdırırdım, tfu, andıra qalasan belə oyun. Yaxşı, birini də düzək.

Dəhlizdən səslər gəldi.

Sürəyya:

– Xoş gəlmisiz, keçin içəri, – deyirdi.

Nemət səslərindən gələnləri də tanıdı. Sürəyyanın ortancıl bacısı Tahirə və onun əri Cabbar idi.

Nemət ayağa durub onların qabağına çıxdı.

Cabbar Allahın fağırı idi. Vur qapazı başına, al çörəyi əlindən. Tahirə isə atmaralı idi.

Ər də, arvad da kimyaçı idilər. Ər elmlər namizədi. Arvad elmlər namizədi. Ər indi doktorluq dissertasiyasını yazırdı.

Cabbar sözləri çox aydın və təmkinlə tələffüz edər və sırf ədəbi dildə danışardı: "Mən və Tahirə artıq beş ilə yaxındır ki, nikahdayıq. Biz mütəmadiən hər axşam dənizkənarı bağa gedib təmiz hava qəbul edirik" və b. k.

Sısqamətən bir oğulları vardı. Nemət onu görəndə ürəyindən qara qanlar axırdı. Çünki haçan görsəydi Tahirə ritorik suallarla uşağın canını boğazına yığırdı: "Alik necə çörək yeyir? Alik pis çörək yeyir. Bəs, Fatik necə yeyir? (Uşağın adı Fuad idi) Fatik yaxşı yeyir. Alik mamasını neyləyir? Alik mamasını incidir. Bəs, Fatik? Fatik mamasının sözünə baxır".

Uşaq bütün bu ritorikanı çox laqeyd və biganə görkəmlə dinləyirdi. Mənfur Alikin kim olduğunu heç kəs bilmirdi. Tahirə özü də bilmirdi. Nemətə elə gəlirdi ki, bu mifik bir varlıqdır. Fatikin mələkliyiylə müqayisə üçün peyda olmuş bir iblisdir.

Bir həftə bundan qabaq Cabbargil təzə mənzilə köçmüşdülər.

Amma köçməyə çoxdan hazırlaşırdılar. Altı ay söhbətlərinin əsas mövzuları mənzil məsələsi idi.

Bundan əvvəl isə düz üç il ayrı mövzuları vardı. Üç il bundan qabaq Dunayla səyahətə çıxmışdılar, altı ölkədə olmuşdular. Nemət

düşünürdü ki, özlərinə bilmirəm, amma camaata bu səyahət çox baha oturdu. Kim, harda, nədən danışsaydı Tahirə dərhal onun sözünü ağzında qoyub deyərdi:

– Yadında, Caboş, biz Rumıniyada olanda...

(Ümumiyyətlə, onda bu xasiyyət vardı, birinci növbədə ərinin, sonrakı növbələrdə başqalarının sözünü yarımçıq kəsib ya etiraz edər, ya təshih edər, ya da tamam başqa, heç dəxli olmayan bir məsələdən danışmağa başlardı).

Cabbar da təmkinlə:

– Bəli, Tahirə, – deyə cavab verərdi. – Lap yaxşı yadımdadır.

Tahirə ərini Caboş çağırırdı. Bilmirəm bu bacılarda nə adətdir. Alya da o boyda zırpı kişiyə Murzik deyir.

– "Caboş, Murzik! Yaxşı ki, Sürəyya mənə belə bir ad qoymayıb".

Nemətin yanında Caboş, ya Murzik deyəndə əti tökülürdü. Çimkinirdi, elə bil qapının dalından açıq-saçıq bir səhnə, ya başqasının yığışılmamış yorğan-döşəyini, yad adamın alt paltarını, ya nə bilim nələr görürdü.

Tahirə:

– Caboş, – dedi, – görürsən. Sürəyyagil təzə maqnitofon alıblar.

– Bəli, görürəm. Çox mübarəkdir. Sağlıqlarına qismət olsun.

– Sağ ol.

– Yadında, Caboş, Avstriyada maqnitofon gördük e, belə sarı qutuda?

Nemət: "Aman Allah", – deyə düşündü.

– Təzə eviniz necədir? – deyə soruşdu. Hər halda ev söhbəti nisbətən təzə idi, qulağı yağır eləməmişdi.

Cabbar:

– Yaxşıdır, – dedi. – İki balkonu var. Hündürlüyü üç metr. Köhnə layihəylə tikilib. Qəşəng. – "Qəşəng" onun ən çox işlətdiyi söz idi. – Çox yaxşı oldu, mən elə bilirdim tualetlə hamamı bir yerdə olacaq. Təzə evlərdə belə olur axı... Amma baxtımız gətirib. Qəşəng.

Sürəyyanın içəri girdiyini görüb bir də təkrar elədi:

– Hamam ayrı, tualet ayrı. Qəşəng.

Əliylə qəribə bir hərəkət elədi. Güman ki, tualetin formasını təsvir edirdi.

– Qəşəng, – dedi, – ağ kafel. Mətbəx də, hamam da. Duşu bir balaca...

Tahirə onun ağzından vurub.

– Bilmirəm, nə duş, duş salmısan, – dedi. – Yaxşı, qərara gəldik axı ki, usta çağırıb dəyişdirəcəyik.

Cabbar:

– Əlbəttə, – dedi, – amma mən...

Tahirə:

– Çox evdə kafel vurmurlar, – dedi, – gərək özün vurdurasan.

Cabbar:

– Nemət, – dedi, – bir təmiz, keyfiyyətli kafeldir ki, Tahirənin, Sürəyyanın canıyçün. Baxanda adamın ağzı açıq qalır.

O, həmişə arvadının canına and içirdi. Nemətlə danışanda Sürəyyanı əlavə edərdi. Murtuzla danışanda Alyanı.

Sürəyya:

– Nemət, – dedi, – maqnitofonu qursana! Tahirəgil qulaq assınlar.

Nemət düyməni basdı, dərhal da səsi eşidildi:

– Hə, bir şey deyin.

Tahirə:

– Sənsən? – dedi.

Nemət başını yellədi.

Sürəyyanın səsi gəldi:

– Yazır?

Tahirə:

– Caboş, Sürəyyadır e, – dedi.

Cabbar:

– Qəşəng,– dedi.

Sürəyyanın səsi gəldi:

– Demək, mən demək istə...

Gülüşdülər.

Cabbar:

– Qəşəng, – deyə təkrar etdi.

Karmen "Murzik" deyəndə yenə gülüşdülər.

Mürşüd:

– Murtuz Balayeviçin qulağına çatar, yaxşı düşməz, – dedi, – inciyər.

Tahirə Sürəyyanın qulağına tərəf əyilib Alyagildən nə isə danışmağa başladı.

Cabbar gözlərini qırpmadan diqqətlə qulaq asır, vaxtaşırı:

– Qəşəng, qəşəng, – deyirdi.

Nemətin səsi gəldi:

– Bir də mən görsəm ki...

Sükut.

Mürşüd Cabbarı yeni mənzilləri haqqında sorğu-suala tutmuşdu. Nemət qulağının ucuyla Cabbarın sözlərini eşidirdi.

– ...ayrı, hamam ayrı. Qəşəng.

Cabbargil gedəndə dəhlizdə Sürəyya dedi ki, sabah saat üçdə nahara bizə gəlin. Elə-belə. Özümüz olacağıq.

Bir azdan Mürşüdgil də durdular. Dəhlizdə Sürəyya dəvətini təkrar etdi.

Mürşüd:

– Qapını ayağımızla açaq, əlimizlə? – dedi.

Sürəyya başa düşmədi.

Mürşüd:

– Sürəyya bacı, lap dilbilməzsiniz, – dedi, – deyirəm yəni əlidolu gələk?

Sürəyya:

– Yox, yox, nə danışırsınız, – dedi, – ayıbdır.

Sürəyya boşalmış fincanlar, mürəbbə qabları düzülmüş süfrəni yığışdırmağa başladı.

– Alyagilə özün zəng eləsən yaxşıdır, – dedi. – Murtuzun xasiyyətini bilirsən ki. Mən zəng eləsəm çestinə dəyər.

Nemət dəstəyi götürüb zəng elədi.

– Murtuz Balayeviç, – dedi,– çox xahiş edirik sabah Alya xanımla birlikdə bizə təşrif buyurasınız. Saat üç üçün. Elə-belə, özümüz... Yox, heç bir münasibəti-zadı yoxdur. Öz canımçün düz deyirəm. Vallah, yox. "İşə düşmədik! Xeyr a, gərək anket dolduram". – Əşi, yox, Karmenin yaşı apreldədir. Cildanınkı noyabrda, Nərgizinki mayda, Sürəyyanınkı da maydadır. Mənimki? Mənimki heç bilirəm ki... Hər halda lap yəqin sabah mənim yaşım deyil... Aha... Di sağ olun.

Murtuz Karmenlə Cildanın atası Əsədin cəbhə dostu idi: Bəlkə elə buna görə Nemətlə heç ulduzu barışmırdı. Nemət yazıq ona hər cür ehtiram göstərirdi. Necə olsa böyük bacanaq idi. Nemətdən də, Cabbardan da neçə yaş böyük idi. Özü də çox zəhmli adam idi. Lap, "ağır oturub batman gələnlərdən idi". Boy-buxun, bazburut, maşallah! Çal saçlar. İstefaya çıxmış polkovnik Murtuz Murtuzov.

Orden-medallarının hamısını taxanda sinəsində iynə sancmağa yer qalmazdı. Zövcəsi də özü kimi boylu-buxunlu, gözəl arvad idi.

Firəngiz adlı bir qızları və Spartak adlı bir oğulları var idi.

Nemət:

– Yaxşı, mən gedim yatım,– dedi, – sabah tezdən duracam. Mənzər dəhlizdən içəri boylandı:

– Hələ yatmamısınız ki? Siz allah bağışlayın ha. Mürşüdlə spor eləmişik. Deyir orda Bikə xalanın səsi yoxdur. Qurban olum, Nemət qardaş, qoy ona bir də qulaq asım, özüm öz qulağımla.

Nemət maqnitofonu qurdu:

– Qurtaranda bu düyməni basın, – dedi.

Özü o biri otağa keçdi. Öz səsini eşitdi.

– Hə, bir şey deyin.

Soyunub yerinə girdi. Əliylə çarpayısının yanında divara vurulmuş xəritəni sığalladı. Barmaqlarını qoyduqca qaranlıqda Qazaxıstandakı yer adlarını yada salırdı. Qaratal, Ağsuat, Ayaquz...

Səhra, çöllər, alaçıqlar... O yerləri təsəvvüründə canlandırmağa çalışdı. Yavaş-yavaş xumarlandı. Yuxu aramla onu öz girdabına, bataqlığına çəkib apardı. Alaoyaq halda o biri otaqdan öz səsini eşitdi:

- Bir də mən görsəm ki...

Sonra sükut və qaranlıq qovuşub qapandı...

Birinci Dadaş gəldi. Düzdür, Mürşüdgil ondan qabaq gəlmişdi. Ancaq daha onlar qonşu idi, onlar heç. Dadaş həmişə məclisə tək gələrdi. Nədənsə arvadını adam içinə çıxarmazdı.

– Qiyamət evin var ki, – dedi, – elə bu pəncərə nəyə desən dəyər. Axar-baxarı qiyamətdir.

Nemətlə pəncərənin qarşısında dayanıb şəhəri seyr edirdilər. Nemət izahat verirdi:

– Odur Qız qalasının təpəsi görünür. Sağ tərəfə baxın. Dənizdən beləsinə. Aha, o, Nizami muzeyidir. Yox, kino bu tərəfdədir. Bax belə, barmağımın tuşuyla baxın.

Mürşüd:

– Dadaş Mamedoviç, – dedi Nemət onu Dadaşla on dəqiqə bundan qabaq tanış etmişdi. Ancaq Mürşüd artıq Dadaşın atasının adını bilirdi, ümumiyyətlə, Mürşüdün ata adlarına xüsusi hafizəsi vardı. Az çox üzdə olan adamların hamısının atasının adını bilirdi.

Dadaşın eşitmədiyini görüb bir az ucadan təkrar etdi:

– Dadaş Mamedoviç, eşitdiz də, Xosrov Teyyuboviçi keçirtdilər Azprodsovetə.

Mürşüdün başqa bir keyfiyyəti inzibati dairələrdəki dəyişiklikləri əvvəlcədən yerli-yataqlı bilməsi idi.

Dadaş bir an maddım-maddım Mürşüdə baxdı.

– Xosrov Teyyuboviç kimdir? – deyə soruşdu.

Amma Mürşüd ondan da artıq məəttəl qalmışdı.

– Xosrov Teyyuboviçi tanımırsınız? Qaçayev Xosrov Teyyuboviçi də. Bir vaxtlar Şamaxıda prokuror işləyirdi, sonra keçirtdilər Maştağıya ispolkom. Bu saat deyim sizə, yaxın olsun tanıyasınız. Qardaşı Əsgər Süleymanov Maarif Nazirliyində işləyir. Əsgər Teyyuboviç. Doğma qardaşdırlar, amma familləri ayrıdır. Tanıdınız indi?

– Hə, hə, qara Əsgərin qardaşıdır?

Mürşüd irişdi:

– Düzdür, düzdür. Qara Əsgər də deyirlər ona, hə, Xosrov Teyyuboviç onun doğma qardaşıdır. Amma araları, deyəsən, bir az sərindir.

Dadaş:

– Qardaşını tanımıram, – dedi, – ancaq qara Əsgər cüvəllağının, badalağın biridir.

Mürşüd yenə irişdi:

– Lap düz deyirsiniz, lap düz.

Mürşüd hündürboylu idi. Ancaq bir balaca rütbəli adam görən kimi elə bil zahirən də kiçilir, cürübbəzləşirdi. Nemət düşündü ki, yaltaqlıq çox pis şeydir, ancaq uzun-hoqqar adamın yaltaqlığı lap dəhşətdir.

Zəng çalındı.

Cabbarla Tahirə gəldilər.

Murtuzgil ən azı bir saat gecikəcəkdir. Bir saat onların gecikmək reqlamenti idi.

Qapı açılanda mətbəxdən otağa iy doldu.

Mürşüd Dadaşa baxdı, hırıldadı və ləzzətlə əlini-əlinə sürtüb:

– Deyirəm plovu nimçələrə çəkək, – dedi. – Daha gələn olmaz.

Dadaş aciz-aciz gülümsündü. Hələ Mürşüd yumorunun çəmini tapa bilməmişdi.

Mənzər:

– Eh, ay kişi, nə plov-plov salmısan, – dedi. – Plova çağırmayıblar ki, səni.

Nemət düşündü ki, bir az nalayiq çıxır. Dadaş elə bilər ki, əsas qonaq o deyil, Murtuzgildir. Ona görə də hamı yığışıb onları gözləyir...

Dadaş doğrudan da, deyəsən, darıxırdı. Deyəsən, Mürşüdün inzibati dəyişikliklər söhbəti onu çox da maraqlandırmamışdı. Bəlkə də o belə məlumatları daha yüksək dairələrdən alır və ancaq özünə tay bildiyi adamlarla müzakirə edirdi. Nemət kişinin başını qatmaq məqsədiylə:

– Dadaş müəllim, – dedi, – maqnitofon almışıq. Səslərimizi yazmışıq. Qulaq asmaq meyliniz var?

– Hə, nə olar...

Nemət düyməni basdı.

– Hə bir şey deyin.

Tanış sözlər, cümlələr, gülüşlər, çoxdan bələd olduğun yolun mənzərələri kimi ötüb gedirdi...

...– Demək, mən demək istə...

...– Alyagildə də bundan var...

...– Ne qovori...

...– Bir də mən görsəm ki...

Dadaş:

– Yaxşıdır, – dedi, – çox maraqlıdır.

Qapı döyüldü. Alya, Murtuz və uşaqları gəldilər.

Bikə xala:

– Bu saat gətirərəm, – dedi. – Keçin oturun.

Dadaşla Murtuz tanış oldular.

Murtuz:

– Maqnitofon almısınız? – deyə soruşdu:

Tahirə:

– Bir qiyamət sözlər yazıblar. ki, – dedi. – Nemət, qur da, Alyagil də qulaq assın..

Nemət: "İlahi, sən saxla", – deyə düşündü.

– Bu saat, – dedi, düyməni basdı.

Öz səsi eşidildi. Sürəyyanın səsi. Birdən yadına düşdü ki, lentdə yasaq bir söz var: "Murzik" kəlməsi. Saxlamaq olmazdı, gecdi. Yerini yada salmağa çalışdı. Deməli, Bikə xala Murtuzgilin maqnitofonunu tərifləyir, onda Karmen deyir: Murzik. Yaxşı, Bikə xala bəyəm bir yerdə tərifləyir, elə kəlmə başı deyir də...

Elə bu an Karmenin səsi eşidildi:

– Çuvixa v vostorqe ot maqnitofona...

Nemət var səsiylə:

– Murtuz Balayeviç, – deyə çağırdı, – sabah futbola baxırıq da.

Sürəyya təəccüblə ərinə baxdı.

– Daha niyə qışqırırsan?

Nemət fikirləşdi ki, səbəbini bilsən, sən məndən bərk çığırardın, səsi maqnitofondan eşidildi:

– Nərgiz, qızım-quzum...

Rahat nəfəs aldı. Qıl körpüsünü salamat keçmişdilər. Heç kəs bir şey duymadı, başa düşmədi, eşitmədi.

Murtuz:

– Bəs necə ki, – dedi, – mütləq.

Alyayla Tahirə nə barədəsə pıç-pıç edirdilər. Ancaq Alyanın ayrı-ayrı cümlələri Nemətin qulağına çatırdı:

– Az, ağrım onun ürəyinə, az, bir ağız-burun bəhəm eləyib gəl görəsən... Gədəni girinc eləyib.

Nemət söhbətin kimdən getdiyini dəqiq bilmirdisə də, başa düşürdü ki, Alya xanım yenə Spartakın növbəti eşq-məhəbbət macərasından danışır. 24 yaşlı Spartak əhli-kef oğlanlardan idi, yaxşı gəzib, dolanıb, yeyib-içən cayıl idi. Atasının "mən ölüm-sən ölüylə" bildir birtəhər medinstitutu qurtardı. Vay o xəstənin halına ki, pənahını Spartaka gətirə! Spartakın bütün fikri-zikri gününü xoş keçirmək idi. Arvadları qalstuk kimi dəyişirdi. Murtuz oğlunun bu cəhətinə gizli bir ata qürurıyla göz yumar, daxilində fərəhlənərdi. "Ot kökü üstə bitər, mən də cavan olanda arvadlardan qaçıb qurtara bilmirdim".

Alya üzdə Spartakın sərgüzəştlərindən guya bərk narazı idi. Telefonla Spartaka zəng eləyən saysız-hesabsız, "cananlara" kobud cavab verib, dəstəyi asardı. Ancaq Nemət bilirdi ki, daxildə o da, Murtuzun ordenləriylə, Firəngizin gözəlliyi, əlaçıqlığı, ismət və məsumluğuyla fəxr etdiyi kimi, Spartakın erkək şöhrətiylə də qürurlanır.

Alya xanım özündən də xeyli bədgüman idi. Danışığında qəribə bir təzad vardı. Gah Murtuzun adından-sanından, yüksək dairələrdə hörmətindən, ailələrinin səadətindən danışırdı, gah da xırda bir şey üstündə bəxtindən şikayətlənərdi: "Ey, ay Sürəyya, vallah, hərdən deyirəm neynirdim bu gözəlliyi, bu ağlı, bu fiquranı? Bundansa Allah mənə bir bəxt verəydi".

Otağın o başında Mürşüd Murtuza bərk girişmişdi. Mürşüdün bayaq Dadaşla tutmayan söhbəti indi Murtuzun canına kərə yağı kimi yayılırdı.

– Bildiz də, Murtuz Balayeviç, Mahmud İsrafiloviçi zamministr qoydular.

– Sən nə danışırsan? Bəs onun yerinə kimi qoydular?

– Turab Qurbanoviçi.

– Yox əşi? Bəs Turabın yerinə?

– Turab Qurbanoviçin yerinə Zakir Zülfüqaroviçi qoyublar. Zakir Zülfüqaroviçin yerinə də elə Mahmud İsrafiloviç gəlib.

– Keçəl Həsən, Həsən keçəl?

– Necə? – deyə Mürşüd irişdi, – lap düz deyirsiniz. Bir balaca dəyiş-düyüş olub. Yerlərini dəyişiblər.

İnzibati dəyişikliklər Murtuzun da azarı idi. Özü də həmişə bu dəyişikliklərdən narazı qalardı. "Filan yerə filankəsi qoydular. Pah atonnan, gör dünyanın nə yeridir! Əşi, heç belə şey olmamışdı..."

Onu da qeyd etmək lazımdır ki, istefaya çıxmış polkovnikin mənsəb ehtirasları heç də sönməmişdi.

Sürəyya:

– Buyurun süfrənin başına, – dedi.

Nemət başını sındırırdı. "Yaxşı, əsas mən Dadaşı çağırmışam. Birinci dəfədir bizə gəlib. Amma di gəl ilk badəni Murtuzun yox, onun sağlığına qaldırsaq, Murtuz Balayeviç mısmırığını sallayacaq. Alya xanımın qaşqabağı yernən gedəcək, Sürəyya pörtəcək, mənim də günüm qaralacaq. Amma o tərəfdən də..."

Birdən çıxış yolu tapdı. Dahiyanə çıxış yolu... Caboş demişkən: qoşong.

Badəsinə çaxır töküb ayağa qalxdı:

– Mən təklif edirəm, – dedi, – ilk badəni içək tamadanın sağlığına. Murtuz Balayeviçin sağlığına. Onun ailəsinin sağlığına. Arzu edək ki, bu xudmani məclisimizə əsil sərkərdə kimi rəhbərlik eləsin.

Gülüşdülər.

Nemət:

"Bu belə, – deyə düşündü. – Göz dəyməsin, bu bəla da sovuşdu".

Nemət Murtuzgilin inciməsindən yaman qorxurdu. Özü də ən pis o idi ki, Murtuzun nədən, haçan və nə səbəbə inciməsini fələk özü də gəlsə təyin edə bilməzdi. Görürsən adi bir söz, bir zarafat elə böyük bir incikliyə, kinə-ədavətə səbəb olurdu ki, Alyagilin ailəsi aylarla küsü saxlayır, Bikə xala isə evin içində Nemətin gününü göy əsgiyə bürüyürdü. Əsəd rəhmətə gedəndən bəri Bikə xalanın ən istəkli, ən əziz kürəkəni Murtuz olmuşdu. Eyni zamanda o, Nemət üçün göz dağı idi. Bəli, belə bir fövqəladə (yəni elə tez-tez olurdu ki, bir fövqəladəliyi də qalmamışdı) hadisə baş verən kimi Bikə xala başlayırdı: "Qızım sənə deyirəm, kürəkənim sən eşit" prinsipiylə görürsən Nemətin qulağının dibində Sürəyyayla danışırdı: "Getmişdim bu gün Alyagilə, Murtuzun qanı yaman qaradır, deyir, Bikə, nə ədəb qalıb, nə ərkan, dünənin lüməyi görürsən elə söz deyir, qalırsan baxa-baxa, nə böyük tanıyan var, nə kiçik. Saça-saqqala hörmət eləyən kimdir? Elə tutuqu-

şu kimi bir-iki söz əzbərləyib, üç-dörd kitab oxuyurlar, elə bilirlər dünyada bunlardan alim adam yoxdur. Deyir, qoyaydılar onları mənim ixtiyarıma, verəydim əllərinə lapatkanı, di qaz bu yeri, görüm necə qazırsan tranşey, bu sənin̂çün kitab oxumaq deyil, arvad kimi kağızkuğazla əlləşib cızmaqara eləmək də deyil". Bu söhbətlər onunla nəticələnirdi ki, Sürəyyanın təkidiylə Nemət bahalı konyaklardan bir şüşə alıb, yanında da bir qutu şokolad konfeti, gedirdi Murtuzgilə, oturub içir, barışırdılar.

Murtuzun səsi Neməti fikirlərindən ayırdı:

– Etimadınıza görə təşəkkür edirəm. – Nemət fikirləşdi ki, elə bil seçicilərlə görüşdə nitq irad eləyir. – Mən hərbi adamam, – boğazını arıtladı, – boş-boş danışmağı sevmirəm. Hər şeydən əvvəl nizam-intizam, rus demişkən, dissiplina previşe vseqo. Kimə söz versəm, gərək, artıq-əskik söz danışmadan, durub, söz danışsın. Vəssalam.

Nemətə elə gəldi ki, nitqini "əmri icra edin. Gedə bilərsiniz" sözləriylə qurtaracaq. Amma Murtuz "vəssalam" kəlməsindən sonra qıvraq bir hərəkətlə stula çökdü.

Bir an Nemət düşündü ki, xudanəkərdə, əsgər olaydı, özü də Murtuz Balayeviçin əsgəri. Aman Allah. Adama qan uddurardı. Səhərdən axşamacan şaqqama günün altında o baş-bu başa qovardı: addımla marş! Raz, dva! Raz, dva!

Mürşüd:

– Müəllim, – dedi, – Murtuz Balayeviç. Müsaidə etsəydiniz... Bir–iki kəlmə... hi, hi, hi...

Murtuz ötkəm səslə:

– Edirəm, – dedi. – Danış, görüm nə deyirsən?

Mürşüd Molla Nəsrəddindən başladı. Nemət nə qədər cəhd edirdisə də, diqqətini toplaya bilmirdi. Beynindən nə qədər çıxarmaq istəyirdisə, bu yaxınlarda aldığı gözlənilməz bir məlumatı unuda bilmirdi. İki-üç həftə bundan qabaq Sürəyya böyük bir sirr kimi Nemətə xəbər verdi ki, Alyanın dediyinə görə, Murtuz Balayeviç şeirlə beş pərdəlik bir pyes yazıb. Babək üsyanı haqqında. Bu xəbəri alanda Nemət qarnını tutub uzun müddət sakit ola bilmədi. Sürəyya tutulan kimi oldu: "Başa düşmürəm, burda gülməli nə var?" – dedi. Nemət boğulaboğula: "Murtuz Balayeviç, pyes yazıb... şeirlə" – dedi və qəşş edəcək hala düşdü. İndi də bu məlumatı yada salıb pıqqıldayıb gülməkdən özünü güclə saxlayırdı. Xoşbəxtlikdən Mürşüd Molla Nəsrəddin əhvalatını danışıb qurtardı, hamı gülüşdü və Nemət fürsətdən istifadə

edib ürəkdən bir qəhqəhə çəkdi. Onun bu boyat lətifəyə belə bərk gülməsi deyəsən Murşüdün özünü də təəccübləndirdi. Mürşüd bir an dayanıb sözünə davam elədi:

– Hə, indi zarafat bir yana qalsın, birinci dəfədir ki, Dadaş Mamedoviçlə bir məclisdəyik, amma necə deyərlər, ürəkdən ürəyə yollar görünür. Yəni, Dadaş Mamedoviçi çoxdan tanıyırdım. Nemətdən onun haqqında çox eşitmişdim, bilirdim ki, bizim bu qonşu qağanı alıb qanadının altına. Amma Dadaş Mamedoviç, onu deyim ki, yəni özünüz də məndən yaxşı bilirsiniz, bizim bu Nemət ayrı oğlandır, sizin xətrinizi mən bilirəm necə istəyir. Bir Dadaş Mamedoviç deyəndə beş eşidir, sizdən danışanda, vallah, ağzına çullu dovşan sığmır. Deyir, Mürşüd, sən hələ o kişini tanımırsan, belə deməknən qurtaran deyil e, gərək Dadaş Mamedoviçlə özün oturub-durasan ki, bu adamın necə adam olduğunu dərk eləyə biləsən lazımınca. Elə bil onunçün deyiblər ki, çelovek – eto zvuçit qordo.

Nemət fikirləşdi ki, görəsən, bu büllur qrafinin qiyməti neçədir? Görəsən, Sürəyyaya söz versə ki, lap bu qrafinin cüt ekizindən tapıb alar, onda bu stolun üstündəki qrafini Mürşüdün başına vurmaq olarmı? Yox, içindəki çaxır süfrəyə tökülər, qiyamət qopar. Ağ süfrədən çaxır ləkəsi getmir, gərək üstünə dərhal duz səpəsən. Amma onda da tamam təmizlənmir. Bəs, persol necə? Görəsən, persol ləkəni tamam aparırmı?

Mürşüdün uzaqlaşmış səsi yenə yaxınlaşdı:

– Hə, onu deyirəm axı, mən Dadaş Mamedoviçi çoxdan tanıyıram, hərçənd o məni tanımırdı, biz balaca adamıq, həkim babayıq. Ancaq, Dadaş Mamedoviç, bilirsiniz də, məsəl var, dağın dağa işi düşməz, adamın adama işi düşər. Məsəl var: arvadın pisdi, boşa getsin, hə, arvad, sən qulağını yum görək (ümumi gülüş), dişin ağrıyır, çək qurtar. İndi, Allah eləməmiş, şər deməsən, xeyir gəlməz. İşdi-şayəd Dadaş Mamedoviç, dişiniz ağrısa-eləsə, bax bu lələşiniz qulluğunuzda hazır, haçan istəsəniz, necə diş istəsəniz, səhər, axşam, gecə, bahar, yay, qış, payız...

Nemət düşündü ki, bu, lütfkarlığın ən yeni və orijinal formalarındandır: dişin ağrısın, gətir çəkim.

Mürşüd qədəhini Dadaşa tərəf uzatdı:

– Sağ olun, Dadaş Mamedoviç, sizin sağlığınıza.

– Sağ ol, əziz olasan, çox sağ olun, hamınız, sağ olun. Sonra növbəylə, Cabbargilin, Mürşüdgilin, Nemətgilin sağlığına içdilər. Allah-

verdisi arvadlara, uşaqlara. Ayrıca Bikə xalanın sağlığına içdilər, dedilər ki, yeməklər qiyamətdir.

Sonra Nemət durdu:

– İçək tamadanın sağlığına, – dedi. Uzun-uzadı nə isə danışdı. Nə danışdığını özü də bilmirdi. Bircə fikrində onu tutmuşdu ki, mümkün qədər təmtəraqlı danışsın. "İnsanlıq, vüsət, zəka, istiqbal, hünər, müzəffər...". Lap qafiyə çıxdı. İstədi "əsər" də əlavə etsin, ancaq qorxdu.

Alya:

– Bəsdir, sən allah, ay Nemət, – dedi, – bu oldu lap kult liçnosti.

Murtuz bir balaca keflənmişdi, bu sözləri eşidəndə ayağa sıçradı.

– Nemət burda çox danışdı, – dedi. – Belə yaxşı-yaxşı, yağlı-yağlı sözlər dedi. Mən, əlbəttə, belə-belə sözləri bilmirəm. Belə qırılda-da bilmərəm. İndi neyləyək kulturamız çatmır, – son cümləni deyib Alyaya baxdı. Alya da ona baxdı. Bu mənalı baxışmanın mənası bu idi ki, "kulturanın çatmaması" rişxənd təbiriylə deyilmişdi, təki hamının mədəniyyəti bizimkiycən olaydı.

– Hə, bir sözlə, hörmətinizə görə sağ olun. Məni çox təriflədiz, bəlkə layiqindən də artıq, – bu yenə eyni priyom idi. – Mən indi bacardığımdan xalqıma xidmət eləmişəm. Cəbhənin odunda-alovunda qanımızı tökəndə, elə biz sizin kimi çavanların bugünkü firavan gününü fikirləşmişik ki, siz belə-belə oturasız, kef çəkəsiz, xoşbəxt dolanasız. İndi sizin də borcunuz odur ki, bu yolda qan tökən adamlara lazımi hörmət-izzət göstərəsiniz. Böyüyün böyük yeri var, kiçiyin kiçik, yoxsa ara qarışıb məzhəb itsə, bu, yaxşı nəticə verməz. Alya, o ki qaldı, sən deyirsən kult liçnosti, deyir, vallah, o liçnostə də canım qurban, onun kultuna da.

Murtuzun əqidəsi qəlbinin dəruni guşələrində gizlənir. "Ararat" konyakının beşinci qədəhindən sonra isə atlanıb ordan çıxırdı. Müddəaları da çox dəqiq idi...

Deyir dəryalarca qan töküb, adam qırıb? Əcəb eləyib. Xalq düşmənlərini qırıb qurtarmasaydı Hitleri məğlub edə bilərdi?

...Masanın arxasından durdular.

Dadaş yenidən pəncərənin qabağına gəldi. Nemət onun yanında durub:

– Ora Akademiyanın təzə binasıdır, – deyirdi. – Köhnə binası görünmür. Ora dəyirmandır. O, bankın qabağıdır.

Sonra kimsə təklif etdi ki, maqnitofonu qursunlar.

Nemət düyməni basdı:

– Hə, bir şey deyin, – dedi. Bir neçə dəqiqədən, bir neçə səsdən sonra isə:

– Bir də mən görsəm ki... – dedi və susdu.

Qonaqlar vidalaşıb dağılışdılar.

Çarpayısında uzanan kimi yuxuya getdi. Bu gün çox yorulmuşdu. Çox da həyəcan keçirmişdi.

Qızlar da yatdılar. Bikə xala da. Sürəyya da.

Gecənin bir yarısında elə bil kimsə qəfilcə Nemətı oyatdı.

Gözlərini açdı. Gördü ki, kefliliyi də keçib. Tamam ayıq idi. Tamam da oyaq. Yuxusuzluğa alışmış bir adam təcrübəsiylə dərhal başa düşdü ki, təzədən çətin yata.

Elə bil kimsə onu oyatmış və beynini fikirlə doldurmuşdu. Yaman da yanğısı vardı. Durub su içdi.

Fikirlərini qovmaq istədi. Divara tərəf çevrildi. Əlini xəritəyə çəkdi: Ağcatau, Sasık göl, Ağcal...

Amma fikirlər qayıtdı. Onları dağıtdı. Yenə qayıtdılar. Yenə. Yenə...

Dünən səhərdən bəri başında oyanan fikirlər elə bil yenidən rəsmkeçidə gəlmişdi.

Əvvəlcə atası haqqında düşünməyə başladı. Düşündü ki, bax, anam deyirdi atanın Samuxda yaman hörməti vardı. Evlər tikmişdi, yol çəkdirmişdi. Sonra düşündü ki, Samux indi Mingəçevir dənizinin dibindədir. Evləri, yolları, hamısı...

Bəs, Samuxda yaşayan adamlar? O adamlar ki, atası onların hörmətini qazanmışdı? Hərəsi bir yana dağılıb. Bəlkə atasının surətini, xatirəsini, bağışlanmış fotoşəkillər kimi, hərəsi bir tərəfə aparıb. Bəlkə də...

Sonra hardansa beynində qafiyələr dolaşmağa başladı: azsa, pozsa, yazsa...

Sonra nədənsə pəncərənin axar-baxarı haqqında düşünməyə başladı: Qız qalasının təpəsi, Akademiyanın təzə binası. Bank, dəyirman.

Sonra marşrutlu avtobus haqqında dünənki fikirlərini xatırladı.

Sonra qulaqlarında maqnitofon yazıları canlandı:

"Bir də mən görsəm ki..." – bu cümlə nəbz kimi beynində döyünməyə başladı.

O biri otaqda saat üç dəfə vurdu və qəfilcə bir an içində Nemət hər şeyi başa düşdü.

Fikirləri durulub aydınlaşdı və Nemət hər şeyi birdən anladı.

Anladı ki, pəncərənin axar-baxarı nə qədər cazibəli, mənzərəli, gözəl olsa da, o, Nemət bu görünüşə nifrət edir. Nifrət edir, çünki o, bu mənzərəyə məhkumdur. Ömürlük məhkumdur. Heç bir zaman bu pəncərə, qatar pəncərəsi kimi hərəkətə gəlib dəyişməyəcəkdir. Bu pəncərəni xalça kimi dörd mismarla onun həyatına mıxlayıblar. Ömrü boyu o bu pəncərədən baxıb Qız qalasının təpəsini, Akademiyanın yeni binasını, bankı, dəyirmanı görəcək.

Adam öz həyatını qadını atan kimi ata bilmir, insan öz həyatını *axıracan yaşamalıdır. Həyat yükünü axıracan daşımalıdır...*

Nemət dəhşət içində anladı ki, bir də onun həyatında heç bir vaxt heç bir şey olmayacaqdır. Nə ürkək duyğuların nigaranlığı, nə gözləmə, nə aldanış, nə ümid, nə bahar gecəsi son tramvayın pəncərəsində diksinən ulduzlar...

O, həyatını, gündə oynadığı rolundan bıqmış bir aktyor kimi, qatarlara qoşulub dəyişməz relslərlə gedən parovoz kimi son mənzilə, son pərdəyə, son dayanağa, son sükuta çatdırmalıdır. Son qaranlığa, son səsin susduğu yerə...

O qanunların, qadağaların, normaların əsiridir.

Onları poza bilməz.

Poza bilməz, aza bilməz. Aha, indi tapdı ki, bu qafiyə hardandır. Yazıq, biçarə, zavallı marşrutlu avtobus!

Pozsa, azsa, yazsa...

Yazılana pozu yoxdur. Bunu bayaq kim dedi? Bayaq yox, dünən. Dadaş dedi, hə, bir də yadımdadır, vaxtilə Bikə xala demişdi.

Dünən Karmen də nə isə buna bənzər, bir şey deyirdi, hə, dedi ki, yazılıb, pozulmayacaq. Nə pozulmayacaq? Hə, maqnitofon yazısı...

– Hə, bir şey deyin...

– Demək, mən demək istə...

Bir dənə söz, bir dənə hərf dəyişə bilməz. Donub qalıb.

– Bir də mən görsəm ki...

Heç kəs bilmir ki, bir də sən görsən ki... nə edəcəksən?

Sabah yenə yığışıb bu yazıya qulaq asacaqlar. Sabah olmasın, birisi gün olsun. Ya bir həftə sonra. Yenə qulaq asacaqlar. Hamısı – özləri də, qonşuları da, qohumları da, Mürşüd, Mənzər, Tahirə, Caboş, Alya...

Sabah da qulaq asacaqlar. Hə, hə, lap yəqin bil. Biri gün də, o biri gün də.

Hər gün Bikə xala təkrar edəcək ki, Alyagilin maqnitofonu iki dəfə böyükdür. Hər gün Karmen rişxənd edəcək ki, Nemət "zadrıpannıy" maqnitofon alıb, hər gün Sürəyya ona acıqlanacaq və hər gün də sonda Nemət bir də mən görsəm ki, – deyə kimisə hədələyərək, sözünü yarımçıq qoyub sükut, səssizlik uçurumuna yıxılacaq.

Heç kəs də heç bir vaxt bilməyəcək ki, Nemət bir də görsə nə olacaq... Nə olacaq? Heç nə, hədəsiz hədə...

Sabah, biri gün o, birisi gün. Ay keçəcək, il keçəcək.

Heç nə dəyişməyəcək, ilahi, heç nə, heç bir şey.

İyirmi-otuz il sonra Nemət qocalıb öləcək. Ancaq ölənə qədər həyatında heç bir dəyişiklik olmayacaq. Arvadı. Üç qızı. Eyni qohumlar. İş yoldaşları, qonşular. Eyni söhbətlər, zarafatlar, qayğılar, təlaşlar. Eyni məclislər, tostlar...

Eyni pəncərə. Eyni avtobus. Eyni yazı...

Bir də mən görsəm ki...

Yazılana pozu yoxdur. Vəssalam. Qurtardı. Kitab bağlandı. Nöqtə.

Nöqtə? Bəlkə vergüllü nöqtə? Daha doğrusu, nöqtəli vergül? Bəlkə dalı var, izahı var...

Bir də mən görsəm ki... Nə görsən, ay yazıq? Nə görmüsən? Nə görəcəksən? Görsən nə edəcəksən? Heç nə...

Yazılana pozu yoxdur.

Yaxşı, bəsdir, yat getsin, Nemət. Sabah tezdən işə gedəcəksən. Yüzə qədər say: yuxuya gedəcəksən. Ya da yum gözlərini, təsəvvür elə ki, yolla gedirsən, gedirsən, gedirsən bir də görəcəksən yatdın. Əsas yuxulamaqdır. Adam yuxuda olanda vaxt məfhumu yox olur. Yatırsan, yuxu səni hoppadan götürüb qoyur səhərə. Vəssalam. Yaxşı, yataq. Bir, iki, üç, dörd, beş, altı...

Təhminə! Təhminə? O hardan yadıma düşdü? O hardan gəlib çıxdı? Hardan gəlib düşdü bu obraz, durdu gözlərimin qabağında? Dümdüz uzun qıçlı. Qara saçları şəlalə kimi çiyinlərinə axmış. Dişləri tən bir boyda – qarğıdalı dənələri. Gözləri... Nə rəngdəydi Təhminənin gözləri? Qara? Qonur? Göy? Yaşıl? Yox, yaşıl deyildi. Göy, şabalıdı, qara, qonur? Göy? Yaşıl? Yox, yaşıl deyildi. Nə rəng idi? Nə cür olub ki, indiyəcən diqqət eləməmişəm? Doğrudan qəribədir. Yaxşı, yat, Nemət, sabah işdə fikir verərsən. Yox, qəribədir. Nə rəngdir axı, qara, qonur, şabalıdı? Bəli də, *indi* də beyninə bu düşdü? Bu gecə

vaxtı hardan öyrənəcəksən? Görəsən kim bilər bunu? Dadaş. Zəng eləyəsən, Dadaşdan soruşasan. Nemətі gülmək tutdu. Pis olmaz. Gecə saat üçdə zəng eləyib Dadaşı yuxudan oyadasan: bağışlayın, Dadaş müəllim, sizə bir sualım var: Təhminənin gözləri nə rəngdədir? Təsəvvür edirəm Dadaşın sir-sifətini: Dadaş tuman-köynəkdə yuxudan avara olunub, telefonla şöbəsinin bir işçisi Nemətə başqa işçisi Təhminənin gözləri haqqında məlumat verir. Nə səhnədir! Doğrudan nə olardı, indi götürüb Dadaşa zəng edəsən?! Eh, nə boş-boş danışırsan, heç eləyərsən? Niyə eləmirəm? Ay elədin ha! Vallah, dəli şeytan deyir, dur elə. Ay elədin ha! Yaxşı. Nemət, yat. Hə, nə oldu, əzizim, deyirəm axı, sən dəli şeytanın sözüylə durub-oturan oğlanlardan deyilsən. Sən həmişə ağıllı şöbə müdirinin qoyduğu qayda-qanunlarla yaşayan oğlansan. Elə bu tutduğun yolnan da get. İşin yaxşı olar. Deməli, belə? Yaxşı, baxarıq.

Nemət ayağa durdu. Gecə məstlərini geydi, pijamasını düymələdi, dəhlizə çıxdı. Telefonun dəstəyini qaldırdı. Vaxt gec olduğundan, telefondan dərhal aydın "zummer" eşidildi. Nemət özünə belə qəribə görünən bir etinasızlıqla Dadaşın nömrəsini yığdı. "Beş siqnal gözləyəcəyəm, cavab çıxmasa asacam". Dördüncü siqnaldan sonra Dadaşın səsi gəldi:

– Allo!

Səs yuxulu səs deyildi. Həmişəki aydın, təmkinli səs idi. Nemət bir an susdu, sonra cəld:

– *Mənəm. Nemətdi,* – *dedi. Daha geriyə yol yox idi.*

– Buyur, Nemət.

– Bağışlayın. Dadaş müəllim, sizi yuxudan oyatdım.

– Yox, yox, yatmamışdım, işləyirdim.

Birdən-birə Nemət özünü aciz və miskin hiss etdi. Yatmış bir mötəbəri gecə saat üçdə yuxudan oyadıb qəribə sual vermək ürək istəyirdi! Amma gecənin bu vaxtında oturub işləyən bir adamı belə axmaq bir sualla işindən ayırmaq yüngüllük idi, uşaqlıq idi, sataşmaq idi. "Təcili surətdə ayrı bir bəhanə tapıb işin içindən çıxmaq lazımdır".

– Dadaş müəllim, sizdən bir şey soruşmaq istəyirəm. – Bunu vaxt qazanmaq üçün dedi.

– Buyur.

"Aha, tapdı".

– Dadaş müəllim, mən belə şeylərdə yaman vasvasıyam. Yata bilmirəm. Sabaha qədər yerimdə qovrulacaqdım. Siz allah, bir məni sakit eləyin. İnciyib eləmədiniz ki?.. Bizim bu qonşu, Mürşüd bir az şitlik edirdi. Murtuz Balayeviç də bir az kobud adamdır... Deyirəm bəlkə...

Dadaş onun sözünü yarımçıq qoydu:

– Yox, yox, nə danışırsan, Nemət, dəli olma. Hər şey lap əla idi. Niyə inciyirəm? Adamlar cürbəcürdür. Hərəsinin öz duzu, öz ləzzəti var. Elə adamlar olmasaydı, həyat maraqsız olardı. Sən lap arxayın ol. Rahat get yat. Gecən xeyrə qalsın, – cavab gözləməmiş dəstəyi yerə qoydu.

"Vəssalam, Nemət müəllim. Bu da sənin qiyamın. Bu da sənin meydan oxumağın. Bu meydan oxumaq olmadı, meydan sulamaq oldu. Qiyam olmadı, mütiliyinin yeni ifrat bir təsdiqi oldu. Di get yat. Eşitmədinmi, Dadaş sənə rüsxət verdi. Yat".

Nemət otağa keçib qaranlıqda pencəyini tapdı, cibindən siqaret çıxarıb iki qullab vurdu, dəhlizə qayıtdı. Telefonun, dəstəyini qaldırıb nömrəni yığdı. Du, du, du...

– Bəli, – Dadaşın səsi yenə də sakit və təmkinli idi.

– Mənəm, Nemətdir.

– Eşidirəm.

– Dadaş müəllim, sizdən bir şey soruşmaq istəyirəm. Təhminənin gözləri nə rəngdədir? – birnəfəsə dedi.

Dəstək sükuta qərq oldu. "Hə, elə olarsan, müəllim. Deyəsən söz boğazında qaldı. Bir udqun görək. Hə, indi cavab ver. Həmişəki tək sakit və təmkinlə gecə saat dördə iyirmi dəqiqə işləmiş işçin Nemətə, işçin Təhminənin gözlərinin rəngi barəsində məlumat ver görüm".

– Nemət, – səs əvvəlki kimi sakit idi, – deyəsən, biz gedəndən sonra xəlvətə salıb təkbaşına içmisən.

Nemət bu sözlərin mənasını da, Dadaşın sakitliyinin səbəbini də anladı. Bu vəziyyət Dadaşçün qəribə, qeyri-adi bir şey deyildi. Ömrü boyu Dadaş elə növbənöv qəribəliklər görmüşdü ki, Nemətin əcaib sualı onu təəccübə gətirib halından çıxarda bilməzdi. Sualın vaxtına – gecə saat dördün yarısına gəldikdə isə, buna da vərdişli idi: Məmməd Nəsirin vizitləri də təxminən gecənin bu radələrində olurdu. "Bizdən sonra xəlvətə salıb içmisən". Dadaş, Nemətə Məmməd Nəsir kimi baxırdı. Əlbəttə, Nemət Məmməd Nəsir deyil, ağlı, dərrakəsi var. Həm

də ailəsi, arvadı qoymaz. Amma ömründə bir gecə Məmmədnəsirlik edirsə, dünya dağılmaz. Dadaş təmkinlə və çox soyuq:

– Nemət, get yat, – dedi, – gecdir. Yaxşıca əl-üzunü yu, sonra yat.

– Dadaş müəllim, əgər elə bilirsiz ki, mən sərxoşam, çox səhv edirsiniz. Əgər məni təzə başlayan Məmməd Nəsir hesab edirsinizsə, yenə də səhviniz var. Mən tamamilə ayığam. Axşam da az içmişdim. Sizdən sonra da dilimə vurmamışam. Mən bircə sizdən onu bilmək istəyirəm ki, Təhminənin gözləri nə rəngdədir.

Dadaş kəskin və sərt bir ədayla:

– Nə demək istəyirsən? – dedi.

– Heç nə. Bircə Təhminənin gözlərinin rəngini bilmək istəyirəm.

Dadaş daha da sərt və əsəbi bir tərzdə:

– Bu sualı mənə niyə verirsən? – dedi.

"Aha, deyəsən özündən çıxırsan. O mötəbərlik maskan yerindən oynayır. Kişisən, bir kəlmə sərt söz de, cavabını elə verim ki, ölənəcən yadından çıxmasın. İstəmirəm sənin müqaviləni, avansını da. Mən elə kişinin oğlu deyiləm ki, sən mənə atalıq eləyəsən. Hə, de görüm, bir söz de..."

Dadaş heç nə demədi. Ancaq birdən-birə güldü. Bərkdən güldü. Bəlkə ondakı yumor hissi əsəblərinə və hirsinə üstün gəldi və o, vəziyyətin komizmini dərk etdi. Ya da özünü ələ ala bildi, kinini içəri salıb, bu qəribə söhbəti zarafata çevirmək istədi.

– Bilirsən nə var, Nemət, – dedi, – zəng elə özündən soruş.

"Bu adam sabun kimidir, – deyə Nemət düşündü. – Onu tutmaq mümkün deyil. Sürüşüb əlindən çıxacaq".

– Telefon nömrəsini bilmirəm.

Dadaş əvvəlki kimi sakit və təmkinlə Təhminəgilin telefon nömrəsini dedi.

– Çox sağ olun. Bağışlayın zəhmət verdim.

– Xoşdur. – Ani bir sükutdan sonra əlavə etdi: – Mən gec yatıram. İşçilərdən hansı birinin gözləri, ya burnu haqqında məlumat lazım olsa, utanma, zəng elə. Xudahafiz.

Dəstəyi hər ikisi eyni vaxtda asdı. Nemət öz-özünə: "Bir: sıfır, Dadaşın xeyrinə" – dedi.

Təhminənin telefonu uzun zaman cavab vermirdi. Nemət uzun siqnallara qulaq asır, Təhminənin yatdığını anlayır, ancaq dəstəyi asmırdı. "Səhərə qədər gözləməli olsam da, asmayacağam".

– Allo. – Təhminənin səsi yuxulu və boğuq idi.

"Sanki səsi duman içindədir".

– Gecən xeyir, Təhminə, Nemətdir.

– Kim? Nemət? Hə... Bay, xeyir ola?

– Xeyirdir, qorxma. Səni yuxudan oyatdım, hə?

– Hər halda bu vaxt yəqin, tərəqqipərvər bəşəriyyətin əksəriyyəti yatır. Bəs sən niyə yatmamısan. Nemət? Kefli-zad deyilsən ki?..

– Görəsən niyə hamının başına məhz eyni bir fikir gəlir: keflilik?

– Yəni hamı deyəndə, məndən başqa da çox adama zəng eləmisən?

– Yox, bircə Dadaşa zəng eləmişdim. Ondan sənin gözlərinin rəngini soruşdum, demədi, amma sənin telefonunun nömrəsini verdi. Dedi, zəng elə özün soruş.

Təhminə güldü:

– Hardan danışırsan?

– Evdən.

– Bəs külfətin yatıb?

– Hə, hamı yatıb. Bütün şəhər yatıb, bir sən oyaqsan, bir mən. Bir də Dadaş oturub işləyir.

– Görürsən, bax, əsil zəhmətkeş Dadaş kimi olar.

– Təhminə, bilirsən Füzuli nə deyir?

– Nə deyir axı?

Deyir ki:

Ey Füzuli, şami-qəm əncamına yoxdur ümid
Bir təsəllidir sənə ol söz ki, derlər var sübh.

– Başa düşdün?

– Az-maz.

– Bir bu "derlər" sözünə bütün dünya poeziyasını dəyişmərəm. Başa düşürsən, derlər, yəni görməyib, eşidib, deyirlər. Kimsə deyib ki, hardasa sübh var, bircə bu təsəlli olmasa, şami-qəmdən, yəni axşam qəmindən yaxa qurtarmaq olmaz.

– Əzizim, əgər sən elə bilirsən ki, gecə – saat dördün yarısı Füzuli qəzəllərini şərh etmək üçün ən münasib vaxtdır, onda...

– Dayan, Təhminə, sən allah, boşla zarafatı. Mən sənlə ciddi danışmaq istəyirəm. Qəlbimi sənə açmaq istəyirəm.

– Nemət, dola məni əzizlərinin başına, əgər son də desən ki, bir qəlbdən min qəlbə mənə aşiq olmusan, mən daha başımı götürüb gərək bu vilayətdən qaçam...

– Yox, əzizim, ürəyini buz kimi elə, arxayın ol. Mən sənə izhari-məhəbbət və etirafi-eşq eləmək fikrində deyiləm.

– Allah ölənlərinə rəhmət eləsin. Yenə bu da qənimətdir.

– Hə, indi qulaq as. Mən səninlə məsləhət eləmək istəyirəm. Bu gün mən bir çox şeyləri anladım, anladım ki, mən daha bundan sonra indiyədək yaşadığım kimi yaşaya bilmərəm.

– İndiyədək necə yaşamısan ki?..

– Bilmirəm. Təhminə, heç bilmirəm keçmiş həyatıma nə ad verim. Durğunluq, ətalət, meşşanlıq bataqlığı.

Pah atonnan!

– Gülmə. Artıq bu cür yaşamaq mümkün deyil. İş, ev, ailə, maaş, qonorar, mebel, televizor, maqnitofon... Mən bu çərçivədə boğuluram. Təhminə.

– Nemət, əzizim, qonorar da, televizor da, maqnitofon da pis şeylər deyil. Ancaq gərək onların əsiri olmayasan.

– Elədir. Bax, bayaq evimin pəncərəsindən baxırdım. Pəncərənin axar-baxarı, mənzərəsi çox gözəldir. Bütün şəhər görünür. Qız qalasının təpəsi, Akademiyanın təzə binası. Ancaq mən düşündüm ki, bu mənzərə artıq mənim qəlbimi titrətmir, çünki bu mənzərəyə məhkumam. Ömürlük məhkumam. Heç bir zaman bu pəncərə qatar pəncərəsi kimi hərəkətə gəlib dəyişməyəcək. Bu pəncərəni xalça kimi dörd mismarla mənim həyatıma mıxlayıblar. On ildir mən bu pəncərədən baxıb Qız qalasının təpəsini, Akademiyanın yeni binasını, bankı, dəyirmanı görürəm. Ömrüm boyu da görəcəyəm. Amma...

– Dayan, dayan bir görək, bir nəfəsini dər. Maşallah bu kəlama! Elə bil əyalət teatrında monoloq söyləyirsən.

– Yox, əgər sən məni dolamaq fikrindəsənsə...

– Dolamıram, o saat da inciyirsən. Dəymədüşər olma. Düz demirsən axı. Qatar pəncərəsi-filan, bütün bunlar gəlişi gözəl sözlərdir, ancaq həqiqət deyil. Dünyada hər şeydən yüksək isə həqiqətdir.

Niyə həqiqət deyil?

– Niyə? Bu saat deyim. Bax, deyirsən ki, on ildir pəncərədən baxıb Akademiyanın təzə binasını görürəm. Düz deyil. On il yox, heç üç

il bundan qabaq da bu bina tikilməmişdi. Bu bir. İkincisi, deyirsən ki, ömrüm boyu eyni mənzərəni görəcəm. Bu da yalandır. Çünki bir ildən sonra, məsələn, tutaq ki, sirkin yeni binası hazır olacaq, onu görəcəksən. Ayrı təzə-təzə binalar tikiləcək. Yəni sənin pəncərən özü tərpənməyəcək, ancaq ordan görünən mənzərə, həyat dəyişir, dəyişəcək, başqalaşacaq. Sən pəncərəni rəmzi mənada deyirsən, mən də rəmzi mənada deyirəm ki, pəncərədən diqqətlə baxsan, görərsən ki, həyat necə qaynayır, dəyişir. Hə, susursan? Görürsən, mən haqlıyam, indi qulaq as mənə, bir şey də deyim. Bu gün səhər radioyla bir verilişə qulaq asırdım. Heç bilmirəm nə veriliş idi, ancaq orda bir şey dedilər, mənim yaman beynimə batdı. Təxmini deyirəm, dəqiq yadımda deyil. Üç obrazı əsas götürmüşdülər. – Pəncərə, qapı, güzgü, məcazi mənada, əlbəttə. Deyir bəzi adamlar otaqlarında pəncərələri, qapıları güzgülərlə əvəz eləyir, yəni hara baxır, özünü görür. Belə adamçün yalnız tək bir özü mövcuddur. Onun üçün nə pəncərədən görünən mənzərə var, nə də qapının dalındakı həyat. Ancaq güzgü. Ancaq özü. İkinci qisim adamlar pəncərədən baxır. Pəncərədən dünyanı, həyatı seyr edirlər, seyrçidirlər. Pəncərədən gördükləri yaxşılıqları, pisliklərı ancaq kənardan müşahidə edirlər. Və nəhayət, üçüncü qisim adamlar qapını açıb həyata, insanların yanına çıxanlardır. Pəncərədən gördüyü yaxşılıqlara qapıdan çıxıb qəhmər dururlar, pislik görəndə yenə qollarını çirməyib davaya girişirlər. Pəncərə, qapı, güzgü. Mən qapının tərəfdarıyam, – bir qədər susub güldü və əlavə etdi: – Əlbəttə, o demək deyil ki, mən çantamda güzgü gəzdirmirəm.

Küçədən maşın keçdi gecənin səssizliyi parçalandı, maşın səsi uzaqlaşanda, sükut yenə qapandı.

– Bilirsən, Təhminə, sənin dediklərin çox doğru və gözəl fikirlərdir. Ancaq məsələ ondadır ki, bütün bunlar yenə də abstraksiyalardır, mücərrəd məfhumlardır. Mənə isə konkret cavablar lazımdır. Başa düşürsən, mən bilmək istəyirəm ki, şəxsən mən – Namazov Nemət nə üçün yaşayıram, hansı amalla, hansı məqsədlə? Məni düzgün başa düş. Mən nihilist və skeptik deyiləm. Yüksək amala da inanıram. Böyük mənada məqsədim də var. Cəmiyyətin məqsədlərini başa düşürəm. Xalqımın problemlərini də anlayıram. Ədalətli, azad, gözəl bir cəmiyyət. Bərabərhüquqlu insanlar, bərabərhüquqlu millətlər. Nə əzən

var, nə əzilən. Bütün dünyada sülh və əmin-amanlıq. Ən uzaq ölkələrdə belə aclıq, fəlakət, xəstəlik olmasın. Mən bütün bunları arzu edirəm. Bu məqsədlərin yolunda, necə deyərlər, canımı, qanımı verərəm. Çox yaxşı. Amma, bax şəxsən mənim, otuz üç yaşlı tərcüməçi Nemət Namazovun konkret məqsədi, işi nə olmalıdır? Mənim nə xüsusi bir parlaq istedadım, nə böyük bir bacarığım var ki, xariqüladə işlər görüm. Mənim elədiyim işi isə, başqası da lap gözəl, bəlkə də məndən yüz dəfə yaxşı, ya məndən bir az pis, fərqi yoxdur, hər halda mənim işimi başqası görə bilər. Bəs mənim necə deyərlər, mütləqliyim, əvəzsizliyim nədir, mənim öz yerim hardadır ki, o yerdə məni heç kəs əvəz edə bilməz? Şəxsən mənim məqsədim, konkret olaraq mənim məqsədim nədir? Maşın almaq? Kooperativ evə yazılmaq? Ya bütün ömrüm boyu Murtuz Balayeviçin atmacalarına göz yummaq, Dadaşa yarınmaq, Mürşüdün şitliyinə gülmək? Hə?

– Mürşüd kimdir, Murtuz Balayeviç kimdir, ay Nemət?

– Tanımasan yaxşıdır, mənim durub-oturduğum adamlardır...

– Pis adamlardır?

– Nə bilim? Pis adam, yaxşı adam. Məgər bilmək olar, pis adam kimdir, yaxşı adam kimdir?

– Aman Allah! Ay Nemət, dünən həmin bu sözləri mən özüm bir nəfərə deyirdim. Amma, Nemət, axı, vallah, belə deyil. Hər halda, yaxşı adam yaxşı adamdır, pis adam pis adam...

– Yaxşı, onda bax, mən, pis adamam, yoxsa yaxşı adam?

– Mən səni az tanıyıram, Nemət.

– Çox sağ ol, Təhminə, belə dediyin üçün sənə çox minnətdaram, mərdliyin üçün sağ ol. Desəydin ki, yaxşı adamsan, inanmayacaqdım. Amma düz deyirsən ki, adama yaxşı, ya pis demək üçün onu gərək tanıyasan. Bax, məsələn, o Murtuz Balayeviç ki deyirəm, mənim böyük bacanağımdır, özü hərbçidir, polkovnikdir. Belə bir az köntöy adamdır, namərbutdur e... Sözünün, danışığının yerini bilən deyil, odur ki, məni həmişə əsəbiləşdirir. Ancaq indi fikirləşirəm ki, onu ittiham etməyə mənim nə haqqım var? Kişi oddan-alovdan çıxıb. Müharibədə yaralanıb, qan töküb. Ölümün gözünün içinə baxıb. Hər halda həyatda müəyyən bir yeri, rolu olub ki, orda onu heç kəs əvəz edə bilməzdi. Yaxud o biri bacanağım Cabbar...

– Bacanaq sarıdan deyəsən bolsan.

– Hə, Cabbar, onun arvadı. Elə-belədə söhbət eləyirsən, dayaz adam təsiri bağışlayırlar. Amma axı deyirlər öz sahələrində yaxşı mütəxəssisdirlər. Mühüm dövlət əhəmiyyəti olan bir obyektdə işləyirlər.

Təhminə qəfilcə soruşdu:

– Nemət, neçə uşağın var?

Nemət də qəfilcə cavab verdi:

– Bir, – həyatında ilk dəfə belə cavab verdi.

– Bir?

– Bir, – deyə qətiyyətlə təkrar etdi. – Qızdır. Nərgiz.– Sonra əlavə etdi: – İki böyük qız yoldaşımın birinci ərindəndir.

– Allah saxlasın, hamısını.

Az qaldı desin, səninkilərnən. Sonra yadına düşdü ki, Təhminənin uşağı yoxdur. Qəribə bir həvəslə Nərgizdən danışmağa başladı. Sözlərindən, oyunlarından, marka toplamasından.

– Dünən oturub özü Xoruz babaya uzun bir məktub yazıb. Deyir Xoruz baba keçən səfər tapşırdı ki, hansı quş adlarını bilirsiniz yazın mənə. Bu yazıq şəhər uşağı, quşların adını hardan bilsin? Bəli, oturub buna bir-bir quş adlarını demişəm yazıb. İndi bu gün də səhərdən oturub radionun qabağında ki, Xoruz baba mənim adımı deyəcək. Deyirəm, qızım, məktubu dünən yazmısan, hələ heç gedib Xoruz babaya çatmayıb. Kimə deyirsən? Bəli, axıra qədər qulaq asdı, adını demədilər, bir də gördüm, dodağını büzüb doluxsundu. Deyirəm, qızım, sən lap arxayın ol, gələn həftə mütləq sənin adını deyəcək.

Təhminə səssiz qulaq asırdı. Bir an Nemətə elə gəldi ki, Təhminə yuxuya gedib.

– Təhminə, – dedi.

– Hə... elə bil səsi uzaq bir aləmdən qayıtdı. – Eh, ay Nemət, – dedi. – Belə qızın ola-ola yenə həyatının mənasını axtarırsan...

– Bilirsən mən bu barədə də düşünmüşəm. Deyirəm bəlkə həyatda mənim varlığımın yeganə mənası körpü olmaqdır. Bütün əcdadımın, baba-nənələrimin, atamın, anamın həyatını körpü kimi öz üstümdən keçirib övladlarıma yetirməkdir? Hə? Susursan. Deyəsən yaman naqqalladım, səni lap yordum. Yuxun gəlmir ki...

– Yox.

– Bilirsən, ürəyim yaman dolu idi. Danışdım sənin lə bir, az ürəyim yüngülləşdi. Əşşi, dünən maqnitofon almışam. Səsimizi yazmışıq. Da buna neçə dəfə qulaq asarlar? Beş dəfə, on dəfə, yüz dəfə... Hər qonaq gələndə təzədən qurulur. Eyni sözlər, ibarələr, gülüşlər. Məni dəhşət basdı. Mənə elə gəldi ki, bu elə mənim həyatımın rəmzidir. Dəyişməz, durğun, donub qalmış. İndi də dəhşətlə fikirləşirəm ki, sabah yenə qulaq asacaqlar. Adam istəyir lap başını götürüb qaçsın.

– Daha niyə qaçırsan, ondansa yazını poz.

– Pozum?

– Hə. Nədi, bu ağlına gəlməmişdi?

– İnanırsan ki, yox? Ağlıma hardansa bir fikir düşmüşdü ki, yazılana pozu yoxdur.

Hər ikisi güldü.

– Yox, əzizim, maqnitofon yazısını pozmaq çox asandır. Hansı markadır maqnitofonun?

– Yauza.

– Hə, mənimki də ondandır. Dördüncü düyməni bas, vəssalam. Pozulsun getsin.

– Ay sağ ol. Əməlli-başlı başıma ağıl qoydun. Deməli, dördüncü düymə. Çox sağ ol.

– Sən də sağ ol, – əsnədi, – hələlik...

– Dayan, dayan. Yaxşı, axı əsas məsələ yaddan çıxdı.

– Hansı məsələ?

– Sənin gözlərinin rəngi.

Güldü.

– Gözlərim elə rəngdədir ki, heç bir sözə, tərifə sığışmaz: Gərək özün görəsən. Sabah işdə baxarsan.

– Sabah yox, bu gün... Eşidirsən, tramvaylar başladı işləməyə.

– Bizim küçədən tramvay keçmir. Oy, babamın babası, – əsnədi, – doğrudan a, səhərdir. Dan yeri sökülür. Düz deyirmiş Füzuli: "Var sübh". Gedim heç olmasa bir az yatım, yoxsa işdə mənim sifətimə baxıb qorxarsınız.

Qoy görək əşi, istəyirsən sənə kompliment deyim?

– De də, nə olar ki? Hansı qadın komplimentdən imtina edər?

– Deyim də... sən çox gözəl, çox yaxşı, çox ağıllı qızsan. Bu gecəki söhbətimizi mən heç vaxt unutmaram. İndi sən də axırda mənə bir

söz de ki, gedim yaxşı yuxu görüm. Yoxsa elə bimənzə yuxular görürəm ki...

– Qoy sənə öz yuxumu danışım, sən də onu gör.

– Danış.

– Bu yuxunu tez-tez görürəm. Eyni bir yuxunu. Bayaq sən zəng eləyəndə də görürdüm. Görürəm ki, dəniz sahilindəyəm. Aydın, işıqlı bir gündür. Sahil bomboşdur. Bircə mənəm. Təpə-tənha. Dəniz gömgöydür. Uzaqda, lap uzaqda, üfüq xətti tərəfdə ağ bir liman görünür və bu ağ limanda qıpqırmızı gəmilər dayanıb.

– Əcəb yuxudur. Çox sağ ol, əzizim. Gecən, yox, səhərin xeyrə qalsın. Bağışla məni.

– Sən də sağ ol. Dördüncü düymə, unutma.

Dəstəyi asdı. Papiros yandırdı. Bir müddət telefonun yanındaca oturdu, sonra səs, hənirti eşidib otağa keçdi. Pəncərələrdən süzülən hələ solğun səhər işığında balaca Nərgizin cizgiləri daha da məsum görünürdü. Səs də onun səsiydi. Nərgiz yuxuda danışırdı: turac, qırqovul, kəklik, sora göyərçin. Nemət bir müddət qızının başı üstündə dayandı. Onun indi gördüyü yuxusunu təsəvvüründə canlandırmağa çalışdı. Buludsuz göy, yaşıl budaqlar, qanadlı quşlar. Nərgiz yenə də adda-budda sözlər deyirdi: toyuq, xoruz, sora bülbül, sora...

Dördüncü düymə. Nemət cəld o biri otağa keçdi. Maqnitofona yanaşdı. Dördüncü düymə, vəssalam. Nə Alyagilin iki dəfə böyük maqnitofonu qalacaq, nə Sürəyyanın dolaşıq cümlələri, nə Karmenin istehzası. Nə də "bir də mən görsəm ki..."

Hamı yatıb. Pozsan, gərək indi pozasan. Bilsələr qoymayacaqlar. Onlara izah da edə bilməyəcəyəm. Özüm özümə izah edib aydınlaşdıra bilmədiyim bir şeyi onlara necə izah edəcəm?

Maqnitofonu işə saldı. Qızdırdı. Sonra dördüncü düyməni basdı.

– Vəssalam, – dedi. – Burda bir elə hikmət yox imiş.

Lenti tərsinə – fırladıb qulaq asmağa başladı. Sükutu, səssizliyi dinlədi. Xoşlandı. – Basırıq tramvayın konduktoru bürkü yay gününün gecəsi adamsız reyslərin – seyrək sərinliyindən xoşlanan kimi.

– Vəssalam, – deyə təkrar etdi. – Qurtardı. Nöqtə.

Küçədən tramvay keçdi. Nargin tərəfdən gələn gəminin uzaq fit səsi eşidildi.

Nemət maqnitofonu söndürüb öz otağına qayıtdı. Soyunub yerinə girdi. Yuxuladı.

Yuxu gördü.

Gördü ki, böyük bir dənizin sahilindədir. Sahil bomboşdur. Dəniz uzandıqca uzanır.

Sahil sapsarıdır. Sarı qumlar.

Dəniz gömgöydür. Ləpəsiz.

Ancaq birdən gördü ki, dənizin, göy dənizin lap, lap uzağında nə isə ağ bir şey görünür: ağ liman.

Ağ... Ağ...

Ağappaq. Və bu ağ limanda qırmızı gəmilər dayanıb. Qırmızı... Qırmızı...

Qıpqırmızı...

1965
Bakı – Kislovodsk

